**Rahil Məmməd**

# Sultanlı xatirələrin işığında

**Bakı - 2025**

***Redaktor:  Firuz Mustafa***
***Korrektor: Elçin Nəsib***

***Rahil Məmməd,***
***“Sultanlı xatirələrin işığında”***
***Bakı, «İMZA» nəşrlər evi, 2025,  160 səh***

*Kitabda İkinci Qarabağ müharibəsində qəhrəmancasına şəhid olmuş İbrahimov Sultan Mikayıl oğlu haqqında yüksək çinli komandirlərinin və digər silahdaşlarının , eləcə də şəhidin doğmalarının, dostlarının xatirələri və ona həsr olunmuş şeirlər toplanmışdır.*

***Cənnətə daxil olub oradakı nemətləri gördükdən sonra dünyaya geri dönməyi şəhidlərdən başqa heç kim arzulamaz. Yalnız şəhidlər qiyamət günündə gördükləri lütflərin çoxluğuna görə yenidən dünyaya qayıtmağı arzularlar.***

**Hz. Peyğəmbər (s.ə.s)**

**İSBN 978-9952-37-440-1**

**© Rahil Məmməd - 2025**



**İbrahimov Sultan Mikayıl oğlu**
**24.04.1996**
**24.10.2020**

 

# AZƏRBAYCAN HİMNİ

***Sözlər:* *Əhməd Cavad***
***Musiqi:* *Üzeyir Hacıbəyov***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət,
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!

# Ön söz əvəzi

Millətimiz böyük milli və ümumbəşəri dəyərləri olan, dünya mədəniyyətinə incilər bəxş edən qədim xalqlardan biridir. Biz qəhrəmanlıq dastanımız olan "Kitabi-Dədə Qorqud"umuzla haqlı olaraq fəxr edirik. Azərbaycan xalqı dünya mədəniyyəti xəzinəsinə qiymətli əsərlər bəxş edən Nizamiləri, Füzuliləri, Sabirləri... (siyahını xeyli uzada bilərik) bəxş etmişdir. İstər mədəniyyət, istərsə də qəhrəmanlıq tariximizə görə özümüzü xoşbəxt xalqlardan biri hesab edə bilərik.

Bədbəxtliyimiz ondadır ki, nəsibimizə sonradan özlərini erməni adlandıran millət kimi (onları etnik qrup adlandırmaq daha düzgün olardı) haylarla qonşu olmaq düşüb. Bu toplum heyrət doğuracaq dərəcədə həyasız, nankor, rəzil və xəstədir. Son dərəcə xəbis, hiyləgər, quduz canavar kimi qaniçən, insanlıq duyğularından məhrum olan bu millət haqda düşünəndə istər-istəməz bir el deyimini xatırlamalı olursan: "Qozbeli qəbir düzəldər". Vəssalam!

Bu yazdıqlarım, əlbəttə, bir azərbaycanlı yazar olaraq təkcə mənim fikirlərim deyil. Həmişə erməni təəssübkeşliyi ilə ermənilərin özlərini də kölgədə qoyan millətin – fransızların tanınmış insanlarının, eləcə də erməni millətindən olan insanlıq simasını qismən də olsa saxlamış erməni ziyalılarının dedikləri və yazdıqları bunları bir daha sübut edir. Aşağıda bunların bir qismini nəzərdən keçirək:

- Fransız yazıçısı Aleksandr Düma (ata): "Ermənilər fikirlərini, niyyət və duyğularını gizli

saxlayan, hiyləgər, kələkbazdırlar. Dünən onlara həyan olan, yardım edən insanlara bəd ayaqda köməklik göstərməz, nankorluq edərlər".

• XIX əsrin fransız səyyahı qraf Arman Pyer de Şölye: "...Mən onlarla (ermənilərlə) heç zaman dil tapa bilmədim. Onların hiyləgərliyi olduqca iyrənc, alçaqlığı olduqca dözülməz, əclaflığı olduqca təəssüfləndiricidir."

• 1920-ci ilin 20 iyulunda Fransanın Qafqaz üzrə ali komissarı Damien de Martel tərəfindən Fransa Xarici İşlər Nazirliyinə göndərilən məktubdan: "…Hərbi əməliyyatlara gəlincə, Ermənistandan yenicə qayıtmış şahidlərdən əməliyyatların necə aparıldığına dair bir sıra məlumatlar əldə etmişəm. İyun ayının axırlarında erməni qoşunları 40 000-dən çox azərbaycanlının yaşadığı İrəvanın cənubundakı 25 kəndi mühasirəyə alıblar. Paytaxta yaxın ərazidə yaşayan və hansısa müstəqillik iddiasında olmayan bu sülhpərvər əhali həmişə sakit həyat tərzi sürüb. Onları top atəşləri ilə yaşadıqları kəndlərdən qovaraq Araz çayına töküblər. Boşalan kəndləri isə qısa müddətdə gəlmə ermənilər işğal edib. Bu hadisə zamanı erməni əsgərlər tərəfindən,qadın və uşaqlar da daxil olmaqla 4 000 azərbaycanlı Araz çayına atılaraq öldürülüb".

• Fransız alimi De Ban: "Erməni kilsəsi bir müddət saxta pul düzəldənlərin yuvası olmuşdur. Bu monastr məndə dini mərkəzdən çox siyasi mərkəz təəssüratı yaratdı."

• Xocalı qırğınının şahidi olmuş fransız jurnalisti Jan İv Yunetin məqaləsindən: "Biz Xocalını müdafiə edənlərin, yüzlərlə dinc sakinlərin – qa-

dınların, uşaqların, qocaların tanınmaz hala salınmış meyitlərini öz gözlərimizlə gördük… Ermənilər bizim vertolyotu da atəşə tutduğundan çəkilişi sona çatdıra bilmədik. Amma yuxarıdan gördüklərimiz törədilən vəhşilikləri təsəvvürə gətirməyə kifayət edirdi. Bu, tükürpərdici mənzərə idi. Mən müharibələr, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişdim. Lakin 5-6 yaşlı uşaqları, dinc əhalini qətlə yetirən ermənilər faşistləri də geridə qoymuşdular… Növbəti kəndi zəbt edərkən bir erməninin sağ-salamat uşağı götürüb iki yerə böldüyünü gözlərimlə gördüm. Sonra həmin bədənin bir hissəsi ilə ananın sifətinə, başına o qədər döydü ki, övladının al-qanına bulaşmış qadın havalanıb gülməyə başladı".

• Fransız tədqiqatçısı Maksim Qoen: "Erməni məsələsi" ilə bağlı beynəlxalq məhkəmə Britaniya hökuməti tərəfindən Maltada keçirilmiş və tam iflasa uğramışdır. 1919–1921-ci illərdə başlanan və iki ildən çox davam edən araşdırmaların yekununda Maltada həbs olunmuş rəhbər vəzifəli 144 Osmanlının əleyhinə heç bir ittiham təsdiqlənməmiş, ələ keçən Osmanlı vəsiqələrində qırğına səbəb ola biləcək hərəkətlərin olmadığı təsdiq edilmişdir. Əksinə, yaşayış yerini dəyişdirən ermənilərin hətta mühafizə olunduğu müəyyənləşdirilmişdir. Əgər soyqırımına dair hər hansı bir dəlil olsaydı, ingilislər bu fürsəti qaçırmaz, osmanlılara bəraət verməzdi".

Qeyd: Fransadakı erməni təşkilatları Maksim Qoeni "nasist", "soyqırımı tərəfdarı" adlandırırlar və onu dəfələrlə məhkəməyə veriblər.

• Fransanın "Le Monde" qəzetindən: "Ağdam-

da olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında baş dərisi soyulmuş, dırnaqları çıxarılmış 3 meyit gördülər. Bu, Azərbaycan təbliğatı deyil, reallıqdır… Xocalı hadisəsi Hitler faşizminin Xatın kəndində törətdiyi müsibətlə müqayisədə daha dəhşətli idi. Ermənilər bu qəddar terror aktı ilə öz vəhşi xislətlərini bütün dünyaya bəyan etdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin dinc sakinlərinə divan tutuldu. Xocalıda yalnız ölülər qaldı…"

**14 mart, 1992**

• Fransanın "Liberation" qəzetinin əməkdaşı Jül Gen Vaynerin məqaləsindən: "Xocalıda baş verənlər qabaqcadan hazırlanmış ssenari üzrə həyata keçirildi. Hələ Xocalı işğal edilməzdən bir gün əvvəl 49 azərbaycanlı əsir alınaraq kütləvi şəkildə güllələndi. Batalyon və hərbi hissələrin komandirləri dinc əhalinin məhvinə qərar vermişdilər. Hücumdan bir neçə saat əvvəl 366-cı alayın qərargahında 58 azərbaycanlı qətlə yetirildi. Onların çoxu qadın və uşaqlar idi. Meyitlərin gömüldüyü quyuların yanından keçmək mümkün deyildi, oradan dözülməz meyit iyi gəlir, itlərin, çaqqalların səsləri eşidilirdi… Ermənilər Xocalıda qətlə yetirdikləri 100 nəfəri yanaşı düzərək körpü düzəltdilər. Mən meyitlərin üzərindən keçdim. Ayağımı körpə bir uşağın sinəsinə qoyanda elə titrədim ki, fotoaparatım, bloknotum, qələmim yerə düşdü, qana boyandı. Özümü tamamilə itirdim. Bütün bədənim əsirdi..."

• Erməni əsilli Fransa jurnalisti Berain Siracyanın "Hücumdan əvvəl" məqaləsindən: "Xocalıda baş verənləri öz gözlərimlə gördüm. Hər tərəfdən qan qoxusu gəlirdi. Qarın üzərində düşüb qalmış kimsəsiz, cansız meyitlərdən vahimələndim… Ona görə vahimələndim ki, bu qanı Azərbaycanın, onun gələcək nəsillərinin heç zaman unutmayacağını və susmayacağını anladım. Bu gün ruslar bizimlədir. Bəs sabah? Biz tək qala bilərik"

Bəla burasındadır ki, bu xəstə topluma qahmar çıxan bəzi üzdəniraq qəyyumları da var. Onları sevdiklərinə görə yox, bəlanı özlərindən uzaqlaşdırıb bizim tərəfimizə yönəldərək bu dəli, ağılsız toplumun başını qatmaq, bulanıq suda balıq tutmaq üçün. Öz mənafelərinə görə bu şər ocağını gecə-gündüz körükləyirlər. Başa düşürlər ki:

***Neçə ki var, Yer üzündə erməni,***
***Hara düşsə, deyəcək, bu yer mənim...***

Ermənidən daha çox ermənilik edən İran, Rusiya, Fransa və daha neçə yalançı demokratiya maskalıları... Təəssüf ki, biz bu şər qüvvələrlə əhatə olunmuşuq!

Gənc dost, mən bunları səni qorxutmaq üçün yazmıram. Həyatımızın reallıqlarına işıq tutub yaddaşını təzələmək üçün yazıram. Yazıram ki, dostunu, düşmənini tanıyasan, hər zaman bütün düşmənlərimizin məkrli hücumlarına sinə gərə bilmək üçün güclü olasan.

2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsi göstərdi ki, millətimiz birləşəndə həqiqətən

güclü olur, düşmənə layiq olduğu yerini göstərə bilir. Yolu Şəhidlik zirvəsindən keçsə belə! Bu il (2023, 19 sentyabr) bir günlük lokal xarakterli antiterror tədbirləri Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya bir daha göstərdi. Ermənistanın daşnak-faşist seperatçı qüvvələri dəmir yumruğun sarsıdııcı zərbələrinə davam gətirməyib ağ bayraq qaldırdı.

Bu kitabda haqqında sizə söhbət açacağım şəhidimiz Sultan İbrahimov kimi oğullarımızın sayəsində əmin olduq ki, qəhrəmanlıq bu millətin qan yaddaşında, genefondundadır.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

**Kitabın tərtibçisindən**

# Unutmayaq

Unutmayaq heç zaman
ölümü Haqq yolunda
şərbəttək içənləri!
Unutmayaq heç zaman
Vətən, torpaq naminə
canından keçənləri!

Unutmayaq heç zaman
Şəhidlər ölü deyil,
Şəhidlər diridirlər!
Müqəddəs məzarları
bizə and yeridirlər!

Unutmayaq heç zaman
Şəhid bizə torpağı
əbədi Vətən edib!
O bir ailədən yox,
Bütöv bir eldən gedib!

Unutmayaq heç zaman!
Bu söz yaddaşımızda
olsun qulaq tanamız!
Hər bir Şəhid anası
Bizim doğma anamız!

Bu adi bir söz deyil,
Müqəddəs kitab yazır,
Şəhidi kim anırsa -
Özünə savab yazır!
Unutmayaq heç zaman!

## Döyüş meydanında qisası alınmış şəhid

Biz çevikçilər üçün Vətəninə, dövlətinə və millətinə, Müzəffər Ali Baş Komandanına sədaqətlə xidmət etmək, hər an bu yolda can fəda etmək şərəf bildiyimiz ən uca dəyərlərdəndir. Azərbaycan var olduğu dövrdən etibarən torpaqlarımızı yadelli işğalçılardan qorumaq üçün millətimiz qəhrəmanlıq və şücaət göstərmiş və bu yolda canlarını fəda etmişlər.

2020-ci il 27 sentyabr tarixindən başlanan və cəmi 44 gün davam edən haqq savaşımız qürurunu daim şərəflə yaşadacağımız növbəti, lakin təkrarlanmayan bir tarixdir. Yenilməzlik və qəhrəmanlıq simvolu kimi qiymətləndirilən Vətən müharibəsi düşmən tapdağında olan torpaqların azad edilməsi və ərazi bütövlüyünün təmin edilməsi ilə nəticələndi. Bu gün bu müharibə və onun uğurları hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib.

Ali məqsəd uğrunda, Zəfərə çatmaq üçün kimsə tərəddüd etmədi, hər biri başını dik tutaraq ölümə meydan oxudu, şəhadətə yürüdü!. Döyüşlərdə mənfur düşmənə ağır zərbə vuran, layiqli dərs verən şəhidlərimiz qəhrəmanlıq salnaməsinə adlarını yazmaqla Vətənin bölünməzliyinə imza atdılar. Dövlət və xalq qarşısında öz borcunu sonadək ödəyərək şəhidlik zirvəsinə yüksələn və qazi olan hər bir vətən oğlu öz adını xalqın yaddaşına qanı ilə əbədi həkk etdi.

Vətən müharibəsi zamanı Dövlət Sərhəd Xidmətinin şərəf və qürur daşıyıcıları sayılan Çevik

Hərəkət Dəstəsinin şəxsi heyəti döyüşlərə qatılaraq düşmənə ağır və sarsıdıcı zərbələr endirmiş və qarşıya qoyulmuş döyüş tapşırığını uğurla icra etmişdir. Həmin dövrdə mən, Çevik Hərəkət Dəstəsi komandirin birinci müavini, Qərargah rəisi vəzifəsində xidmət edirdim. Hərbi hissə komandiri ağır yaralandığı üçün dəstəyə verilmiş döyüş tapşırığının icrasına rəhbərlik mənə həvalə edilmişdi. Həyata keçirilən döyüş tapşırıqları zamanı Çevikçilərin sıralarından şəhidlər və qazilər olmuşdu. Şəhidlik məqamını ən şirin nemət sayan çevikçilərdən biri də kiçik gizir Sultan Mikayıl oğlu İbrahimov idi. Vətən müharibəsi başlamazdan əvvəl Sultan Sahil Mühafizəsində xidmət edirdi. Vətən müharibəsi başlayanda Sultan vətən torpaqlarının azad edilməsi arzusunun reallaşacağına əmin olduğu üçün elə müharibənin ilk günlərindən könüllü olaraq Çevik Hərəkət Dəstəsinin tərkibində cəbhəyə yollandı. Cəbrayıl, Zəngilan uğrunda gedən döyüşlərdə Sultan əsl qorxmazlıq nümunəsi göstərir, öz fədakarlığı ilə döyüş yoldaşlarına dəstək olurdu. O, Xüsusən Əmirvarlı və Bala Soltanlı səddinin yarılması və Zəngilanın azad edilməsində, düşmənin əks hücumunun qarşısının alınmasında yüksək şücaət göstərmişdir.

Həmin döyüşlər zamanı bir xatirəmi Sizinlə bölüşmək istəyirəm.

19.10.2020-ci il tarixdə Zəngilan şəhərinə hücüm əməliyyatı həyata keçirildi. Qısa zaman ərzində şəhər cəmləşmə atəşinə tutuldu və nəticədə düşmən itki verərək Qafan və Razdərə istiqamətində qaçmağa məcbur oldu. Gecə saatlarında

şəhərə daxil olduq, arama-tarama tədbirləri həyata keçirildi və şəhərin azad olunması barədə Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanına məruzə edilməsi bizə nəsib oldu. 21.10.2020-ci il tarixdə səhər saatlarında Zəngilan rayonunun Pirçivan qəsəbəsi istiqamətində düşmənin diversiya qrupu şəhəri ələ keçirmək üçün hücuma keçdi. Qısa zaman ərzində əks həmlə əməliyyatı yerinə yetirildi və qeyri - bərabər döyüşdə düşmənin diversiya qrupu tam məhv edildi. Döyüş zamanı Sultan da digər döyüş yoldaşları kimi düşmənə aman vermirdi. Lakin düşmən tərəfindən açılan güllə Sultana tuş gəldi və o şəhidlik zirvəsinə yüksəldi. Döyüşü bilavasitə mən idarə etdiyim üçün Sultana atəş açan həmin iki nəfər düşməni gördüm, hər ikisini məhv etdim və həmin vaxt özüm də əlimdən güllə yarası aldım.

Bu gün az da olsa, bir təskinlik tapıram. Çünki Sultan kimi bir döyüşçünü şəhid edən düşmən, yerindəcə məhv edilmiş, igid, qorxmaz, şücaətli bir silahdaşımızın nəşi torpağa qoyulmadan qisası alınmışdır. Sultan digər şəhidlərimiz kimi bizim qürur mənbəyimizdir. Şəhidlərimizin məzarı, onların adını daşıyan hər bir məkan biz Çevikçilər üçün and yeridir. Kiçik gizir Sultan Mikayıl oğlu İbrahimovun keçdiyi qısa, lakin şərəfli ömür yolu tarixi bir salnamədir. Biz qürurluyuq ki, haqq savaşımızda Sultanla birlikdə çiyin-çiyinə döyüşmüşük. Onun xatirəsi bizim üçün daim müqəddəs olacaqdır.

**Babək Ələkbərov,**
*general-mayor, Vətən Müharibəsi Qəhrəmanı*

## Qəlbimizdə yaşayacaq

Torpaqlarımızın azad olunmasında 44 günlük Vətən müharibəsində öz qanları və canları bahasına verilmiş tapşırıqları ən yüksək səviyyədə icra edən Vətən övladları qarşısında baş əyirik.

Azərbaycan Respublikası DSX-nin Sahil Mühafizəsinin şəxsi heyəti sıralarından könüllü olaraq döyüşlərə qatılmış şəhid İbrahimov Sultan Mikayıl oğlu həm Sahil Mühafizəsinin, həm də onu sevənlərin, doğmalarının qürur yerinə çevrilmişdir.

Bu azad Vətənimizin hər bir diyarında firavan yaşayan xalqımız Sultan və onun kimi oğulları qəlbində daim yaşadacaq!

**Müzəffər Pirizadə,**
*General-mayor Sahil Mühafizəsinin rəisi*

## "Balaca Əjdaha"nın nağılı
*("Müqəddəs savaş"kitabından)*

Sizə bir nağıl danışmaq istəyirəm. "Balaca Əjdaha"nın nağılını. Yox, bu sizin bildiyiniz nağıllardakı ağzından od püskürən, yeddibaşlı, uçan əjdahalardan deyil. Mənim Balaca Əjdaham Yer üzünə xeyirxahlıq rəmzi kimi gəlmiş, heyrət olunacaq dərəcədə böyük, geniş, saf ürəyə malik, yaxşı əməlləri özünə həyat idealı kimi götürmüş imanlı birisidir.

Sultan Mikayıl oğlu İbrahimov 24 aprel 1996-cı ildə Salyan şəhərində dünyaya gəlib. Aşıq Pənah adına tam orta məktəbdə 1-ci sinfə gedib. Tale elə gətirib ki, ailəsi bir parça çörək dalınca əvvəl Bakıya, sonra isə Rusiyaya üz tutmalı olub.

Atası Mikayıl valideynlərini erkən itirmişdi. Onun on iki yaşı olanda anası, 18 yaşı olanda atası dünyasını dəyişmişdi. Özü də ailə qurandan sonra on nəfərlik ailənin – həm öz ailəsinin, həm də bacılarının yükü onun üzərinə düşmüşdü. Bu yükün altından şərəflə çıxmaq üçün yollar axtaran Mikayıl Moskvada yaşayan dostlarının yanına qonaq getmişdi. Orada ona iş təklif etdilər. Biznеslə məşğul olmağa başladı. Sonra gəlib ailəsini də Rusiyaya apardı. Böyük çətinliklərlə üzləşən ailə bir müddət Elektroqorsk şəhərində məskunlaşdı. Balaca Sultan və qardaşı Aqil burada təkrar birinci sinfə getdilər. Yeddinci sinfə qədər burada oxuyub, yenidən Azərbaycana qayıtdılar. Salyanda öz doğma məktəblərində təhsillərini davam etdirdilər. Sultan 9-cu sinfi bitirib Bakı Biznes və

Kooperasiya Kollecinin "Gömrük işi" fakültəsinə daxil oldu. Üç il altı ay burada oxuyub kolleci bitirdikdən sonra 2016-cı ilin iyulunda həqiqi hərbi xidmətə yollandı. Əsgərliyini Naxçıvan MR-nın Ordubad rayonunda – Soyuqdağ yüksəkliyində çəkirdi. Yaxşı xidmət etdiyi üçün onu iki dəfə evə məzuniyyətə buraxmışdılar. Əsgərlikdə snayper kursunu bitirib snayperçi ixtisasına da yiyələnmişdi.

2018-ci ilin yanvarında ordudan tərxis edildikdən sonra bir il Salyanda dostlarının arasında oldu. İbadət edir, mütaliə ilə məşğul olurdu. Ən çox sevdiyi isə dini və klassik ədəbiyyatlar idi. Tay-tuşlarının arasında ədəb-ərkanı, böyük-kiçiyin yerini bilməsi, əxlaqı ilə seçilirdi. Vətənpərvərlik mövzusunda olan televiziya verilişlərinə baxmaqdan çox xoşlanırdı. Atası deyir ki, Azərbaycanın Milli Qəhrəmanları Mübariz İbrahimovun, Murad Mirzəyevin, Samid İmanovun haqqında olan televiziya verilişlərinə həvəslə baxırdı. Əsas məşğuliyyətlərindən biri də idmanla - güləş və ağırlıqqaldırma ilə məşğul olması idi. Elə bil ki, özünü gələcək döyüşlərə hazırlayırdı.

Məlumdur ki, Sultan uşaqlığını və yeniyetməlik dövrünün bir hissəsini Rusiyada yaşamışdı. Buna baxmayaraq, onda milli kökə bağlılıq, dini və milli mentalitet hiss və təfəkkürü güclü idi. Deyirlər, o taksiyə oturanda tək də olsa, "yaşlı adamlara hörmətsizlik olar"- deyə, heç vaxt qabaqda oturmazmış. Lovğalığı sevməz, heç vaxt qadınlara əl verib görüşməzmiş. Məsciddə, digər ictimai yerlərdə özünü sadə, təmkinli və təvazökar aparar,

heç kəslə kin saxlamaz, başqalarına həmişə birinci salam verər, yaşıdlarına və böyüklərə xidmət göstərməyi sevərmiş. Bu keyfiyyətləri Salyanda ona böyük hörmət qazandırmışdı.

Sultanın maraqlı cəhətlərindən biri də onun son dərəcə rəhmdil olması idi. Atası danışır ki, bir dəfə maddi cəhətdən sıxıntım var idi. Heç kəsə də bir söz demirdim. Səhər çıxanda üstümdə olan son beş manatı evdə çörəkpulu etsinlər deyə, stolun üstünə qoymuşdum. Necə oldusa, evə tez qayıtdım. Sultan mənə yaxınlaşıb dedi: "Ata, olar, stolun üstündə olan beş manatı götürüm?" Soruşdum ki, neynirsən, oğlum? Dedi: "Ata, həyətimizdə bir pişik balalayıb. Acdır. Ona yem almaq istəyirəm. Balaları acından ölər, dilsiz-ağızsız heyvandır". Deməyə başqa söz tapmadım. Dedim, götür, bala.

2019-cu ildə Sultan sərhəd qoşunlarında işə düzəlib. Lənkəran şəhərinin Vel kəndində ixtisası üzrə sərhəd mühafizəsində çalışmağa başlayıb. Yaxşı maaş alırmış. İşindən həmişə razılıq edirmiş. Dostları, onu tanıyanlar deyirlər ki, Sultan maaşının bir hissəsini imkansız və şəhid ailələrinə yardım edir, amma bu barədə kiməsə danışmağı, özünü reklam etməyi sevmirmiş.

2020-ci il sentyabrın əvvəllərində Sultan İbrahimov işindən ayrılıb XTQ-ə keçmək üçün rəhbərliyə müraciət edir və eyni zamanda zəng edib atasının xeyir-duasını istəyir. Oğlunun bu hərəkəti atanı təəccübləndirir. Ata soruşur ki, oğlum, sən dünənə kimi işindən razılıq edirdin. İndi nə sıxıntın var ki, birdən-birə işindən uzaqlaşmaq istəyirsən? Sultan heç bir sıxıntısının olmadığını, sadəcə

belə lazım gəldiyini, atanın xeyir-duasına ehtiyacı olduğunu söyləyir. Ata əlacsız qalıb xeyir-dua verir.

Lakin bəstəboy olması və çəkisinin azlığına görə Sultanı XTQ-ə götürmək istəmirlər. Sultan idmançı olduğuna görə fiziki hazırlığı yüksək səviyyədə idi. Odur ki, onu qeydiyyata aldılar. Sultan atasına demişdi ki, bizi qısa müddətli təlimlərə cəlb ediblər. Əgər normativləri ödəyə bilsəm, Xüsusi Təyinatlı olacağam. Əks təqdirdə təzədən öz iş yerimə qaytaracaqlar. Bir həftə sonra o, atasına zəng edib sevincək Xüsusi Təyinatlıya qəbul edildiyini xəbər verir. Oğlunun uğuru Mikayılı sevindirir. Onda Mikayıl bilmirdi ki, Sultan yaxınlarda başlanacağı gözlənilən müharibədə iştirak etmək üçün bu mərhələlərdən keçir.

Mikayıl deyir ki, sən demə, onlar müharibənin başlayacağını bilirmişlər. Biz isə yalnız müharibə başlayandan sonra başa düşdük ki, Sultan və onun kimi vətənpərvər oğullar könüllü olaraq müharibədə iştirak etmək üçün bu fədakarlığı edirmişlər. Sonralar öyrəndik ki, Xüsusi Təyinatlıya qəbul olunmaq üçün Sultanla bərabər iki yüz nəfər qeydiyyatdan keçibmiş. Bunlardan yalnız iyirmi üç nəfər Sərhəd Qoşunlarının Xüsusi Təyinatlısına düşə bilib.

Sultangili əvvəlcə Sitalçay ərazisinə, sonra isə Ağgöl və Daşkəsənə təlimlərə göndərdilər. Müharibənin ilk günlərində isə artıq onlar Kəlbəcər istiqamətində Murovdağ yüksəkliklərində idilər. Həmin vaxtlar Sultan atası ilə telefonla danışanda deyirdi: "Ata, buralar çox soyuqdur. Biz bura-

da güllədən yox, soyuqdan əziyyət çəkirik". İki gün sonra isə atası zəng edəndə demişdi: "Ata, burada minamyot mərmisinin qəlpəsi yoldaşlarımızdan birinin ayağını yaralamışdı. Onu dağdan düşürəndə köynəyimi çıxarıb yaralı ayağını bürüdüm. Mikayıl oğlunun əsgər yoldaşına olan bu fədakarlığına görə qürur hissi keçirmişdi. Cəbrayılın bir neçə kəndinin və Xudafərin körpüsünün alınmasında Sultangilin qrupu əsl qəhrəmanlıqlar etmişdi. Onlar Cəbrayılda hansısa yüksəkliyi beş-altı nəfərlə düşməndən təmizləmişdilər. Həmin yüksəklikdə düşmənin əlliyə yaxın qüvvəsi məhv edilmişdi. Sultan orada bir video çəkib paylaşıbmış. Bu, onların özləri üçün təhlükəli olduğuna görə ata oğluna irad tutub, deyib ki, videonu silsin. Atasının və babasının təkidindən sonra Sultan həmin videonu statusdan  silmişdi. Onda təxminən oktyabrın 14-ü idi.

Kəlbəcər, Füzuli və Cəbrayıldan sonra Sultangilin dəstəsi Zəngilan istiqamətində irəliləyirdilər. Bu dövr haqqında xatirələrini hadisələrin birbaşa iştirakçısı və şahidi, Sultanın əslən Saatlıdan olan döyüş yoldaşı İlkin Abbaslı bizimlə bölüşdü.

**İlkin Abbaslı haqda qısa arayış:**

İlkin 19 yanvar 1993-cü ildə Saatlı rayonunda anadan olub. 2011-ci ildə N. Gəncəvi adına Saatlı şəhər 1 saylı orta məktəbini bitirib. Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi İqtisadiyyat" fakültəsini (2011-2015) bitirdikdən sonra bir il hərbi xidmətdə olub. Həqiqi hərbi xidmətini Dövlət Sərhəd Xidmətinin (DSX) Yevlax Çevik

Hərəkət Briqadasında keçib. 2018-ci ildən DSX Sərhəd Nəzarəti idarəsində gizir kimi hərbi işə düzəlib. 09 sentyabr 2020-ci ildən Sərhəd Nəzarəti işindən könüllü surətdə ayrılıb, döyüş hazırlığı təlimlərinə qatılıb.

İlkin Abbaslı döyüş təlimlərinə qatılmış 200 nəfərlik könüllü hərbi qulluqçuların sıralarında Sultanla rastlaşıb. Aralarında dostluq münasibətləri yaranıb. Həmin iki yüz qulluqçudan DSX Xüsusi Təyinatlısına cəmi 23 nəfər seçilmişdi. Seçilənlərin arasında İlkin Abbaslı, Sultan İbrahimov, Xudayar Yusifli və başqaları da var idilər. Dəstə Sitalçay, Ağgöl və Daşkəsən ərazilərində xüsusi təlimlərdən keçdikdən sonra müharibə zonasına göndərilib.

İlkin Abbaslı döyüş dostu Sultanı belə xatırlayır: "Sultanla eyni bölüyə, eyni qrupa düşmüşdük. Xudayar da bizimlə idi. On üç nəfərlik qrupumuz var idi. Biz bütün təlim və tapşırıqlara birlikdə gedirdik. Sultan vicdanlı, saf ürəkli, imanlı, Allahını sevən, dürüst və mehriban, həm də igid bir qardaşımız idi. Onu, sanki, bütün yaxşılıqları göstərmək üçün Allah bizə hədiyyə göndərmişdi. Yadımdadır, hamıya əşyalarını yığmaq üçün çanta veriləndə üç nəfərə çatmadı ki, onlardan biri də mən idim. Sultan mənim etirazıma baxmayıb, əşyalarımı öz çantasına yığdı, mənim üçün daşıdı, mənə kömək elədi. O, təkcə mənə yox, hamıya kömək edirdi. Su payını həmişə qənaətlə işlədər, son damlasını belə yoldaşları ilə bölərdi. Boxçasında yeməyə həmişə bir şey olurdu. Bunu döyüş yoldaşları ilə bölürdü. Elə bil, bizim təminatçımız

idi.

Sultan İbrahimovun boyu və çəkisi Xüsusi Təyinatlılar üçün nəzərdə tutulan normadan kiçik idi. Buna baxmayaraq, yüksək rütbəli rəislərimizin də diqqətini cəlb edirdi. Çünki fiziki cəhətdən çox güclü və bacarıqlı idi. Ağır çəki qaldıra bilir, turnik məşqlərini hamıdan yaxşı icra edirdi. Buna görə də onu çox vaxt "Balaca Əjdaha" ləqəbi ilə adlandırırdıq. Şirin ləhcəli, güləruz, heç kimin xətrinə dəyməyən, hamı tərəfindən sevilən biri idi.

Axırıncı dəfə təpələrin arası ilə Cəbrayıldan Zəngilana piyada yol gedəndə gördüm ki, geri qaldı. Özüm həmişə axırda getdiyimdən onun dayandığını görüb mən də dayandım. Ayaqqabılarını çıxaranda gördüm ki, onun hər iki ayağı yara və qan içindədir. Sən demə, ayaqqabıları onun ayaqlarını bu günə salıbmış. Amma döyüşdən təxliyə edərlər deyə, bu barədə heç kimə demir, dözürmüş. Bir qədər dincəldi. Qalxanda kömək elədim. Yükünü qaldırıb çiyninə qoydum və yolumuza davam etdik. O, ayaqlarına görə arxada hərəkət etsə də, axıradək dözdü. Gəlib Zəngilan ərazisinə çatdıq. Axşam qrup yoldaşlarımızla şam elədik. Bir-birimizlə halallaşıb yatdıq. Səhər tezdən qəfil döyüş başladı. Düşmən bizə basqın etmişdi. Mən atışma zonasına girəndə yerdə iki cəsəd gördüm, amma kim olduqlarını bilmədim. İyirmi beş metrlik məsafədə mövqe tutan düşmənlə atışmağa başladım və onu vura bildim. Sonra atəş altından sağ tərəfə, yoldaşlarımın yanına hərəkət etdim. Döyüş yoldaşlarım şəhid olanlardan birinin Sultan olduğunu deyəndə gözlərim doldu. Özümü

itirdim. Dönüb əvvəlki mövqeyimə qayıdanda yoldaşlarım arxamca: "Getmə!"- deyə qışqırdılar. Sultanın şəhid olması məni özümdən çıxarmışdı. Heç nə eşitmək istəmirdim. Düşmənlərdən biri ilə atışmağa başladım. Deyəsən, gülləsi qurtarmışdı, ya nə idisə aradan çıxmaq istəyirdi. O qaça bilməsin deyə, üstünə yüyürdüm. Mənə güllə dəydiyini hiss eləməmişdim. Ona çatmağa az qalmış, aramızda bir uçuq divar qalanda üstümə atılmış əl qumbarası partladı. Ağır yaralandım. Döyüş yoldaşlarım məni atəş altından çıxarıb xəstəxanaya çatdırdılar...

Mən sonuncu dəfə Sultan qardaşımı belə gördüm.

* * *

Sultan İbrahimov 21 oktyabr 2020-ci ildə səhər tezdən düşmən basqınına məruz qalmış dəstənin üzvlərindən çoxsaylı düşmənə qarşı ilk atəş açmış, düşmənlərə sarsıdıcı zərbə vuraraq onlara itki versə də, düşmən pulemyotundan açılan atəş nəticəsində səcdə vəziyyətindəcə şəhid olmuşdur. Onun fədakarlığı dəstənin digər üzvlərinin məhv edilməsinin qarşısını almışdır.

**Şəkinin Qaraqoyunlu kəndindən olan döyüşçü dostu Sultanov Canpolad Fikrət oğlu da Sultan İbrahimovla bağlı xatirələrini bölüşür:** "Sultanla tanışlığım 14 sentyabr 2020-ci il, təxminən günorta saatlarına təsadüf edir. Xüsusi Təyinatlı Qüvvələrə düşmək üçün qeydiyyatdan keçmişdim. Nahardan sonra bufetə çay içməyə gəldim. İçəri girəndə bir-biri ilə söhbət edən iki nəfər

diqqətimi çəkdi. Bunlardan biri mənim gələcək dostum Sultan idi. O, dini mövzuda söhbət edir, xeyirxah əməllərin fəziləti barədə elə gözəl şərhlər verirdi ki, söhbətindən yayınmaq mümkün deyildi. Mən onlara yaxınlaşıb: "Mane olmuram ki?"- deyə soruşdum. Hər ikisi: "Xoşdur",- dedilər. Sultan qardaşım söhbətini bitirdikdən sonra ondan soruşdum: "Siz haradan gəlmisiz?" Dedi: "Sahil Mühafizəsindən". Dedim: "Mən də oradan gəlmişəm". Beləliklə, tanışlığımız dərinləşdi. Biz hər gün gəzməyə, yeməyə birlikdə gedir, birlikdə idman edirdik. Sultan, sanki xeyirxahlıq, düzlük, qələbəyə inam rəmzi kimi bizə göndərilmiş qeyri-adi bir hədiyyə idi. Hamıya nə isə bir yaxşılıq etməyə çalışırdı. Dostluğumuzun ilk günlərində idman edərkən mənim damarım zədələndi. O dərhal mənə kömək edib dedi: "Narahat olma, məndə damar zədəsinə görə maz var, sürtərik, keçib gedər". Sultan qardaşım özü də idmançı idi. Öz çəkisində ağırlıqqaldırma üzrə ölkə çempionu olmaq arzusunda idi. Mən ona "Balaca Əjdaha" ləqəbi vermişdim. Hər ikimizin arzumuz bu idi ki, gələcəkdə dünya çempionu olub, bayrağımızı dünyaya tanıdaq. Sultan qardaşım deyirdi ki, mən bayrağımızı dünyada tanıtmaqla valideynlərimin də başlarını uca edəcəm. Qoy baxıb sevinsinlər. Deyirdi, bayrağını dünyada tanıtmaq bilirsən, necə gözəl hissdir?!

Ürəyimdə Sultan qardaşım haqda o qədər gözəl xatirələr, o qədər gözəl təəssüratlar var ki, mən bunları sözlə ifadə etməyə çətinlik çəkirəm.

Nəhayət, təlimlərimiz bitdi. Seçim vaxtımız

gəldi; kim könüllü hara getmək istəyir. Rəhmətlik qardaşımın – Sultanın dili ilə deyəcəm. Bizlər ÇHD-ni, ( Çevik Hərəkət Dəstəsi) seçdik. İkimiz də sevinirdik. Çünki qardaşımın da, mənim də arzumuz həyata keçmək üzrə idi. Seçim edərkən rəhbər şəxslər bir daha bizə baxış keçirdilər. Qardaşımla mən yenə də həmişəki kimi yanaşı dayanmışdıq. Rəhbər sıranın başından baxa-baxa bizə gəlib çatdı. Üzünü yanında dayanan təlimçi rəhbərə tutub dedi: "Yenə də özün kimi balacaboyları seçmisən!" Təlimçi dedi: "Komandir, siz bu balacanın turnik vurmağını görsəz, deyərsiz ki, əsl çevik elə budur". Komandir qardaşıma səsləndi: "Sən gəl mənimlə!" İgidim gülər üzlə yanımdan ayrılıb getdi. Bir neçə dəqiqədən sonra komandirlə birlikdə yenə də gülər üzlə geri döndü. Komandir: "Bizə elə belə döyüşçülər lazımdır",- deyə məmnunluqla bayaqkı iradını geri götürdü. Və biz gözlədiyimiz məqama daha bir addım da yaxınlaşdıq. Daşkəsəndə daha sürətli və çətin təlimlər davam etdi. Rəhmətlik mənə "Canavar" deyirdi. Mən isə onu "Əjdaha qardaşım", ya da "Balaca Əjdaha" adlandırırdım. Mənim özümün də boyum balaca olduğundan bilirdim ki, onu belə adlandırdığıma görə inciməz. Bəzən yoldaşlar mənə irad tutub deyirdilər: "Guya, sən özün boylu-buxunlusan ki, Sultana Balaca Əjdaha deyirsən?!" Onda hər ikimizin "Drakon" adlandırdığımız başqa bir dostumuz (Möhsün Məmmədov) deyirdi: "Onların yalnız boyları balaca ola bilər. Amma ürəkləri canavar, şir ürəyidir. Görün onlar nələr edəcək!" Drakonun dediyi kimi də oldu. Mənim qardaşım

özünü elə özü kimi göstərdi. Qorxmazlıq, cəsurluq, qəhrəmanlıq, dost yolunda fədakarlıq... bunlar hamısı mənim Balaca Əjdahamın təbiətində cəmləşmişdi.

Artıq məqam gəlib çatdı. Amma mən dərin təəssüf içindəydim. Çünki qardaşımla yolumuz ayrılırdı. Biz döyüşlərə ayrı-ayrı qruplarda qatılacaqdıq. Axşam çıxmağa hazırlaşırdıq. Bu zaman nur üzlü qardaşım mənə yaxınlaşdı və ərkyana: “Nə olub, qardaşım, niyə əsəbisən?”- deyə soruşdu. Mən əsas səbəbi gizlədərək: “Yüküm çoxdur. Yerləşdirə bilmirəm”,- dedim. “Gəl mənim yükümə bax,- dedi,- belə yığarıq. Narahat olma!” Mənim yükümü də yığdıq. “Sursat qalır”,- dedim. Dedi: “Onu da açıq şəkildə çantaya tök ki, orada vaxt itirməyəsən”. Mənim qardaşım qorxmaz və cəsur olmaqla bərabər, həm də tədbirli, hər şeyin yerini bilən qardaş idi.

Göstəriş gəldi ki, gecə saat 00. 30-da çıxışa hazır olaq. İçimdə bir qəriblik hiss edirdim. Sultandan ayrılmaq istəmirdim. Amma neyləmək olar! Ayrı-ayrı qruplarda döyüşməli idik. Vaxta hələ var idi. Dincəlmək lazım idi. Amma gözlərimə yuxu getmirdi. Zaman isə öz axarında idi. Mənim nur üzlü, mömin qardaşım daha bir neçə qardaşla səfər namazı qıldılar. Vaxta 15-20 dəqiqə qalmış qardaşlarım namazlarını bitirib dua edəndə məni yuxu aparıb...

Birdən kimsə çiynimə toxundu. Gözlərimi açanda Sultanı başımın üstündə duran gördüm. Yuxudan tam ayıla bilmirdim. Dedi: “Qardaşım, sizin qrup çıxışdadır”. Başqa qardaşla köməkləşib

məni döyüşə hazır vəziyyətə gətirdilər və biz ilk döyüş tapşırığını yerinə yetirməyə getdik.

Birinci tapşırıqdan qayıdıb müvəqqəti düşərgəmizə gəldik. Hamı ilə görüşdüm. Balaca Əjdaha gözə dəymirdi. Soruşdum, dedilər ki, onların qrupu yuxarıdadır. Bir də gəldim ki, qardaşım uzanıb istirahət edir. Görüşdük. Dedi: “Şükür Allaha ki, sağ-salamatsan!” Oturub xeyli söhbət etdik.

Sonra bizi əvvəl olduğumuz düşərgəyə gətirdilər. Oradan növbəti tapşırığa çıxmalı idik. Yolumuz yenə də qardaşımdan ayrı düşdü. Sağollaşıb ayrıldıq. Uzun müddət bir-birimizdən xəbər tuta bilmədik. Çox narahat idim, çünki bir yerdə döyüşə gəldiyimiz yoldaşlarımızdan xəbər yox idi.

Bizim qrup Xankəndi istiqamətində döyüşürdü, Sultan qardaşımın olduğu qrup isə Arazboyu əraziləri düşməndən təmizləyirdi. Döyüşlərin birində mən yaralandım. Hospitala getməli oldum. Qardaşlarım isə döyüşə davam edirdilər. Onlardan nigaran idim. Sultanla da əlaqə yaratmaq mümkün deyildi.

Günlərin birində sarsıdıcı bir xəbər aldım və çox üzüldüm. Qardaşım Sultan şəhidlik zirvəsinə ucalmışdı! Bircə təsəllim bu idi ki, mənim tanıdığım Sultan bu zirvəni çoxdan gözaltı eləmişdi! Uca Rəbbim qardaşımı o zirvəyə - Şəhidlik zirvəsinə qaldırdı.

Sonra mən təzədən döyüşçü yoldaşlarımın yanına gələndə igid qardaşımın cəsurluğundan və yenə də insani keyfiyyətlərindən danışdılar. Dostumuz Draqon deyirdi ki, döyüş tapşırığını yerinə yetirib qayıdanda Sultan özü susuz olduğu

halda su qabını mənə uzadıb dedi: "İç, Drakon". Rəhmətlik o cür susuzluq olan yerdə də son qətrə suyunu yoldaşı ilə bölmüşdü. Danışırdılar ki, döyüşün qızğın anında yaralı döyüş yoldaşları su istədiklərinə görə Sultan qardaşım özünü odun-alovun içinə atıb, düşmənin əlində olan ərazidəki çaydan beş litrlik qabda su gətiribmiş.

Əziz qardaşım, kaş ki səninlə dostluğumuz bu gün də davam edəydi. Hə, bir də Balaca Əjdaham, yadındadırsa, səni öz rayonumuza, öz kəndimizə qonaq aparacaqdım. Təəssüf ki, qismət olmadı. Sizə getmişdim. Mikayıl atadan, İlhamə anadan halallıq aldım. Üstümdə haqqın olub. Ruhun qarşısında baş əyərək deyirəm: "Şir ürəkli, canavar ürəkli Balaca Əjdaham, haqqını halal et!"

Masallıdan olan komandiri baş leytenant Tural Əkbərov, döyüş yoldaşları Mingəçevirdən olan gizir Faiq Yusifov, şabranlı gizir Möhsün Məmmədov da gizir Sultan İbrahimovun igidliyindən, yüksək insani keyfiyyətlərindən danışdılar. Onu özlərinə qardaş hesab etdiklərini dedilər.

Qəlbi həyat eşqi ilə dolu olan Sultan deyirmiş ki, müharibədən sonra kasıb ailədən olan qızla evlənəcəm ki, yaşamadıqlarını ona yaşadım.

Anası İlhamə xanım: "Sultan mənə deyirdi ki, səni hamıdan çox istəyirəm. Amma o, Vətənini daha çox sevdi",- söyləyir.

Kiçik qardaşı Aqil Mingəçevir Turizm Kollecini bitirib (2018 - 2020). Qardaşı şəhid olanda o da hərbi xidmətdəymiş. Qardaşının tabutu Salyana gətiriləndə gəlib dəfnində iştirak edib. Hazırda Azərbaycan Kooperasiya Universitetinin "Turizm

işinin təşkili" fakültəsində 3-ci kursda oxuyur. O da qardaşının yüksək keyfiyyətlərindən danışdı, onu əvəzolunmaz qardaş kimi xarakterizə etdi.

**Gizir Sultan Mikayıl oğlu İbrahimov ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Döyüşdə fərqlənməyə görə" (18.12.2020), "Zəngilanın azad olunmasına görə" (25.12.2020) medalları ilə təltif olunmuşdur.**

Bu gün Sultan kimi şəhid oğullarımızın ruhları Səməndər quşu kimi ölməzlik qazanıb Vətənin başı üzərində fırlanmaqda, keşik çəkməkdədirlər.

*14.07.2021*
**Rahil Məmməd,**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*şair-publisist*

## İbrahimov Miklayıl Sultan oğlu - Sultanın atası

Oğlum Sultan hələ uşaq vaxtlarından sakit təbiətli, dürüst bir övlad olub. Amma kim onu öz adı ilə çağırmasa, hirslənib dərhal adının Sultan olduğunu deyərdi. Uşaqlıqdan maşınla gəzməyi çox xoşlayardı. Hətta oyuncaqlarının da çoxu maşınlar, xüsusilə də hərbi maşınlar olardı. Bir də qara maskalı əsgər füqurları onun sevimli oyuncaqları idi.

Sultan həmişə qardaşı Aqillə bir yerdə oynayar, birlikdə güləşərdilər. Onlar heç vaxt bir-biri ilə dalaşmaz, qardaş olmaqla bərabər, həm də mehriban dost olardılar. Qeyd etdiyim kimi, uşaq vaxtlarından hərbiyə böyük maraq göstərərdi. Hərbçi olmaq onun arzusu idi. Sultan və Aqil hər ikisi analarını çox istəyir, onunla mehriban davranır, onun sözündən çıxmırdılar. Nə tapşırıq versə: "Baş üstə", - deyə cavab verərdilər.

Sultan qardaşından bir yaş böyük olsa da, hər ikisi 1-ci sinfə eyni ildə Rusiyanın Elektroqorsk şəhərində getmiş, 6-cı sinfədək orada oxumuşdular. Yad dildə - rus dilində oxumaqlarına baxmayaraq, dərslərini yaxşı oxuyurdular. Anaları rus dilini öyrənməkdə onlara kömək etmişdi. Mən də ata kimi onlara baxıb sevinirdim.

Rusiyada olarkən Sultan güləşlə məşğul olurdu. Həmçinin xizək yarışlarında da iştirak edirdi. 2011-ci ildə Rusiyada məktəblilər arasında keçirilən xizək yarışlarında yaxşı nəticələr əldə edən şagirdlərdən biri də Sultan idi. Sonralar biz Azərbaycana qayıtdıq. Sultan təhsilinə doğma Salyan-

da Aşıq Pənah adına 1 saylı tam orta məktəbdə davam etdi. 2013-cü ildə 9-cu sinifi bitirib Bakı Biznes və Kooperasiya Kollecinə daxil olmuşdu. Kolleci bitirdikdən sonra hərbi xidmətə getdi. Əsgərliyini Naxçıvanın Ordubad rayonunda Soyuqdağ yüksəkliyində keçirdi.

Sultan yeniyetmə yaşlarından dininə bağlı bir oğul idi: namaz qılır, ibadətlə məşğul olurdu. Elə bu səbəbdən də özündən böyüklərə hörmət edər, kiçiklərə sevgiylə yanaşardı. Onun diqqət çəkən əsas xüsusiyyətlərindən biri də çox rəhmdil olması idi. O, heyvanlara qarşı da çox diqqətcil idi.

Sultan yaşa dolduqca bizə daha da hörmətlə yanaşar, sözümüzdən çıxmazdı.

Oğlum 2019-cu ilin oktyabrında Dövlət Sərhəd Xidmətinin Lənkəran şəhər Vel kəndində yerləşən Sahil Mühafizə bölməsində kiçik gizir kimi xidmətə başlamışdı. İşindən razılıq edirdi. Avqust ayında mənə zəng edib işini Xüsusi Təyinatlılara dəyişmək istədiyini bildirdi və məndən xeyir-dua istədi. Mən ona xeyir-dua verdim, uğurlar dilədim.

Sultangil 2020-ci il sentyabrın 12-dən Sitalçay ərazisində DSX-nin Xüsusi Təyinatlı Qüvvələrində təlimlərə başladılar. Təlimlərdən sonra mənə zəng vurub sevincək dedi ki, mən artıq Xüsusi Təyinatlı kəşfiyyatçı çevikəm. Mən onu təbrik etdim.

Sultan işlədiyi dövrdə qazancından ehtiyacı olan ailələrə yardım edirmiş. Mən bunu o şəhid olandan sonra eşitdim. Onun dilindən eşitmişdim; deyirdi, kiməsə yaxşılıq edirsənsə, bunu kimsəyə bidirməməlisən. Etdiyin yaxşılığı dilinə

gətirsən, Allah bu əməlini savaba yazmaz.

Sultan Azərbaycana gəldikdən sonra da idmanı buraxmamışdı, kikboksinq və ağır atletika ilə məşğul olmuşdu. İşlədiyi dövrdə olimpiadaya qatılmaq istəyirdi. Arzusu çempion olmaq idi. Pandemiya səbəbindən yarışlara qatıla bilmədi. Kor-peşman işinə qayıtdı.

Sultan Rusiyadan Azərbaycana qayıtdıqdan sonra da idmandan əl çəkmədi; kikboksinq və ağır atletika ilə məşğul olurdu. Ən böyük arzusu olimpiadaya qatılmaq idi. Pandemiya səbəbindən yarışlara qatıla bilmədi, kor-peşman işinə geri döndü. Çempion olmaq, bayrağımızı dünyanın mötəbər idman yarışlarında dalğalandırmaq istəyirdi.

2020-ci ilin sentyabrında müharibə başlayanda başa düşdüm ki, Sultan könüllü olaraq müharibəyə qatılmaq üçün işini dəyişibmiş. Döyüşdən zəng vuranda deyirdi ki, ermənilər bizi – qaramaskalıları görəndə qorxub qaçırlar. Bunlar nə qorxaq millət imişlər. Mən isə ona ehtiyatlı olmağı tapşırırdım. Cavabında deyirdi: "Ata, qismətimizə nə yazılıbsa, onu da görəcəyik. Allah bilən məsləhətdi".

Döyüş yoldaşları danışırlar ki, Cəbrayıl və Zəngilanın azad edilməsində Sultangilin dəstəsi mərdliklə döyüşüb, o yerləri işğaldan azad ediblər. 2020-ci il oktyabrın 21-də səhər saatlarında ermənilər əks hücuma keçiblər. Sultan və döyüş dostları düşmənə qarşı mərdliklə vuruşublar. Sultan döyüş meydanında bir neçə düşmənlə üzbəüz atışmış, nəhayət, snayperlə vurularaq şəhidlik zirvəsinə yüksəlmişdir.

Sultanımızın qısa və mənalı ömür yolunda 24 rəqəminin simvolik-mistik bir mənası var. O, 1996-cı ilin 24 aprelində dünyaya göz açdı, 24 yaşında, 24 günlük döyüş yolu keçərək şəhidlik şərbətini içdi. 24 oktyabr 2020-ci ildə onu torpağa tapşırdıq. Beləliklə, 24 rəqəmi yaddaşımızda əbədi olaraq həkk olundu.

**Allah bütün şəhidlərimizin ruhlarını şad, məkanlarını Cənnət etsin. Amin!**

## İbrahimova İlhamə Malik qızı - Sultanın anası

Ana üçün övlad haqqında xatirə yazmaq çox çətindir. Heç xəyalımdan belə keçməzdi ki, nə vaxtsa balam üçün ürəyimi dağlayan xatirələrimi yazacam. Bu gün məni ayaqda saxlayan Sultanın tez-tez yuxuma gəlməsi və hər dəfə mənə: "Mama, mən həmişə sənin yanındayam",- deməsidir.

Körpə vaxtı ağlağan uşaq olub. Nə isə demək istəyəndə onu ağlaya-ağlaya deyərdi. Nə istədiyini biləndə deyərdim ki, yaxşı, bunu ağlayaraq niyə deyirsən?!

Anadan olan gündən özüylə bərabər evimizə nur, xeyir-bərəkət gətirdi. Ayağı düşərli övlad idi. Elə körpəlikdən nə deyərdimsə, başa düşərdi. Sanki böyük uşaq idi. Hər şeylə maraqlanar, çoxlu suallar verər, hər şeyin dərinliyini bilmək istəyərdi. Bağçada olan vaxt uşaqlarla tez ünsiyyət qurub dostluq etməyi, əlindəkiləri bölüşməyi, oynamağı sevərdi. Uşaqlıqdan həvəsi leqolara idi. Hər oynayanda maraqlı və çətin bir şey düzəldər, sonra söküb səliqə ilə öz qutusuna yığardı. Öz yaşıdlarından seçilərdi. Çox həssas, kövrək qəlbli uşaq idi. Körpəliyindən onu "Toptopi" deyə çağırardım. Gülə-gülə üstümə qaçanda özümü dünyanın ən xoşbəxt anası hesab edirdim. İlk gözümün nuru Sultanım!

Sultan kiçik qardaşı Aqili hədsiz sevirdi. Elə bil, bir cüt ağ göyərçin bəsləyirdim. Çox bəxtəvər idim. Onlara daha yaxşı həyat verə bilmək üçün Sultanla Aqili də götürüb ailəvi Rusiyaya köçdük. Birinci sinfə 2005-ci ildə Elektroqorsk şəhərində

getdilər. İki həftəyə onlara rus dilində elementar şəkildə danışmağı öyrətdim.

Sultan sakit təbiətli, səbirli, Aqilsə çılğın uşaq olub. Onlar dərslərini çox yaxşı oxuyur, məni hər gün yaxşı qiymətlərlə sevindirirdilər. Hətta müəllimləri Natalya Vladimirovna sinifdə uşaqlara deyirdi: "Baxın, bu qardaşlar rus deyillər, amma görün necə yaxşı oxuyurlar". Bunu müəllimləri özü mənə demişdi. Başa salmışdım, dərslərinizi elə oxuyun ki, müəlliminiz mənə şikayət etməsin.

Sultan və Aqil riyaziyyat yarışlarına gedirdilər. Sultan 19 mart 2009-cu ildə keçirilən "Kenquru" olimpiadasında ümumi 24 bal toplayıb məktəb üzrə 12-ci, rayon üzrə 55-ci, region üzrə 10201-ci yerə layiq görülmüşdü. Bu olimpiadadan qazandıqları sertifikatları hələ də sevərək saxlayıram. Onda dördüncü sinif şagirdləri idilər. Mən onlara baxıb fəxr edirdim.

Vətənə qayıdanda uşaqlar artıq 7-ci sinifdə oxuyurdular.

Sultan tərbiyəli, zəhmətkeş, qayğıkeş, ağıllı övlad olub. Dünyada nə qədər gözəl sözlər varsa, hamısını Sultana şamil etmək olar.

Sultan mənimlə bərabər işləyib, zəhmətlə çörək qazanıb. Bəlkə də, Sultan qədər ana istəyən, ana qayğısı çəkən övlad yox idi. Hər sözümü, dərdimi, sirrimi onunla bölüşürdüm. Uşaq olmasına baxmayaraq, mənə çox ağıllı məsləhətlər verirdi. O qədər sakit, mülayim, təmkinlə danışırdı ki, elə hey istəyirdim, o danışsın, mən qulaq asım. Mənə namazı da o öyrətdi. Bir yerdə namaz qılırdıq. Bir dəfə təəssüf hissi ilə dedi: "Kaş ki, namaza Alla-

hın oğlan uşaqlarına buyurduğu vaxtdan başlayaydım. O zaman üç il qəzam da olmazdı”.

Deyirdi, ana, hicab geyin. Allah hicabı qadınlara vacib buyurub. Söhbət edəndə hədislərdən danışardı mənə. Tez-tez məni qucaqlayıb öpürdü. Sanki tez ayrılacağımız ürəyinə dammışdı. Soruşurdum, sənə nə olub, balam, məni niyə tez-tez qucaqlayıb öpürsən? Deyirdi, ana, Cənnət anaların ayaqları altındadır. Ananı öpmək övlad üçün savabdır. İyirmi dörd il ərzində mən Sultandan zərrə qədər incimədim. Tam səmimi deyirəm, o, övlad yox, Allahın mənə bəxş etdiyi mükafat idi. Hərdən bir sözü zarafatla vurğulayırdı: “Ana, bu gün yerə qızıl basdırdım, sən nə etmisən?” Bunu ilk dəfə deyəndə başa düşmədim. “Qızılı yerə niyə basdırıram? Özümdə saxlayaram da”,- dedim. Sultan gülümsəyib: “Ana, o mənada demirəm. Yerə qızıl basdırmaq, yəni kiməsə yaxşılıq et və ya sədəqə ver, amma onu Allahdan başqa heç kim bilməsin. O mənada yerə qızıl basdırmaq”.

Onunla danışanda atalar sözlərindən çox istifadə edirdim. O da mənə hədislərdən sitat gətirməklə cavab verirdi. Deyirdi, ana, bunu da atalar sözlərinə əlavə et, bu da mənim sözümdü: “Yerə qızıl basdırmaq”.

Həyatı boyu bir dəfə də olsun, ağzından nalayiq söz çıxmadı. Çox həyalı oğul idi Sultan!

Əksər insanlar onun mənə olan sevgisinə, münasibətinə heyran idilər. Barmağımdakı üzüyü də mənə Sultan hədiyyə alıb. Bir dəfə sevinə-sevinə gəldi ki, ana, bax gör, bu üzük barmağına necədir? Elə bildim ki, uşaqlar üçün satılan nəyinsə pake-

tindən çıxan adi metaldan hazırlanmış sadə üzükdür. Şübhə ilə baxdığımı gördükdə işin nə yerdə olduğunu mənə anlatdı. Sən demə, dayısının fotoaparatı ilə şadlıq evində şəkillər çəkib, qazandığı pulla mənə bu qızıl üzüyü hədiyyə alıbmış. İndi bu üzük mənim üçün dünyanın ən qiymətli ləl-cəvahiratından daha qiymətlidir. Bunu ömrüm boyu barmağımda gəzdirəcəyəm.

2020-ci il iyun ayının beşi idi. Sultan işdən icazə alıb evə gəlmişdi. O gün mənim doğum günüm olsa da, işdə idim. Evdə olmadığımı görüb iş yerimə gəlmişdi. Məni təbrik etdi. "Bəs hədiyyən hanı?"- deyə zarafatla soruşdum. "Ana, beş dəqiqə məni gözlə!"- deyib getdi. Çox çəkmədən özünün böyüdülüb çərçivəyə salınmış şəkli əlində qayıtdı. "Bu da sənin hədiyyən",- dedi. Təəccübləndim. "Məni öz şəklinlə niyə təbrik edirsən?"- deyə soruşdum. Dedi: "Bunu saxla, nə vaxtsa lazımın olar". Çox mütəəssir oldum. Sonralar başa düşdüm ki, şəhid olacağı əvvəlcədən ürəyinə damıbmış.

Sultan heyvanları da çox sevərdi. Evimizdə onun "Kisa" adlı bir pişiyi var idi. Əvvəllər onu saxladığına görə narazı idik. O həmin pişiyi bizə sevdirdi. Başa saldı ki, heyvanlar Allahın səssiz qullarıdı. Qiyamət günü insanlar susacaq, onlar danışacaqlar! Onlara yaxşı baxın!

Mən gözəllik salonunda işləyirəm. Soli (sonralar biz onu Soli deyə çağırırdıq) mənə axirətin gözəlliklərindən o qədər danışırdı ki, sanki onu yaşayıbmış kimi, görübmüş kimi... Deyirdi, tam səmimiyyətlə deyirəm ki, mən bu dünyada gözəl-

lik görmürəm. Çox tez-tez mənə namazdan sonra dua edib gözəl axirət istəməmi xatırladırdı.

Nə isə... Ürək dolu, söz çox... Qəhər boğur məni. Mən həm qürurluyam, həm də kədərli. Bilməzdim ki, bir vaxt qucağımda bəslədiyim balaca körpə balam böyüyüb Vətən torpaqlarının azadlığı uğrunda - Zəngilan torpaqlarında Şəhidlik zirvəsinə ucalacaq.

2020-ci ildə Aqil DİM-in təşkil etdiyi təkrar imtahanlarda iştirak etmişdi. Nəticələr elan olunmamış onu da səfərbərliklə orduya çağırdılar. Müharibə başlayandan sonra bildik ki, Aqil ali məktəbə daxil olub. Gəncədə təlimlərdə olduğunu bilirdik. Fürsət tapıb onunla telefonda danışanda bütün narahatlıqlarıma rəğmən universitetə daxil olduğunu ona bildirdim.

Qardaşının şəhidlik xəbərini Aqilə mən özüm çatdırdım. Fikirləşdim ki, qəfil xəbər verərlər, uşağa bir şey olar! Zəng edib soruşdum:

-Aqil, necəsən?

Dedi:

-Ana, sözünü de!

Soruşdum:

-İşlərin necə gedir, yaxşısanmı?

Dedi:

-Ana, sözünü de!

Sən demə, səsimin gərginliyindənmi, ya nəsə hər şeyi başa düşübmüş...

O gəlincə Sultanın cənazəsini yerdən götürmək istədilər. Qoymadım. "Aqilin haqqına girə bilmərəm,- dedim,- qoy gəlsin, qardaşını son mənzilə özü yola salsın!"

Sultanın dəfnindən sonra sanki özümü dibsiz bir quyunun içində hiss edirdim. Aqil ağlaya-ağlaya başını çiynimə qoyub: "Ana, sən bu həyatda bizə hər şeyi öyrətdin, bir tək ayrılıq kimi acı bir hissin olduğundan heç bəhs etməmişdin".

Həyat çox qəribədir. Sevdiyimizi əlimizlə məzara qoyub, sonra gözlərimizlə ömür boyu axtarırıq...

Şəhid olandan sonra Sultan təxminən dörd ay yuxularıma gəlmədi. Allaha yalvarırdım ki, onu yuxuma gətirsin. Heç olmasa, yuxuda ətrini alım, təskinlik tapım. Bir gün Aqil şəkərbura bişirməyimi məndən xahiş etdi. Mən isə bişirmək istəmirdim. Çünki Sultan da şəkərburanı çox sevərdi. Hər dəfə şəkərburanı bişirib qurtaranadık o, üç-dördünü isti-isti yeyərdi. İndi onsuz şəkərbura bişirmək mənə ağır gəlirdi. Sonuncu dəfə Aqil yenə də məndən şəkərbura bişirməyi xahiş etdi. Tərəddüd etdiyimi gördükdə incik halda: "Amma Sultan istəsəydi, heç düşünmədən bişirərdin",- dedi. Mən məcbur olub xəmir hazırladım. Şəkərburanı bişirib qurtaranadək gözlərimi yaş tutur, gah qaşığı, gah da maqqaşı yerə salırdım. Həmin gecə Sultan yuxuma girdi. Mən onu öpüb bağrıma basdım:

-Oğlum, niyə mənimlə görüşə gəlmirsən?

Sultan and içir, məni inandırmağa çalışırdı. Deyirdi:

- Ana, vallah, mən hər gün sənin yanına gəlirəm. Amma sən məni görmürsən!

Dünən sən ağlaya-ağlaya şəkərbura bişirmirdinmi? Əlindən qaşığı, maqqaşı yerə salmadın-

mı? Mən sənin yanında olmasaydım, bunları necə görə bilərdim?!

O gündən sonra inandım ki, Sultanın ruhu həmişə mənim yanımdadır...

Övladlarım əkiz olmasalar da, onları əkizlər kimi böyütdüm. Eyni bağçaya getdilər, məktəbdə eyni partada əyləşdilər, eyni vaxtda əsgərliyə getdilər, eyni kollecdə oxudular, eyni vaxtda işə qəbul oldular. Hər ikisi 44 günlük Vətən müharibəsində iştirak etdi. Gedişləri eyni oldu, amma dönüşləri fərqli; Sultan 24 yaşında şəhid oldu, Aqilsə 24 yaşında şəhid qardaşı adı aldı. Özüm isə 44 yaşımda 44 günlük İkinci Qarabağ müharibəsində şəhid anası oldum. Hətta Şəhidlər Xiyabanında belə 24-cü məzar Sultanın məzarıdır. 24 rəqəmi bizim həyatımıza qızıl qanla yazılıb; 24 aprel ad günü, 24 oktyabr dəfn günü, 24 yaşında şəhid oldu, 24 cü məzarda uyuyur. Hətta Elektroqorskda riyaziyyat fənni üzrə yığdığı balı da 24 olub.

Göz yaşlarıma hakim ola bilmədən çox çətinliklə  də olsa, yazdım. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Ruhun şad olsun, anasının körpə gülü!

## İbrahimv Aqil Mikayıl oğlu - Sultanın qardaşı

Mən bu gün şəhid qardaşlarım arasından doğma qardaşım Sultan haqda danışmaq, onunla keçirdiyim, yaddaşımda həkk olunan xoş xatirələrimi sizinlə bölüşmək istəyirəm. Mən Sultanla eyni bağçada, eyni məktəbdə oxumuş, onunla bir yerdə idmana getmişəm. O, məktəbdə də fiziki hazırlığı, əxlaqı, ədəb-ərkanı ilə bütün şagirdlər arasında fərqlənirdi. Çünki bizi böyüdən eyni ana idi.

O, idmanda çox güclü və cəld idi. Biz adətən bir yerdə idmandan  qayıdandan sonra evdə yenidən məşq edirdik. O məndən güclü olduğu üçün həmişə mənə qalib gələr: "Sən də yaxşısan", deyərdi. Bunlar indi də gözlərimin qabağından getmir.

Arabir qardaşımla oturub söhbət edirdik. Söhbətə başlamazdan əvvəl: "Bir çay qoy",- deyərdi. Şirin söhbət zamanı: "Səninlə fəxr edirəm",- deyərdim. Çünki çox qardaşlar tanıyıram. Fərqimiz burasındadır ki, biz onlara nisbətən çox mehriban idik. Valideynlərimiz bizi cüt göyərçinlər adlandırardılar. Biz həmişə cüt geyinib birgə gəzərdik.

Qızğın döyüşlər zamanı onunla tez-tez əlaqə saxlayıb, hal-əhval tuturdım. Danışdığımız zaman düşmənlərin qorxaq olduqlarını, hətta öz döyüş silahlarını belə qoyub qaçdıqlarını deyərdi. Qardaşımın əlçatmaz zirvəyə - şəhidlik zirvəsinə çatması xəbərini eşitdiyim zaman keçirdiyim dəhşətli hissləri sözlə ifadə etmək mənim üçün çox çətindir.

O bu dünyanı fani hesab edir, əbədi olan axirət dünyasını daha üstün hesab edirdi.

Heç vaxt düşünməzdim ki, qardaşım Sultan haqda keçmiş zamanda danışaraq göz yaşları içində onun haqqında xatirələrimi başqaları ilə bölüşəcəyəm.

Bircə təsəllim odur ki, qardaşımın intiqamı elə döyüş meydanındaca hələ nəşi soyumadan silahdaşları tərəfindən alınıb. Onu da qeyd etmək istəyirəm ki, indi Cənnətdə onun ruhu şaddır. Çünki uğrunda canını fəda etdiyi torpaqlarımız mənfur düşməndən azad edilib.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Hərbçi yoldaşlarının Sultan haqda xatirələri

*Şəhidlik ölümün ən ali, müqəddəs və şərəfli zirvəsidir*

## Kapitan Rizvanlı Aqil Əmrağa oğlu

Sultan mənim üçün dürüstlüyün, düzlüyün simvolu, yaxın dost, qardaş idi. Nəinki dostları, hətta onunla bir dəfə söhbət etmiş insan belə o, şəhid olanda, şəhadət şərbəti içəndə göz yaşlarını saxlaya bilmədi. Sultan şəhid olandan sonra mən onun neçə kasıb ailəyə kömək etdiyini; qaz və işıq pullarını ödədiyini, onlar üçün bazarlıq etdiyini bilmişəm. Bu, Sultanın heç kəsə göstərmədiyi, göstərmək istəmədiyi bir yönü idi. O, daim bizim - iş yoldaşlarının, yaxşılıq etdiyi insanların qəlbində, zehnində yaşayacaq. Nə yaxşı ki, Sultan kimi bir oğulu, qardaşı, dostu tanımışam!

## Əkbərov Tural Elçin oğlu - Sultanın qrup komandiri

Şəhid Sultan İbrahimov haqda nə qədər danışsam da azdır. Hər bir komandirin qrupunda özünə daha yaxın bildiyi, ağıllı məsləhətlər verə bilən birinə ehtiyacı olur. Mənim də bir Sultanım var idi. Sultan çox mərd, cəsur, seçilən bir oğlan idi. Sultanımla bağlı çoxlu xatirələrim var. Bu xatirələrdən biri dörd gün ac, susuz pusquda qaldığımız günlərin birində baş vermişdi. Həmin gün Sultanın təzyiqi düşmüş, özünü narahat hiss etməyə başlamışdı. Bunu eşidən kimi nə edəcəyimi düşünməyə, çarə axtarmağa başladım. Yeməyə isə yerdə turşməzə quzuqulağından və olduğumuz yüksəklikdən üç-dörd yüz metr aşağıda turş nardan başqa heç nəyimiz yox idi. Amma Allahın rəhmi nəticəsində təsadüfən zirehli gödəkçəmin cibində müharibənin ilk günlərində bizə verilmiş, yadımdan çıxıb qalmış bir şokoladı xatırladım. Mən o son şokoladı Sultanıma verdim. Çünki bir komandir kimi heyətimin sağlamlığı mənim üçün hər şeydən önəmli idi. Bir qədər sonra Sultan mənə yaxınlaşıb: "Komandir, sağ olun. Artıq mən özümü yaxşı hiss edirəm",- dedi.

Komandir olaraq, ən əsası insan olaraq heyətimin qayğısına qalmağı özümə borc bilirdim. Mənim ölümdən zərrə qədər qorxum yox idi. Ən böyük qorxum əsgərlərimi itirmək qorxusu idi. Təəssüf ki, Allah məni ən çox sevdiyim igidlərimlə - Sultanımla, Xudayarımla imtahan etdi, qəhrəmanlarımı əlimdən aldı.

## Gizir Ülvi Bəkirov Sultan haqqında

Sultanı ilk dəfə Sərhəd Mühafizəsində döyüşə könüllü getmək istəyənlərin arasında gördüm. Sonra bizi Sərhəd Qoşunlarının Xızıda yerləşən "N" saylı hərbi hissəsinə göndərdilər. Orada daha yaxşı tanış olduq. Sultan xasiyyətcə çox sakit insan idi. Bir müddət orada təlimlər keçdik. Sonra bizdən: "Xüsusi Təyinatlılarda kim xidmət etmək istəyir"- deyə soruşdular. Bir neçə nəfərlə bərabər Sultan da önə çıxdı. Bundan sonra Sultanla daha da yaxınlaşdıq. Bir neçə gündən sonra bizi Ağstafa rayonuna Sərhəd Qoşunlarının "N" saylı hərbi hissəsinə göndərdilər. Biz orada imtahan verdik. İmtahan verərkən Sultanla yanaşı durmuşduq. İlk olaraq turnikə o qalxdı. Turnikdə dartınma hərəkətinə yenicə başlamışdı ki, onu saxladılar. Komandir: "Düş aşağı, ehtiyac yoxdur, keçdin",- dedi. Qardaşımla aramızda zarafatyana bir jestimiz vardı. İkimizin də boyumuz balaca olduğu üçün bir-birimizlə yumruq-yumruğa vurub: "Balacaların birliyi",- deyirdik. Orada bir neçə gün qaldıqdan sonra bizi Daşkəsən rayonuna gətirdilər. Əsas təlimlərimiz burada başladı.

Sentyabr ayının 27-si səhər tezdən Hilal dağı istiqamətində döyüşə getdik. Hələ sentyabr ayı olmasına baxmayaraq, havalar soyuq idi. Yüksəklikdə olduğumuz üçün nəfəs almaq da çətin idi.

Orada döyüş tapşırığını yerinə yetirdikdən sonra bizi Cəbrayıl rayonuna göndərdilər. Səhər saat beş radələrində biz Cəbrayılın Şükürbəyli kəndinə çatdıq və bu istiqamətdə gedən döyüşlərə qatıldıq.

Sultan həmişə yüngül olsun deyə, zirehli gödəkçənin armorlarını çıxardırdı. Çox desəm də, onları taxmırdı. "Çiynim ağrıyır,- deyirdi, - əgər qismətimdə varsa, onsuz da şəhid olacam. Bunları taxsam da, taxmasam da".

Daha sonra növbəti tapşırıq gəldi. Biz dağ yolları ilə düşmənin arxasına sızıb 17 km hərəkət edərək Xudafərin körpüsünə yaxınlaşdıq. Dağların zirvəsində növbəti tapşırığa qədər dörd gün qalmalı olduq. Ərzağımız və suyumuz yox idi. Nəhayət, bizə Zəngilan istiqamətində hərəkət etmək əmri gəldi. Gecə hərəkətə başladıq. Yolda bir saat fasilə verdik. Hava soyuq olduğu üçün Sultana dedim ki, gəl BTR-in içinə girib yataq. O gəlmədi, elə açıq havada yatdı. Biz tezdən Zəngilanın ərazisinə çatıb evləri yoxlamağa başladıq. Düşmən ərazini boşaldıb geri çəkilmişdi. Şəhəri tam yoxladıqdan sonra gecələmək üçün məktəb binasını seçdik.

Səhər tezdən saat altı radələrində ermənilər şəhəri yenidən ələ keçirmək üçün əks-hücuma keçdilər. Orada çox ağır və amansız döyüşlər oldu. Yaralılarımız, şəhidlərimiz var idi. Məndən

sağ tərəfdə Sultanın düşmən üzərinə doğru şığıdığını gördüm. "Dayan!"- deyə qışqırdıqsa da, o dayanmadı. Düşmənin açdığı atəşdən üzü üstə düşdü. Hər zaman namaz qılar, dua edərdi. Şəhid olanda da səcdə vəziyyətində şəhidlik zirvəsinə ucaldı.

Sultan çox xeyirxah bir qardaş idi. Mən onu ömrüm boyu unutmayacağam.

Həmin döyüşdə qrupumuzun başqa bir üzvü gizir İlkin Abbaslı da yaralanmışdı. Mən onu döyüş meydanından çıxardıqdan sonra Sultan qardaşıma yaxınlaşdım, onun nəşini qollarım üzərinə alıb təcili yardım maşınının yanına gətirdim...

## Fəttahov Kənan Şöhrət oğlu - Sultanın döyüş yoldaşı

Sultanla təlim vaxtı tanış oldum. Tanışlığımızın əsas səbəblərindən biri onun hazırcavab olması idi. Onun hərəkətlərinə fikir verirdim. Hamı kimi deyildi; ağır təbiətli, sakit, təmkinli, səbirli insan idi. Biz onunla ayrı-ayrı qruplarda idik. Axşamlar oturub söhbət edirdik. Təlimlər çətin olduğu üçün çoxumuz deyinirdik, amma Sultan bizə ürək-dirək verirdi.

Müharibə başlayanda da demək olar ki, birlikdə idik. Bizdən əvvəlki qrup döyüşdə idi. Biz isə hələ əmr gözləyirdik. Heç birimiz əsl müharibə görməmişdik. Sultan deyirdi ki, qorxmaq lazım deyil. Allah alnımıza nə yazıbsa, o da olacaq. Heç kəs öz ölüm saatını dəyişə bilməz. Deyirdi, bir də nədən qorxmalıyıq ki, Allahın yanına gedirik də. Bundan gözəl nə ola bilər ki? Onun bu sözləri məndə, həqiqətən də, bir inam yaratdı.

Həmin gün axşam gördük ki, döyüşdə olanlar geri qayıdırlar. Onlar hündür bir dağdan düşürdülər. Çox pis halda idilər. Aralarında yaralı olanlar da vardı. Biz onlara kömək etməyə can atdıq. Qrupumuzun digər üzvləri də bizə qoşuldular. Aşağı düşənlərə su verir, onlara kömək edirdik... Yaralıların birinin yanında mərmi partlamış, qəlpələr ayağını parçalamışdı. Soyuq olmasına baxmayaraq, Sultan köynəyini çıxarıb onun ayağını sarıdı və mənə dedi ki, sən başqasına kömək et, mən bunu düşürərəm. Mən başqa yaralıya kömək üçün yuxarı qalxdım. Bir azdan Sultan ye-

nidən köməyimə gəldi.

Biz beş gün həmin mövqedə qaldıqdan sonra yenidən düşərgəyə - təlim yerinə qayıtdıq. İki dəfə təlim məqsədli yürüşdən sonra oradan əvvəl Füzuli istiqamətinə, sonra isə Cəbrayıla yollandıq. Tapşırığımız çətin, keçilməz sədləri yarmaq, düşmənin hücumunu dəf etmək idi. Biz bu çətin tapşırığın öhdəsindən gəldik.

Növbəti tapşırığa gedərkən mən bir neçə günlük Sultandan ayrı düşdüm. Bizi fərqli istiqamətlərə göndərdilər. Amma yoldaşlardan onun şücaətləri haqqında eşidirdim. O, minaatanların atəşi altında irəli yüyürür, düşmənin canına vahimə salırmış. Bir erməni postunu demək olar ki, təkbaşına almış, ermənilərin əks hücumunun qarşısını alaraq onları irəliləməyə qoymamışdı. Düşmənlə üzbəüz mövqedə yoldaşlarının susuzluqdan əziyyət çəkdiklərini gördükdə üzərində olan bütün ləvazimatları yerə qoyub tək avtomat silahla sürətlə suyun olduğu dağ çayına enmiş, şəxsi heyətə su gətirmişdi. Sultanın haqqında eşitdiklərimdən sonra içimdə ona qarşı bir fərəh, qürur hissi baş qaldırdı. Belə bir yaxın dostum olduğuna görə elə sevindim ki! Az sonra onunla görüşəndə haqqında eşitdiklərimi ona bildirdim. O: "Böyütmək lazım deyil. Sadəcə vəzifəmi yerinə yetirmişəm",- dedi. Təvazökarlığı onu mənim gözlərimdə daha da ucaltdı.

Cəbrayıl ərazisində işlərimizi bitirdikdən sonra Zəngilanı işğaldan azad etmək üçün döyüşlərə qatıldıq. Düşmən geri oturdulmuşdu. Lakin 21 oktyabrda ermənilər əks-hücuma keçdilər. İtirdikləri

mövqelərini geri qaytarmaq üçün ölüm-dirim savaşına girmişdilər. Qarşı-qarşıya atışma zamanı Sultan yenə də qorxu bilmədən vuruşur, erməniləri Cəhənnəmə vasil edirdi. Təəssüf ki, bu atışmada Sultan qardaşım düşmən gülləsinə tuş gəldi və şəhidlik zirvəsinə ucaldı. Mənə elə gəlir ki, Sultan şəhid olacağını əvvəlcədən bilirdi. Odur ki, şəhidliyə layiq bir oğul kimi yaşayır, əməlləri ilə yaddaşlarda xoş təəssüratlarla qalırdı.

Mən fəxr edirəm ki, Sultan kimi bir dostum olub. Onu heç vaxt unutmayacam. Allah ona rəhmət eləsin!

# Doğmaları və qohumları Sultan haqda

*Şəhidlər Cənnət qapısında, çayın nurlu zinətində, yaşıl çadırdadırlar. Onların səhər-axşam ruzisi Cənnətdən gəlir.*

**(hədis)**

## İsayev Malik Həsən oğlu - Sultanın ana babası

Sultanı uşaqlıqdan indiyə kimi gülər üzü ilə xatırlayıram. Kollecdə oxuduğu zaman Bakıda bizdə qalırdı. Dərsdən qayıdanda qapını döyüb deyərdi: “Babası, mən gəldim”. Sultana həmişə deyərdim ki, mən səni dayım kimi hərbçi görmək istəyirəm. O isə gülərək deyərdi: “Mən elə bir ali rütbədə olacam ki, hamı mənə qibtə edəcək”. Əsgərliyini Naxçıvanda keçirdi. Yanına gedəndə deyərdi: “Hər şey yaxşıdır”. O, təlim adıyla könüllü müharibəyə getdi. Qızğın müharibə getdiyi halda oktyabrın 10-da vaxt tapıb məni doğum günüm münasibəti ilə təbrik etdi. Axırıncı dəfə 14 oktyabrda telefonla danışdıq. Ona dedim ki, oğlum, statusda şəklini qoyma, şəklini görməsinlər. Dedi: “Baş üstə!”. 21 oktyabrda ona zəng etdim. Telefonuna zəng çatmadı...

Bu, Sultanın mənə son təbrikidir:

“Salam, baba! Hər vaxtın xeyir! Nə var, nə yox? Vəziyyətin, canın-başın necədir? Ad günün mü-

nasibəti ilə səni təbrik edirəm. Ömür boyu xoşbəxt olasan. Allah dua və ibadətlərini qəbul etsin! Gələcəkdə Allah-taala Behiştdə yerini qərar verər, inşallah! Biz də azad olunmuş torpaqlardayıq. Gör də, səni haradan təbrik edirəm - azad olunmuş torpaqlardan, inşallah! Allah səni bizim üstümüzdən əskik etməsin, baba! Hər şeyə görə çox sağ ol! Mən fəxr edirəm ki, mənim sənin kimi babam var!".

## Əbilova Şura qulu qızı - Sultanın nənəsinin xalası qızı

Sultan çox ağıllı, qabiliyyətli, böyüyün-kiçiyin yerini bilən, həm də dinə bağlı bir uşaq olub. Hələ 15-16 yaşı olanda o, başını qaldırıb qızlara, qadınlara baxmazdı. Deyərdi ki, günahdır. Hamıya namaz qılmağı tövsiyə edirdi. Kollecə girəndə səbirsizlənib deyirdi: "Eh! Mən hələ üç il yarım oxuyacam!" Elə bil ki, nəyəsə tələsirdi. Təhsil alacağı vaxt gözünə dururdu elə bil. Deyirdim: "Bala, papağını fırla, gəlib keçəcək".

İdmanı çox sevirdi. Bizdə qaldığı vaxtlar gecələr evimizin yanındakı idman zalına gedir, məşq edirdi. Kolleci bitirib əsgər getdi. Dedim: "Papağını fırla, gəlib keçəcək!" Sonra gömrükdə işə girdi. Hər dəfə bizə gələndə xoşladığım nəyi isə alıb gətirirdi mənimçün. Həmişə də bizə gələndə "baba" və ya "nənə" demirdi. "Babası", "nənəsi" deyə bizi əzizləyirdi. Bir dəfə mənə dedi: "Nənəsi, sən düz deyirmişsən. Bir dəfə papağımı fırladım, məktəbi bitirdim. Bir dəfə də papağımı fırladım, əsgərliyimi bitirdim. İndi də işləyirəm".

İlk maaşını aldığı gün bizə gəlmişdi. Açdı pulqabını: "Maaşımı almışam,- sıra ilə düzdüyü pulları göstərib,- bu, kreditim, bu, mamamın, bu da xərcliyim",- dedi.

Axırıncı dəfə sentyabr ayının əvvəllərində (2020-ci il) bizə gəldi. Özü ilə iki çemodan, bir neçə sellofan torba dolusu şeylər gətirmişdi. Soruşdum ki, bunlar nədir, işdən çıxmısan? Dedi ki, mən təlimə gedəcəm. Ona görə əşyalarımı aparıb

Azneftdən Salyana göndərəcəm. Dedim, baban rayondadır. Bu gün gələcək. O aparıb yola salar. Soruşdum: “A bala, o nə təlimdir elə?” Dedi: “İşdə bizi yığıb könüllü kim çevik alaya keçmək istəyirsə, qabağa çıxsın, deyə əmr etdilər, amma subay olsun. Dörd nəfər irəli çıxdıq”. Soruşdum ki, anan bilir? Dedi: “Sonra bilərlər”.

Səhəri gün xalası oğlu İlqarla getdilər, hansısa sənədi düzəldib qayıtdılar. Günorta getmək üçün çox tələsirdi. Yemək yedi. Az qala qaça-qaça blokdan çıxmaq istəyəndə dedim, a bala, gəl bir şəkil çəkdirək. Blokdan qayıtdı. Şəkil çəkdirdik. Dedi: “Sağ-salamat qayıdım. İdman yarışlarına gedəcəm. Gömrükdə peçat vurmaq iş deyil. Mən özümü başqa sahədə göstərməliyəm”.

Axırıncı dəfə oktyabrın 14-də telefonla danışdıq. Çox sevinirdi ki, torpaqlarımızı azad edirlər. Babasının ad günü təbrikində yazmışdı ki, gör səni haradan təbrik edirəm - azad etdiyimiz torpaqlardan, Cəbrayıldan!

Sultan haqda danışmaqla qurtarmaz. Təlimə gedəndə ona üç cür kostyum vermişdilər. Sevinə-sevinə deyirdi ki, mən xüsusi təyinatlıda vuruşacam. Dedim, axı boyun balacadır, götürməzlər. Dedi, hər şeyi həll etmişəm. Kostyumları bir-bir geyinib güzgüdə baxdı. Soruşdu ki, nənəsi, yaraşır mənə?...

İndi o kostyumlar evdədir. Anası asılqandan asıb. Hər dəfə gedəndə iyləyirəm onları. Behişt ətri gəlir o kostyumlardan!

Sultan öz qısa ömründə çox ali zirvəyə ucaldı. Ruhu şad olsun!

## İbrahimova Gülxanım Razzaq qızı - Sultanın nənəsi

Sultanın haqqında xatirə yazmaq mənim üçün çox çətindir. Çünki o mənim qollarımın üstündə böyüyüb. O, körpə vaxtlarında təbiətcə çox sakit uşaq olmuşdu. Yaxşı yadımdadır, o, heç kəsə qoşulmur, sakit bir guşəyə çəkilib, oynayırdı. Atası ona çoxlu, cürbəcür oyuncaqlar alırdı. Ancaq Sultanın ən çox sevdiyi əsgər fiqurları olardı. Əsgərləri bir sıraya düzər, bir əsgəri əlində saxlayardı. O, yerə uzanıb əlindəki əsgərlə o biri əsgərləri döyüşdürürdü. Mən soruşurdum: "Oğlum, nə edirsən?" O deyirdi ki, onlar düşmənlərdir. Mən onlara qalib gəldim.

Bir zamanlar biz işlə əlaqədar Bakı şəhərinə köçdük. Mən onun əlindən tutub dənizkənarı parka gəzməyə aparırdım. Bir dəfə dənizkənarı parka robot dinozavrlar gətirmişdilər. Düşünürdüm ki, uşaqdır, Sultan qorxunc dinozavrlardan qorxar. Odur ki, onu evə gətirmək istəyəndə o dedi: "Nənə, məni dinozavrların yanına apar da, nə olar?" Çox maraqlandığını görüb onu parka qaytardım. Sultan qorxmadan əlini dinozavrlara vurur, əylənirdi. Məndən onların harada, nə zaman yaşadıqlarını soruşur, mən də lövhədən oxuyub ona izah edirdim. Onda Sultanın cəmi beş yaşı var idi.

Vətənə sevgi Sultanda erkən yaşlarından başlamışdı. Televizorda Qarabağla bağlı verilişlərə baxıb qaşlarını çatar, bu mövzuda mənə suallar verərdi. "Mən böyüyəndə hərbçi olacam, düşmənləri torpaqlarımızdan qovacam",- deyərdi.

Sultan mənim üçün həmişə sağdır. O mənim qəlbimdə həmişə yaşayacaqdır.

## Əliyeva Gülarə Malik qızı - Sultanın böyük xalası

Sultan haqda danışarkən, sanki bu dəqiqə yaşayan canlı insandan danışırmış kimi söhbət açıram. Çünki onun ölümünü, yoxluğunu qəbul edə bilmirəm.

Sultan balam sakit, asta yerişli, özünə güvənən, şirin, avazla danışan, məsum bir oğul idi. O, özündən böyüklərlə davranışında son dərəcə səmimi və diqqətli idi. Həmişə söhbətin sonunu gözləyər, çəkinmədən öz rəyini bildirərdi.

Sultan təmiz qəlbli, son tikəsini belə başqaları ilə bölən səxavətli oğul idi. İlahə bacısını çox istəyirdi. Bir dəfə "Yeni il" şənliyində İlahə qolundan qolbağını salıb itirmişdi. Bu onun qiymətli bir hədiyyəsi idi. İlahəni danlamaq istəyirdim. Bu zaman Sultan qarşıma keçdi. Dedi, xala, o qolbaq dünya malıdır. Sən o qızıl parçasına görə övladının qəlbini qıra bilərsən. Bu, bacımın qəlbində kinə çevrilər. Mənim xətrimə bacımın üstünə çox getmə! Mən uşağın bu sözlərindən sanki ayıldım.

Bir maraqlı əhvalatı da xatırlayıram. Bir gün Sultan bizə gəlmişdi. Səhəri gün Ramazan bayramı olacaqdı. Mənə zəng etdilər. Məlum oldu ki, bizə qonaq gələcək. Mənim isə qonaq qəbul etməyə maddi imkanım yox idi. Nə edəcəyimi bilmirdim. Ümidim Allaha qalmışdı. Deyəsən, Sultan mənim vəziyyətimi başa düşmüşdü. Mənimlə sağollaşıb gedəndən yarım saat sonra zəng vurdu. Dedi, xala, sənin otağına pul qoymuşam. Onu götür, qonaqlarını qarşıla. Bayram günü qo-

naqlarından utanma. Soruşdum, xala qurban, sənin pulun haradandır? Dedi, anam özümə idman kostyumu almaq üçün mənə pul vermişdi. Dedim ki, qayıt götür. "Yox,- dedi,- sən bayram günü qonaqlarını lazımınca qarşıla. Mən o paltarı geyinmişcə varam. Anama da heç nə demə". İndi onun bu hərəkətlərini xatırlayanda göz yaşlarıma hakim ola bilmirəm. Sultan balamın səsi indi də qulaqlarımdadır. "Ay xalam, gözəl xalam",- deyərdi. Uşaq olmasına baxmayaraq, dinin özəlliklərini, namazı düzgün qılmağı Sultan mənə başa salıb. Uzaqda olsam da, Qədr gecələrində hansı duaları etmək lazımdır, o mənə öyrədirdi.

Sultan dinimizə çox bağlı idi. İstəyirdi, bildiklərini hamıyla paylaşsın. Sultandan heç vaxt incimədim. Mən ölənə qədər onun səsini, danışığını, hərəkətlərini, etdiyi yaxşılıqları unutmayacağam. Oğlum İlqara, qızlarıma qeyrətli qardaş oldu. Uğrunda şəhid olduğu torpağa qurban olum. Doğma Salyanımızdakı məzarına qurban olum. Bizim başımızı uca edən şəhid adına qurban olum.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ata-analarına səbir versin.

Canım Sultanım, sənin haqqında xatirələrimi yazmaqla qurtarmaz. Qalanı mənə qalsın. Mən yaşadıqca mənimlə yaşasın. Məzarın nurlu olsun, əziz balam!

## Abdulova İlahə Sədaqət qızı - Sultanın xalası qızı

Mənim gözəl qardaşım - Sultanım! Yerin Cənnət olsun! Sən həmişə mənim ürəyimdə, xəyallarımdasan. Səninlə həmişə fəxr edir, qəhrəmanlığından danışıram.

Səninlə uşaqlığımız bir yerdə keçib. Ailəmizdə altı nəvə vardı. Qız uşağı tək mən idim. Qalanları oğlan idi. Həmişə bir yerdə oynayırdıq. Bəzən dəcəllik edirdik. Aramızda ən sakit, ən ürəyiyumşaq Sultan idi. O heç vaxt mənim xətrimə dəyməzdi. Dediyim hər şeyi edirdi. O biri uşaqlar çox dəcəl idilər. Qız olduğum üçün mənimlə oynamırdılar. Amma Solinin ürəyi dözmürdü.

Altı-yeddi yaşım olanda bir dəfə uşaqları bir yerə toplayıb xalamın evindən cehizləri qutulara yığdıq. Qutular çatmadığından Sultanla mən mağazalardan boş qutular gətirdik. Qalan qab-qaşıqları da qutulara doldurub birinci mərtəbəyə düşürdük. Balaca olmasına baxmayaraq, Soli hamıdan çox kömək edirdi.

Biz həmişə kamera ilə video çəkmək üstündə uşaqlarla dava edirdik. Təkcə Soli dava-dalaş salmırdı. Uşaqları da sakitləşdirirdi. O, uşaqlıqdan ideal idi. Dünyaya bir mələk kimi gəldi, mələk kimi də getdi.

Mənim Solim çox dürüst, ədalətli, həm də utancaq və həyalı idi. O bizim yanımızda heç vaxt maykada belə gəzməzdi. Quran saxladığı otaqda paltarını belə dəyişməzdi. Dinə, şəriətə bağlı bir insan kimi yetişirdi.

Ramazan bayramında Solidən həmişə məsləhətlər alırdım. Məndən uşaq olmasına baxmayaraq, orucu necə tutmağı, hansı dualardan istifadə etməyi ondan öyrənirdim. Çünki çox savadlı idi. O mənim həm dostum, həm də dərd yoldaşım idi. Ona çox güvənirdim. Bilirdim ki, ondan söz çıxmaz. Ona ürəyimi boşaldırdım. O da mənə gözəl məsləhətlər verirdi.

Heç yadımdan çıxmaz... Mənim nişanımda həm ofisiant, həm də fotoqraf idi.

Çox səmimi, ürəyiyumşaq, hər kəsə kömək əli uzadan bir uşaq idi. Onun haqqında kimdən soruşsaz, uşaqlığından bu yana bir kəlmə belə mənfi fikir deyə bilməz. Çünki bu insan bu az ömründə mələk kimi təmiz, dürüst yaşadı. Yeri həmişə görünür. Həmişə fəxr etmişəm, fəxr edəcəm ki, belə bir xalam oğlu, qardaşım olub. Xəyalən həmişə onunla söhbət edirəm. Ona demək istəyirəm ki, səni unutmaq çox çətindir. İnanıram ki, həyatda olmasan da, bizi həmişə görür, eşidirsən. Sənin üçün çox darıxmışam. Bu cümlələri yazarkən gözlərimdən yaş axır. Sənin şəklini böyüdüb evimizdə saxlayıram. Sən mənim qəhrəmanım, saf mələyimsən! Allah sənin ruhunu şad eləsin! Amin!

## Əliyev Sədaqət Elbrus oğlu - Sultanın xalasının həyat yoldaşı

Sağlığında Sultandan söz düşəndə: "Əşi, o, oğuldur e! Sultan kimi mərifətli, qanacaqlı oğul tək-tək olar. Böyüyün-kiçiyin yerini bilən, əxlaqlı bir gəncdir. Sifətində nur, təbəssümündə təmizlik, davranışında, gözlərində abır-həya var bu oğlanın. Mərd oğul belə olar! Atasının balasıdır!",- deyərdim. Çünki babası da, atası da kişi adam olublar. Sultanın Allaha, dinimizə bağlılığı adamı heyran edirdi. Öz-özümə düşünürdüm: "Qəlbi gör nə qədər safdır ki, həmişə Allah eşqi ilə döyünür! Böyüklərdən yaxşı!"...

Körpəliyi gözlərimin önündə keçdi... Böyüdü. Vətən və torpaq uğrunda şəhidlik zirvəsinə ucaldı.

Mən onu çox istəyirdim. Dayı kimi. Uşaqlarımdan ayırmırdım.

Mən fəxrlə deyirəm: "Mənim şəhidim! İgid oğlum, məkanın Cənnət olsun! Şirin yat! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Ürəyim doludur. Xatirələrim tükənməzdir. Amma sözün bitdiyi andır... Allah valideynlərinə səbir versin! Amin!

## Əliyev İlqar Sədaqət oğlu - Sultanın xalası oğlu

Sultanım, mənim canım qardaşım! Məkanın Cənnət olsun!

Xalam oğlu Sultan mənim ən yaxın uşaqlıq dostum, qardaşım olub! Biz həmişə birlikdə vaxt keçirirdik. Elə olurdu ki, gecə səhərə qədər söhbət edir, nəyi isə müzakirə edirdik. Soli uşaqlıqdan çox mehriban idi. Hamıya əl tutardı. Onunla zövqlərimiz, hobbilərimiz də, demək olar ki, eyni idi. Səsi, sözləri indi də qulaqlarımdan getmir. Telefonla danışanda ilk sözü bu olardı: "Mənim qaqamın keyfi?"

Sirrimi, sözümü rahatca paylaşa biləcəyim insan Sultan qardaşım idi. Sultan heç vaxt yalan danışmaz, həmişə sözünün üstündə durardı. Onun dilindən heç vaxt söyüş eşitmədim. Dinə çox bağlı idi. İçki içməz, siqaret çəkməzdi. Böyüklə böyük, kiçiklə kiçik idi. Həm ciddi, həm də pozitiv xarakteri var idi. Yumor hissi də güclü idi. Maraqlı, gülməli söhbətlər edərdi. Müharibəyə getməzdən əvvəl bir gün onunla Bakıda vaxt keçirdik; gəzdik, söhbət etdik. Şəhid olacağı ürəyinə dammışdı. Bu nəticəyə doğru ürəklə gedir, sanki bu kirli dünyada özünə yer tapmırdı. İndi onun yeri Cənnətdədir.

İndi ona demək istəyirəm ki, sən həmişə mənim qəlbimdəsən. Səninlə fəxr edirəm, mənim can dostum!

## İsayeva Sevinc Malik qızı - Sultanın xalası

Sultan! Adı kimi özü də Sultan olan balam! Nə deyim səninçün? Körpəliyindən ta bu günə qədər şirin sözlərin, danışığın, rəftarın, həyatın, əməllərin unudulan deyil. Onu deyə bilərəm ki, sən həmişə necə olmusansa, qəlbimdə elə də qalacaqsan. Səni unutmaq mümkünsüzdür. Aramızda olmasan da, bilirəm ki, sən ölməmisən. Sən şəhidsən, şəhidlər isə ölmürlər - əbədi həyata varid olurlar. Əziz Sultanım, sən bütün ürəklərdə özünə taxt qurmusan. İgidim, mərdim, əziz balam, şəhidliyin mübarək olsun!

## Əsgərova Xatirə Xanhüseyn qızı - Sultanın xalası

Tanrı Sultanı bizə yazın ikinci ayında bəxş etmişdi. Arıq bədəni, incə görünüşü, sakit təbiəti ilə seçilən bir uşaq idi. Sultanı mənə xüsusi sevdirən və o biri uşaqlarımızdan fərqləndirən mənim kimi səssizliyi, dəcəlliyi sevməməsi, gözə girməməsi idi. Özünün xüsusi oyuncaqları var idi və onlarla tək oynamağı sevər, kimsənin onlara toxunmasını istəməzdi. Bir vaxt onlar Rusiyada yaşamağa köçdülər. Sultanım qayıdanda bir az fərqli uşaq olmuşdu. Rusiyada olanda idmanla məşğul olurmuş. Medallarıyla, idman yarışlarından qazandığı tərifnamələrlə məni sevindirirdi. Bir də incə əl işləri olan məscid və seçilmiş binaların maketlərini düzəltməyi öyrənmişdi.

Sultan böyüdükcə fərqliliyi ilə seçilməkdəydi. İdmanla məşğuliyyətini davam etdirə-etdirə ibadətlə də məşğul olmağa başladı. Qəlbindəki saflıq onu imana, namaza, məscidə apardı və o özünü bir daha təsdiq etdi. Allaha, dinə sevgisinin böyüklüyündən imanı olan, böyükdən-kiçiyə hər kəsi - ən çox da məni namaza çağırırdı. “Namaz qılmırsansa, oruc tutmağının nə mənası var, xala?”- deyərdi. Mən də onun Allaha sevgisi qarşısında aciz qalır, özümü qınayırdım. Bir dəfə ona: “Qırx yaşımda namaz qılacam. Məşhədə ziyarətə də gedəcəm. Özü də səninlə”,- dedim. “İnşallah, xalam, gedərik. Amma namaz qılmaq, ziyarətə getmək üçün qırx yaşı gözləmək lazım deyil”,- dedi. Ən kiçik xala olduğum üçün Sultanım mənə “xalam”

deyə müraciət edərdi. Telefonu açanda "xalamın keyfi, xalam necədir?" kəlmələrini heç vaxt unutmayacağam. İndi də hər telefonu açanda o səsi, o kəlmələri eşidəcəyimi zənn edirəm. Amma çox təəssüf!.. Sultanım böyüyüb tələbə yaşına çatdı. Tələbəliyində onunla xatirələrim sadəcə qısa telefon danışıqlarından ibarət oldu. Sonra əsgərliyi. Hərbi xidməti Naxçıvanda oldu. Yanına gedə bilməsək də, tez-tez telefonla danışırdıq. "Hər şey yüksək səviyyədədir, əladır. Dağa qalxırıq. Snayperçiyəm. Burada havalar şaxtalıdır, amma isti-soyuğa öyrənməliyik. Əsgərlik kişilik məktəbidir",- deyirdi. Bəzən mənə qəribə gəlirdi; bu uşaq hər bir çətinliyi olduğu kimi qəbul edir, heç vaxt narazılıq etmirdi. "Allah kömək edir, Allah qoruyur",- deyirdi. Hərbi xidmətdən döndükdən sonra da namazına, idmanına davam edirdi. Tez-tez Qurandan, namazdan, bilmədiyimiz ayə, surə və hədislərdən danışır, bilmədiklərimizi başa salır, bundan xüsusi zövq alır, bizə nəyi isə öyrətdiyi üçün özünü xoşbəxt hiss edirdi.

Fotoaparatı vardı. Şəkillər çəkdirməyi çox sevirdi. Mənzərəli yerlər seçib, fərqli formalarda şəkillər çəkdirir və bunları mənimlə müzakirə edirdi. İndi o şəkillər hamımızın ən əziz eksponatımıza, həm də gözdağımıza çevrilib.

Tez-tez: "Özünə iş tap, işlə. Boş oturma",- deyirdim. Yarızarafat, yarıgerçək danlayırdım onu. Bir dəfə də olsun, üzümə qayıtmaz və ya: "Mənə münasib iş yoxdu, tapa bilmirəm,- deməz,- ruzini Allah verir, Allah yol açsın - işləyəcəm",- deyərdi. Sənədlərini DSX-nə verib işə düzələndə elə bi-

lirəm ki, ən çox sevinən mən olmuşdum. Mənim ailəm Dövlət qulluqçusudur. Sultanı da Dövlət qulluqçusu formasında görmək ən böyük arzum idi. Biz ondan fərqli bir həyat gözləyirdik. Həmişə ad günlərində onu təbrik edəndə də: "Mən səninlə fəxr edirəm. Elə et ki, işində daim seçiləsən, mənim "zabit balam",- deyərdim.

Tanrı Sultanı seçilmişlərdən, ən yüksək zirvəyə ucalanlardan etdi. Sevincimizi göz yaşları ilə əvəz etməklə!..

İşlədiyi dövrdə tez-tez telefonla danışırdıq. Heyvanları çox sevirdi; onları bəsləməkdən zövq alırdı. Hətta işlədiyi yerdə qaz da alıb saxlayırdı. Torpaq alıb ev tikmək, bağ-bağat salmaq, mal-qara alıb saxlamaq haqda düşünürdü. Hələ sevdiyi bir qız yox idi. Bu işi anasına həvalə etmişdi. Ailə qurmağın məsuliyyətini dərindən hiss edirdi. Özü kimi dindar, imanlı, sadə, kasıb ailədən olan qızla ailə quracağını deyirdi.

İdman etmək üçün şəxsi əşyalarını da yanına aparmışdı.Telefonla danışanda deyirdi: "Hər şey yaxşıdır. Məşqlərimi də edirəm. Yarışlar olacaq. Mən də o yarışlara qatılacam. Öz çəkim üzrə mən birinciyəm. Əminəm ki, qalib gələcəm". Təəssüf ki, pandemiya səbəbindən bu yarışlar baş tutmadı. Ümidlərinin boşa çıxması Sultanı məyus etdi...

Bir gün DSX-nin çevik alayına yazıldığını eşitdik. Buna öz istəyi ilə, sevinərək, heç kəslə məsləhətləşmədən özü qərar vermişdi. Sonra onunla cəmi bircə dəfə danışdım. "Hər şey əladır, əla da olacaq, inşallah!"- dedi. Bu "əla"ların ardınca nələr olacağını heç ağlıma da gətirməzdim...

İkinci Qarabağ müharibəsi başladı. Mən bir daha Sultanımın qəlb oxşayan səsini eşitmədim. Ancaq xəbərlər alırdıq "Hər şey əladır. Qələbə bizim olacaq. Yalnız irəli gedirik",- deyirdi.

Bu da payızın ikinci ayı - 24 oktyabr 2020-ci il. Sultanın şəhidlik xəbəri! Bir daha onu görməyəcək, səsini eşitməyəcək, bağrımıza basa bilməyəcəkdik!

Min dəfələrlə desək də, səninlə fəxr edirik, qəhrəmanımızsan, qürurumuzsan, amma yenə də sən bizim balaca, sadə, sakit təbiətli, gülərüz, səmimi Sultanımızsan. Səsin qulağımızdan, siman xəyalımızdan çəkilməyəcək əziz balamızsan. Adın tarixə, bir də bizim qan ağlayan ürəyimizə yazıldı.

Biz hər il sənin ad günlərini qeyd edirdik. İndi bizə qalan şəkillərin, telefonlarda qalan yazılar, videoların, şirin xatirələrin, bir də rəqəmləri üstündə donub qalan and yerimizə çevrilmiş məzar daşın oldu. Səni heç vaxt unutmayacağıq. Ən böyük dərd sənin yoxluğundur!

## Əsgərov Aslan Əsgər oğlu - Sultanın ana babasının dayısının yeznəsi

Qəhrəman Sultanımız əvvəllər az danışar, gülümsəyib sakitcə salamlaşar, öz işi ilə məşğul olardı. Özünü mənə istətməsi, dərindən tanıtması idman zallarına gedəndən sonraya təsadüf edir. Əzələli qollarını, inkişaf etmiş bədənini, necə idmançı olduğunu, neçə kilo qaldırdığını mənimlə müzakirə edirdi. Sonralar hərdən zarafatlaşa-zarafatlaşa, qol güləşi və sair idman fəndləri edə-edə onun sevimli dayısına çevrildim. Oturub söhbət edirdik. Bəzi şeyləri xırdalıqlarına qədər izah etməsi xoşuma gəlirdi. Onunla ünsiyyətdə olduqca əvvəllər onda gördüyüm sakitliyin altında necə fərqli - dünyaya başqa gözlə baxan uşaq olduğunu görürdüm. Onda olan səmimiyyət, böyük-kiçik yolu bilməsi mənim xoşuma gəlirdi. Həmişə ona idmanla daha çox məşğul olmağı tapşırırdım. “İdmançı kimi formada olsan, əsgərlikdə də, işdə də həmişə irəlidə olacaqsan”,- deyirdim.

Hərbi xidmətini Naxçıvanda keçirdi. Biz onun yanına gedəndə: “İnana bilmirəm ki, Aslan dayım mənim yanıma gəlib”,- deyə sevindi. Hər şeydən razılıq edirdi. “Nümunəvi əsgərəm. Snayperçiyəm. Əla atıcıyam və bu mənə zövq verir”,- deyirdi. Bu oğlanda işinə məsuliyyətin yüksək səviyyədə olması məni sevindirirdi. Hər görüşdə onda yeni bir xüsusiyyət kəşf edirdim. Naxçıvana yanına gedəndə hava isti idi. Sultana cib dəsmalımı verdim ki, tərini silsin. O həmin dəsmalı uzun illər xatirə kimi saxladı. DSX-nin işçisi olduğu

vaxt bir dəfə məzuniyyətə gələndə dəsmalı mənə göstərib dedi ki, Aslan dayı, bu dəsmalı xatırlayırsan? Naxçıvandan bəri saxlayıram.

Hərbi xidməti bitirdikdən sonra o, bir müddət işsiz qaldı. Ona münasib iş tapa bilmirdik. O, imanlı, dindar olduğu üçün işləyəcəyi işə də halal-haram fikriylə yanaşırdı. Bir gün mənə zəng vurub dedi ki, dayı, DSX-nə sənəd vermək istəyirəm, necə məsləhətdir? Xarakterinə bələd olduğum üçün: "Əla! Get işlə",- dedim. Bilirdim ki, bu oğlana hər şeyi etibar etmək olar. Sənədlərində səhv olduğu üçün işi düzəlmirdi. Bir neçə dəfə gedib-gəlmişdi. Ümidini üzmürdü. İşinin mütləq alınacağını düşünürdü. Bir ay sonra mənə zəng vurub: "Dayı, məni işə çağırdılar. Sabah gedirəm",- dedi. Sevindim. Onun yaxşı işçi olacağına, dövlətinə, millətinə sədaqətlə qulluq edəcəyinə inanırdım.

Tez-tez telefonla danışırdıq. Bəzi işləri mənimlə məsləhətləşirdi. Bir gün sevinclə mənə zəng edib kiçik gizir rütbəsi aldığını bildirdi. Məzuniyyətə gələndə görüşdük. O, artıq dövlət qulluqçusuna çevrilmişdi. Bu məni çox fərəhləndirirdi.

DSX-nin çevik alayına könüllü olaraq yazılmasını mənə məsləhət etməmişdi. Az sonra İkinci Qarabağ müharibəsi başlandı. O, müharibəyə getdi. Təbii ki, müharibənin öz qanunları var. Telefonla danışmaq olmazdı. Bir dəfə ona səsli mesaj göndərib vəziyyətini soruşdum. Vaxt tapan kimi cavab göndərmişdi: "Şükür Allaha, hər şey yaxşıdır. Biz qalib gələcəyik. Torpaqlarımızı ala-ala ancaq irəliləyirik. İnşallah, qələbəyə az qalıb",- deyə

cavab göndərdi. Bu onun məndə qalan son səsi, son xatirəsi oldu.

Sultanın şəhidlik xəbərini eşitdikdə mən ömrümdə keçirmədiyim həyəcan və kədər duydum. O hissləri sözlə ifadə etmək mənim üçün çox çətindir. Mən ondan həmişə yüksəlişlər gözləyirdim. Amma o, ölümün ən yüksək zirvəsinə - şəhidliyə yüksəldi.

Mən Sultana çox bağlanmışdım. Onunla olan söhbətlərimizdən, yol yoldaşlığımızdan necə bir oğul olduğunu bilirdim. Heyif, belə bir oğulu itirdik. Düşünürəm ki, onun yerini heç kim doldura bilməz. O, bütün tanıyanların qəlbində dürüst, imanlı, tərbiyəli və qeyrətli bir oğul kimi yaşayacaq. Mən buna əminəm. Hər kəlməsi, hər addımı ən əziz xatirəmizə çevrilən Sultanımız sadəcə vərəqlər üzərində deyil, ürəklərimizdə daim yaşayacaqdır.

## Əsgərova Sehri Aslan qızı - Sultanın xalası qızı

Sultan çox mərd və cəsur, Allahına bağlı, təmiz qəlbinin nuru üzünə yansımış bir gənc idi. Onun mehriban, gülümsər üzü yaddaşlarda həkk olub qalmışdır. O, iyirmi dörd illik ömrünü hər kəs üçün örnək olacaq qədər mənalı yaşadı. Bu gün onun qısa və mənalı ömür yolu dillərdə dastan olub. Onun şəhid olduğunu düşünəndə nə qədər kövrəliriksə, bir o qədər də qürur hissi keçiririk.

Sultan işə düzəlməzdən əvvəl namazını daim məsciddə qılardı. Hər namaza gedəndə yuyunub ətirlənər, səliqəli geyinər: "Allahın qarşısına gedəndə pak olmaq lazımdır", - deyərdi. Məscidin bəzi işlərində, o cümlədən təmizlik işlərində Sultan çox fəallıq göstərərdi. O, dinimizi çox sevirdi. Çoxlarına namazı öyrədər, pis vərdişlərdən çəkindirərdi. Onun başqa bir məşğuliyyəti də idman idi. Hər gün idman zalına gedir, məşqlər edirdi. O, gördüyü hər bir işə böyük məsuliyyət hissi ilə yanaşırdı. Mən onu heç vaxt yersiz danışıb-gülən görməmişdim. Həmişə gözəl əxlaqı, tərbiyəsi ilə seçilirdi. Onun şəhidlik xəbərini aldıqda elə bil, canımızdan can ayrıldı.

Sultan həm də çox dözümlü və səbirli idi. Nə qədər çətinliyi olsa, heç vaxt şikayətlənməzdi.

Sultan qardaşımın həmişə vurğuladığı bir fikir heç vaxt yadımdan çıxmaz. Deyirdi, bu dünyadan yalnız öz əməllərini aparacaqsan. Özü də dünyadan gözəl əməlləri ilə köçdü.

Sultan şəkil çəkdirməyi çox sevərdi. Mənim də onunla şəkillərim var. Bu şəkillərin birində mən

onun idman formasını geyinmişəm. O isə əlini mənim çiynimə qoyub.

Sultan döyüşdə ikən mən onun haqqında bir videoçarx hazırlamışdım. Heyif ki, o, şəhid oldu və həmin videoçarxı görə bilmədi. Bundan sonra şəhidlik mövzusunda videoçarxlarını hazırlamalı olduq.

Sultan mənə böyük qardaş kimi idi. İndi onun haqqında kitablarda, qəzet və jurnallarda şeirlər və məqalələr yazılır. Düzdür, bu yazılanlar qardaşımı geri qaytara bilməyəcək. Ancaq onun adını yaşatmaq üçün bunların böyük əhəmiyyəti vardır.

Sultan qardaşım hərbi formada çox gözəl görünürdü. Onun bu görkəmi bizə qürur verirdi. İndi düşünürəm ki, kaş sağ olaydı. Həmin hərbi formada bizimlə görüşəydi. Amma neyləyəsən ki, artıq məzar daşı üzərindəki şəkillərini qucaqlayıb, onu yad edirik. Qardaşımın maraqlı dünyası artıq Cənnətdə davam edir.

Qardaşım, kaş yanımızda olaydın. Yenə də bizə məsləhətlər verəydin!

Məqamın Cənnətdir, nurlü üzünə həsrət qaldığımız qardaşım!

## Mikayılov İlkin Elçin oğlu - Sultanın xalası oğlu

Dağları qürurumuz, çayları qaynar qanımız olan Azərbaycanımızda doğulmaq, yaşamaq, işləmək, lazım gələndə torpağını qorumaq, sevmək və gərəkərsə, Vətən uğrunda ölmək hər bir vicdanlı insanın borcu, fəxr dünyası, amalı, andıdır. Bu anda sadiq olanlardan biri də silahdaşım, qardaş qədər əziz bildiyim xalam oğlu Sultandır.

Qardaşım Sultana demək istərdim ki, sənin haqqında deməklə, yazmaqla sözlərim bitməz. Sən və bütün şəhidlərimiz ömrüm boyu yadımda qalacaqsız. Nur üzlü silahdaşım, artıq qələbə qazanmışıq. Bütün şəhidlərimizin qanı alındı. Ruhunuz şad olsun!

## Mikayılov Elvin Elçin oğlu - Sultanın xalası oğlu

Öz qanı, canı bahasına tarix yazanlardır şəhidlərimiz. Onlardan biri də silahdaşım, döyüş yoldaşım, kiçik qardaşım Sultandır. Xalam oğlu, balaca qardaşım Sultanın əsgər olduğu vaxtlardan sona kimi  həyatı yadımdadır. Yanımda xidmət etməyinə baxmayaraq, bir dəfə də olsun haqqında pis söz, pis hərəkətini eşitmədim. Əksinə, ona görə həmişə fərəhlənmiş, qürur hissi keçirmişəm, haqqında xoş sözlər eşitmişəm. Əsgər yoldaşlarıma, komandirlərimə məni böyük qardaşı kimi təqdim etməsinə baxmayaraq, mənimlə belə rütbə yoldaşlarımın yanında nəzakət və hörmətlə rəsmi müraciət edirdi.

Hərbi xidmətdə olarkən ən çətin döyüş bölgələrinin birində xidmət edirdi. Amma heç vaxt gileylənməz, şikayət etməzdi. Deyirdi, qoy çətin yerdə xidmət edim ki, "qorxaq biridir", - deməsinlər. Sultanla qürur duymamaq mümkün deyil. Hal-hazırda o, şəhiddir. Ölümün bu zirvəsi onun arzusu idi və o öz arzusuna çatdı, deyərdim.

Şəhid olmaq hər kəsə nəsib olmur. Onlar sağdırlar. Qəlbimizdə əbədi olaraq yaşayacaqlar.

"Torpaq uğrunda ölən varsa, Vətəndir!"

## Əsgərov Fuad Aslan oğlu - Sultanın xalası oğlu

Sultan bir yaz günündə dünyaya gəlmişdi. Qardaşım orta təhsilini bitirdikdən sonra kollecdə təhsilini davam etdirdi. Sonra əsgərliyə getdi. Hərbi xidmətini bitirdikdən sonra DSX-nin Sahil mühafizəsində işə düzəldi. Onun işə düzəlməsi hamımızı sevindirdi. Sultan idmanla məşğul olurdu.

O, həm də dininə bağlı bir oğul idi. Böyüyün-kiçiyin yerini bilməklə də hamının hörmətini qazanmışdı. Daim məşq etdiyinə görə fiziki cəhətdən sağlam və qüvvətli idi. Çəkisi az olsa da, normadan qat-qat artıq çəkini qaldıra bilir, turnikdə gözəl hərəkətlər icra edirdi.

Qardaşım 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ savaşında könüllü olaraq döyüşə yollandı. O, adi həyatda olduğu kimi müharibə zamanı da komandirlərinin və döyüş yoldaşlarının hörmətini qazanmışdı. Sultan bizim xatirələrimizdə olduğu kimi döyüş yoldaşlarının da xatirəsində çox mərd, cəsur, qorxmaz bir döyüşçü kimi qalmışdır.

Sultan şəhidliyi çox yüksək dəyərləndirir, onun nə olduğunu çox gözəl başa düşürdü. Deyirdi ki, hamımız gec-tez öləcəyik. Vətən, torpaq və ya dinimiz uğrunda öləriksə, müqəddəs diriliyə qovuşar, Uca Allahımızın sevdiklərindən, seçilmişlərdən olarıq. Qardaşım öz arzusuna çatdı.

Can qardaşım, sən öz arzuna çatdın. Amma bizləri – sənin arxanca qalan ağlar gözləri heç düşünmədinmi? Xalamın sənin üçün qurduğu xəyalları, yarımçıq qalan arzularını düşünmədinmi? Qardaşım, səni əmin edirəm ki, mən də sənin kimi Vətəninə, torpağına, dininə və xalqına bağlı gənc kimi formalaşıram! Sən bizim qəlbimizdə əbədi yaşayacaqsan!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!



## İbrahimova Gülnarə Sultan qızı - Sultanın bibisi

Torpaqlarımız uğrunda canını fəda edən oğullarımızdan biri də qardaşımın sevimli övladı Sultandır. Sultan gülərüz, sakit təbiətli, əxlaqlı, böyüyün-kiçiyin yerini bilən oğul idi. O hələ uşaq yaşlarından seçilən uşaq olub. Sultan dünyaya göz açanda evimizə ruzi-bərəkər, xoş günlər gətirdi. Sultana atamın adını vermişdik. O, evimizin ilk oğul övladı idi. Hamımız onu çox istəyirdik.

Yadımdadır, bir yaşı tamam olanda atası ona gözəl bir ad günü keçirdi. Bütün ailəmizlə yığışıb Sultanın ad gününü qeyd etdik. Sevincimizi hiss edirmiş kimi Sultan özü də sevinir, gülürdü. Sultanın ayağı xüsusi ilə mənə də düşərli olmuşdu. O, dünyaya gələn ay mənə də ruzi qismət oldu. Mən işə qəbul olundum. Sevincimin həddi-hüdudu yox idi.

Sultan gözümüzün önündə böyüyüb məktəbə getdi. Sonra qardaşımgil bir müddət Moskvada yaşamalı oldular. Bir neçə il orada yaşadıqdan sonra yenidən Salyana qayıtdılar. Sultan böyüyəndən sonra bütün oyuncaqlarını mənim qızıma bağışladı. Dedi, artıq mən böyümüşəm.

On səkkiz yaşı tamam olanda əsgərliyə getdi. Yadımdadır, əsgərlikdə də gözəl əxlaq və davranışına görə məzuniyyətə tez buraxılmışdı. Həmin gün onu səbirsizliklə gözləyirdik. Nəhayət, o gəlib-çıxdı. Anasını, məni bağrına basdı.

Əsgərliyini bitirdikdən sonra Sultanı öz yanımda işə düzəltmək istəyirdim. Dedim, bibi-bala bir yerdə işləyərik. Razılaşdı. Təəssüflər olsun ki,

bu istəyimiz alınmadı. Sultan öz ixtisası üzrə işləmək üçün sərhəd qoşunlarında işləməyə getdi. Sevinirdim. Sevinirdim ki, Sultan tərbiyəli, əxlaqlı olduğu kimi, həm də zəhmətkeş bir oğul olub. Sonralar eşitdim ki, o öz halal işpulundan (maaşından) köməksiz ailələrə yardım edirmiş.

Sultan heyvanları çox sevirdi. Onun gözəl ürəyi vardı. Hələ uşaqlıqdan həyətə dadanmış bütün pişikləri yemləyərdi. O, idmanla məşğul olur, həm də namaz qılırdı. İşi-gücü çox olsa da, özünü namaza çatdırar, namazını qəzaya qoymazdı.

Sultanla fəxr edirdim. Fəxr edirdim ki, evimizdə belə bir əxlaqlı, qeyrətli, cəsur oğul böyüyüb.

Yadımdadır, Sultan işdən məzuniyyətə gəlmişdi. Bir dəfə məndən soruşdu: "Bibi, Humayın neçə yaşı var?" Dedim ki, doqquz yaşı var. Dedi: "Humay artıq namaz qılmalıdır". Sultan namazı Humaya öyrətdi. O vaxtdan Humay namaz qılır. Sonra mənim də telefonuma dini kitab yazdı ki, oxuyub maariflənim. Daim o kitabı oxuyub-oxumadığımla maraqlanırdı. Yaşca məndən çox kiçik olmasına baxmayaraq, lazım olanda mənə məsləhətlər verir, doğru olanı başa salmağa çalışırdı. Özü də çox dindar uşaq idi.

Sultan hər dəfə məni görəndə: "Bibi, vəziyyət necədir?"- deyə xəbər alırdı. Onun mənə "bibi" deyə müraciət etməsi çox xoşuma gəlirdi. Qəlbinin gözəlliyi üzündə əks olunurdu. Sultanla bağlı xatirələrim çoxdur.

Mənim balam könüllü olaraq müharibəyə getdi. Qanı ilə tarix yazdı. Şəhadətə qovuşdu.

Müharibədə olanda imkan tapan kimi mənimlə yazışırdı. Vəziyyətini soruşanda deyirdi ki, hər

şey qaydasındadır. Sultandan xəbər tutmayanda ürəyim sıxılırdı. Axırıncı dəfə oktyabrın 19-da mənə cavab yazdı. Hər şeyin yaxşı olduğunu dedi. Çox sevindim ki, balamdan xəbər var.

Həmin gün Sultanın bir yazısını oxudum. Yazırdı ki, "Öləcəksiniz, şəhid olaraq dünyadan köçün!" Bu söz mənə pis təsir etdi. Yazdım ki, bala, bu nədir? Cavab vermədi. Sonra ona zəng çatmadı, bir neçə gün sonra isə şəhidlik xəbəri yayıldı. Mən hələ də Sultanın şəhid olmasına, onu bir daha görə bilməyəcəyimə inana bilmirəm. Tez-tez onun məzarını ziyarət edir, onunla xəyalən söhbət edirəm. Mən yaşayıram, Sultanım isə Cənnətdən dünyaya baxır. Bunu düşünmək mənim üçün çox çətindir.

Bir dəfə Sultanın belə bir yazısı ilə rastlaşmışdım: "Allah güclüləri seçmir, seçdiklərini güclü edir". İndi Sultanla bərabər Allahın seçərək güc verdiyi yüzlərlə oğullarımızın ruhları şaddır. Çünki uğrunda savaşdıqları torpaqlarımız azaddır. Bükülmək hər kəsə nəsib olmayan, şəhidlərimizə qismət olan üçrəngli bayrağımız azad olunmuş Vətən torpaqlarında əzəmətlə dalğalanır.

Körpə balam, əziz Sultanım, Allah sənə cəmi iyirmi dörd il ömür verdi. Sən bu qısa həyatını şərəflə yaşadın. Arzusunda olduğun şəhidliyin mübarək! Səninlə fəxr edirəm. Mərd, igid, nur üzlü, ağıllı balam Sultanım, rahat uyu! Qarabağ azaddır!

## Nağıyeva Yeganə Sultan qızı - Sultanın bibisi

Sultan haqqında yazmaq mənim üçün həm çətin, həm də qürurvericidir. Çətindir, ona görə ki, onu gənc yaşında itirdik. Düşünəndə ki, onu bir daha görməyəcəyəm, bibi kimi mənə çox çətindir. Onun yoxluğu ilə barışmaq mənim üçün ağırdır.

O, atamın adını daşıyırdı, onun evinin çırağını yandıracaqdı. Ona baxanda sevinir, fərəhlənirdim. Sultan dünyaya gələndə mənim 12 yaşım var idi. Demək olar ki, bir yerdə böyüdük. Onun ilk ayaq açmağı, danışmağı, məktəbə getməsi hələ də gözlərimin qabağına gəlir. Gülərüz, mehriban, sadə, istiqanlı bir uşaq idi. Üzündən təbəssüm əskik olmazdı. Sultanı tanıyan kər kəs onu sevirdi. Yaşadığı bu qısa həyatda heç kim onun mənfi xüsusiyyətini deyə bilməzdi. Gözəl əxlaqı ilə hamının hörmətini qazanmışdı.

Sultan idmanı çox sevirdi. Məşq etməyi xoşlayırdı. İdman zalına gedəndə həmişə bizim evimizin qabağından keçib gedirdi. Məni hər zaman gəlib yoxlayır: "Bibi, mənə görə nə qulluğun?",- deyərdi. Səsi hələ də qulağımdadır.

Uşaqlara dinimizin gözəlliklərindən danışar, onlara namaz qılmağı öyrədərdi. Allah onu sevərəkdən yaratmışdı.

Dövlət Sərhəd Xidmətində üç ay idi ki, işləyirdi. Bir dəfə evlərinə gəlmişdi. Bir də gördüm, həyətdə məni çağırır. Onu hərbi formada görən-

də duyğulandım. Boynuna sarılıb ağlamağa başladım. Dedi: "Bibi, bilsəydim, gəlməzdim. Niyə ağlayırsan?" Dedim ki, bibin boyuna qurban, sevincimdən ağlayıram. Səninlə fəxr edirəm. Ona hərbi forma elə yaraşırdı ki! Heyif, onu tez itirdik! Vətən uğrunda canından keçdi. Bizlər rahat yaşayaq deyə, nə qədər oğullarımızı itirdik. Onların boynumuzdakı haqları heç vaxt unudulmaz. Biz unudulub gedəcəyik, amma onların adları xatirələrdə əbədi yaşayacaq. Çünki onlar qanları ilə yeni bir tarix yaradanlardır.

Əziz balam, əziz Sultanım, mən səninlə həmişə fəxr etmişəm. Etdiklərini bizə halal elə!

# Sultanlı xatirələrin işığında





*Sultan (solda) və qardaşı Aqil*
























İbadət üçün gəldik, hesab üçün dönəcəyik!
Dünyada müsafirik, dirilmək üçün öləcəyik!





















*Sultan (solda) və*
*qardaşı Aqil*









*Soldan birinci Məmmədov Cavid, Babayev Məmmədəli, Abbaslı İlkin, Ağayev Seyidəhməd, İbrahimli Nail, Xudayar Yusifzadə,Yusubov Faiq, Bədəlli Elmar, sağdan birinci İbrahimov Sultan. (Öndə əyləşən qrup Komandiri Tural Əkbərov)*












"HAMI
MƏNİ TANIYACAQ..."
arb24
19:12 arb24.az / facebook.com/arb24tv / instagram.com/arb24.az /
LERİK
+4°C
COTTON
79.91

# *Sultan İbrahimovun ölümündən sonra aldığı medallar*













ŞƏHİD
D.S.X - nin X.T.D - nin
K/Giziri
İBRAHİMOV
SULTAN
MİKAYIL oğlu
24.04.1996 - 24.10.2020

## Nağıyeva Firuzə Şahin qızı - Sultanın bibisi qızı

Sultan mənim dayım oğludur, amma mən onu həmişə özümə qardaş kimi görmüşəm. Bu, həqiqətən də, belə idi. O mənim məsləhətçim, böyük qardaşım idi. Hazırda mənim 16 yaşım var, lakin onun kimi mehriban, təvazökar, mömin və saya bilmədiyim qədər müsbət insani keyfiyyətləri olan ikinci bir adam tanımamışam.

Sultanın yoxluğunu bu günə kimi qəbul edə bilmirəm. Sultan qardaşımla olan xatirələrim çoxdu. Nədən başlayacağımı bilmirəm. Onun haqqında danışanda istər-istəməz gözlərim dolur. Sultan kimi insanın yoxluğuna alışmaq çox çətindir. Bu gün mənim məsləhətləşmək üçün, mənə doğru yol göstərəcək bir qardaşım yoxdur.

Sultanın sağlığında internetdə onunla Allaha ibadət və zikr üçün bir qrup açmışdıq. Bəzən: "Fira, bu gün zikrləri qrupa sən at. Sıra səndədir",- deyərdi. Sultanım artıq yoxdur.

Sultana tez-tez suallarım olurdu. Fərqi yox, saat neçədə olur-olsun o, həmişə cavab verməyə, söhbət etməyə hazır idi.

Qrup açdığım gün heç vaxt yadımdan çıxmır. Sultan mənə proqram adı dedi. Sonra iki zikr qrupu açdım. Biri qohumlar üçün, o biri isə sinif yoldaşlarım üçün. Sultan o qədər sevinirdi ki... Deyirdi, Fira, bilirsən, nə qədər savab qazanırıq.

Hə, bir də Sultanın "ok" sözündən zəhləsi gedirdi. Bunu bildiyimizə görə qrupda danışanda "ok" sözünü yazmazdıq.

Mən bu gün Novruz bayramını sevmirəm. Sonuncu dəfə 2019-cu ildə Novruz bayramını Sultanla birlikdə keçirdik. O gün bizim ən gözəl günümüz idi. O, şirin söhbətlər edir, şən zarafatları ilə bizi güldürürdü. Mən yenə həmin günlərə qayıtmaq istəyirəm. Canım qardaşım, kaş bu gün də yanımızda olaydın. Dayım adına mahnı bəstələtdirdi. Dostların sənə şeirlər həsr edib. Bu gün yazdıqlarım da kitabda çap olunacaq. Hətta sənin qırx mərasimin günü mən də sənə bir şeir yazmışdım. Hər misrasında göz yaşlarım olan şeirimi hər dəfə oxuyanda kövrəlirəm.

***Bir gün bu sənsizlik bitərmi, qardaş,***
***Yoxluğun mənimçün kədərdi, qardaş!***
***Sağlığında keçən gözəl günləri***
***Qəlbim heç unuda bilərmi, qardaş!***

Əziz qardaşım, sən canını Vətən uğrunda qurban verərək şəhidlik zirvəsinə ucalmağınla adını xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazmısan. Mən səninlə fəxr edirəm!

## Quliyeva Rövşanə Sultan qızı - Sultanın bibisi

Tarix yazan qəhrəmanlarımızdan biri də qardaşımın ciyərparası, hamımızın sevimlimiz Sultandır. Mən nə sağlığında, nə də şəhadətə ucaldıqdan sonra onun haqqında mənfi bir fikir eşitməmişəm. O, gözəl tərbiyəsi, əxlaqı, hamıya qarşı qayğı və diqqəti ilə bütün ürəklərdə iz qoydu. Qısa bir ömür yaşadı. Ölümün ən yüksək zirvəsini fəth edərək adını Vətənimizin tarixinə yazdı. Mən onun doğması yox, kənar bir adam olsaydım belə, Sultanı belə dəyərləndirərdim.

O, Vətən uğrunda şəhid olmaqdan qorxmayan qeyrətli bir oğul idi. Onun dininə olan bağlılığını, sevgisini də öz gözlərimlə görmüşəm. Sultanı bir doğması – bibisi kimi də heç zaman unutmayacağam. Allah Vətən yolunda canından keçmiş bütün şəhidlərimizə rəhmət eləsin. Amin!

## Quliyeva Məhluqə Ramin qızı - Sultanın bibisi qızı

Sultan haqda çoxlu xatirələrim var. O, tanıdığı və tanımadığı ehtiyacı olan hər kəsə imkanı daxilində kömək göstərməyə çalışırdı. Gözəl, saf qəlbi vardı. Mənim qardaşım yoxdur. Sultanı həmişə özümə doğma qardaşım bilmişəm. Olduqca səmimi, qayğıkeş, mehriban bir insan idi. Ondan sarı çox darıxmışam. Kaş sağ olaydı. Bizimlə yenə əvvəlki kimi məlahətli səsi ilə söhbət edə, bizə qardaş məsləhətləri verəydi. Sultanın yoxluğu ilə barışmaq bizim üçün  çox çətindir.

## Quliyeva Nəzrin Ramin qızı - Sultanın bibisi qızı

Sultan haqda keçmiş zamanda xatirə yazmaq mənim üçün çox çətindir. Onun yoxluğu ilə hələ də barışa bilmirəm. Çünki Sultan mənim dayım oğlu olmaqla bərabər həm də qardaşım idi. Onun üçün, bizə qardaş kimi verdiyi məsləhətlərə və qayğıya görə o qədər darıxmışam ki... O bizimlə dini söhbətlər edər, bizi maarifləndirərdi. Deyərdi ki, Allah qarşısında həmişə düz olmağa çalışın. Qəlbində Allah sevgisi olanların insanlara sevgisi də böyük olar. O bizə namaz qılmağı tövsiyə edərdi. Deyərdi ki, namazı vaxtı-vaxtında qılmaq özü böyük savabdır.

Təəssüf ki, onun bütün həyatı, arzuları yarımçıq qaldı. Mənə təskinlik verən odur ki, Sultan millətimizin başına gətirilən müsibətlərin qisasını alaraq şəhid olub. Mən şəhid dayım oğlunu ömrüm boyu unutmayacağam.

Əziz qardaşım, Allah səni İmam Hüseynə qonaq etsin. Məkanın Cənnət olsun!

## Zeynalova Lalə Xanhüseyn qızı - Sultanın atasının dayısı qızı

Sultan balamız haqda o qədər şirin xatirələrim var ki! Onun yoxluğunda bu xatirələri danışmaq mənim üçün çox çətindir. Kaş o günlər yenidən geri qayıdaydı. Özü kimi Sultanın xasiyyəti də gözəl idi. Ağıllı, əxlaqlı, vicdanlı, qeyrətli balaydı Sultanımız. O həm də gülərüz, mehriban balaydı. Əhatəsində olan dostlarının da çoxu onun kimi idilər. Sultan hər gün idmanla məşğul olur, oğlum Hüseynlə məscidə gedir, ibadətindən qalmırdı. Oğlumla qardaş, sirdaş idilər.

Həyatda elə insanlar olur ki, nə iləsə başqalarından seçilirlər. Sultan balamız da seçilmişlərdən idi. Özünün mərdliyi, alicənablığı, gözəl davranışıyla...

Anasını hamıdan çox istəyirdi Sultan. İndi anasının üzünə baxa bilmirəm. Elə bilirəm ki, o baxışların arxasından Sultan baxır mənə. Ona görə onu çox danışdıra bilmirəm. Sultan kimi oğul təkcə evdən deyil, həm də eldən, nəsildən gedib - deyərdim. Qəhrəmanlığı, şəhidlik zirvəsinə ucalması ilə dillərdə dastana döndü həyalı, imanlı balamız.

Əsgər yoldaşlarının dediyinə  görə, Sultan döyüş meydanında qorxu bilmədən düşmənin üzərinə yeriyir, cəsarətlə döyüşürmüş. Deyirlər ki, o, vuruşmaqla bərabər, həm də yaralı döyüşçü yoldaşlarına kömək edirmiş.

Sultan Zəngilanın azad olunması uğrunda döyüşlərdə düşmənlə üzbəüz atışmada qəhrəmancasına şəhid olmuş, arzusunda olduğu şəhidlik zirvəsinə ucalmış; Cənnətə, ağ dünyaya, Haqqa qovuşmuşdur.

Allah cəmi şəhidlərimizə, həmçinin Sultan balamıza rəhmət eləsin! Şəhidlərimizin ruhları qarşısında baş əyirəm!



## Tağıyeva Nuray Elnur qızı - Sultanın atasının dayısı nəvəsi

Qardaşım Sultanla olan xatirələrimdən danışmaq mənim üçün çətindir. Həmişə nənəmgilə gedəndə Sultangilə də baş çəkərdik. Həmişə onu görmək üçün can atırdım. Bir gün yenə də Sultangilə getmişdik. Sultan kompüterdə snayper oyunları oynayırdı. Mən də yanında dayanıb həvəslə onun oyun oynamasına baxırdım. Çox həvəslə baxdığımı görüb: "Nurka, gəl sənə də öyrədim. Sən də oyna",- dedi. Razılaşdım. Oyunun qaydalarını mənə başa saldı. Sonra davamını öz öhdəmə buraxdı. Tezliklə kompüterdən istifadə etməklə oyunlar oynamağa alışdım. Sonralar hər dəfə onlara gedəndə kompüter oyunları oynayırdıq.

İllər keçdi. Sultan əsgər getdi. Kollecdə təhsil aldı. İşə düzəldi.

İşi ilə əlaqədar uzaq rayona getmişdi. Onu az-az görə bilirdim. Amma buna baxmayaraq, əlaqəmiz olurdu. Vaxt tapanda mənə zəng edirdi. Şirin söhbətlər edirdik. Mənə həmişə öyüd-nəsihət verir, yaxşını-pisi başa salırdı. Yaşı məndən çox böyük olmasına baxmayaraq, onunla yaxşı yola gedirdik. Böyük qardaşım kimi çox istəyirdim onu. Çox zaman dini söhbətlər edərdi. Mömin insan idi mənim qardaşım. Dediklərinə diqqətlə qulaq asıb qulağımda sırğa edirdim. Kaş yenə də sağ olub mənə nəsihətlər verəydi. Onun ölümünü hələ də qəbul edə bilmirəm. Elə bilirəm ki, sağdır. Çox güman ki, ömrümün sonuna kimi belə də davam edəcək. Əslində şəhidlər ölmürlər. Cisimləri torpağın altında olsa da, ruhları hər zaman bizim yanımızda olur. Mən də həmişə yanımda hiss

edirəm qardaşımı. Fəxr edirəm ki, Sultan kimi qardaşım olub. Onun kimi igid, cəsur, qorxmaz, mehriban, şirindil insan heç vaxt görməmişəm. İnşallah ki, gələcəkdə Cənnətdə qovuşarıq. Allah sənə rəhmət eləsin, Sultan qardaşım! Sən bizim qəlbimizdə daim yaşayacaqsan!

## Zayıdova Humay Həşim qızı – Sultanın bibisi qızı

Mən evin tək qızıyam. Sultanı özümə dayı oğlu yox, qardaş bilirdim. O da mənə kiçik bacısı kimi qayğı göstərirdi. Qardaş kimi mənə məsləhətlər verir, doğru yol göstərirdi. O, çox gülərüz və mehriban idi.

Yaxşı yadımdadır, doqquz yaşım olanda namaz qılmaq istəyirdim. Amma öyrənə bilmirdim. Sultan köməyimə çatdı. Onun köməyi ilə namazı öyrəndim.

2020-ci ilin oktyabrında şiddətli döyüşlər gedirdi. Həmin ayın səkkizində ad günüm olacaqdı. Hər iki qardaşım – Sultan və Aqil döyüşdə idilər. Buna görə də anam mənə ad günü keçirmək istəmirdi. İlhamə gəlinbacım bundan xəbər tutanda mənə tort alıb gətirdi. Sonra qardaşlarım Sultan və Aqil zəng edib məni təbrik etdilər. Özümü çox xoşbəxt hiss etdim.

Təəssüf ki, Sultan qardaşım bu gün həyatda deyil. O, şəhidlik zirvəsinə ucalıb.

Hal-hazırda oxuduğum sinif onun adını daşıyır. Mən qardaşımla fəxr edirəm!

Təsəllim budur ki, şəhidlərimizin qisası döyüş meydanında alınıb. Torpaqlarımız işğaldan azad olunub.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Müəllimləri Sultan haqda

## Manafova Sevinc İnqilab qızı - Azərbaycan dili və ədəbiyyat müəllimi

- Adın nədir, oğlum?
- Sultan İbraqimov.

Diqqətlə baxdığımı görüb soyadına düzəliş vermək istədi.

- İbraximov.

Yaxınlaşıb başına sığal çəkə-çəkə:

- İbrahimov, - dedim. Arıq, çəlimsiz, sarışın bir uşaq idi. Sultanla tanışlıqdan illər ötsə də, mən onunla ilk görüşü sanki bu gün olubmuş kimi xatırlayıram.

Sultan ibtidai sinifləri Azərbaycandan uzaqlarda - Rusiyada oxumuşdu. 7-ci sinfə keçəndə bizim məktəbə - Salyan rayon 1 saylı humanitar təmayüllü məktəb-liseyin rus bölməsinə gəldi. Mənim oğlum da bu sinifdə – 7 A sinfində oxuyurdu. Bu səbəbdən mən siniflə daim ünsiyyətdə idim. Sinfin bütün şagirdlərini tanıyırdım. Sultanı isə bütün xarakteri ilə. Çünki oğlum Vüsalla dostlaşmışdı.

Mən onların daimi müəllimi deyildim. Bir müddət o sinifdə başqa bir müəllimi əvəz etmişdim. Sonradan isə Sultan mənim yanıma məşğələyə gəldi. Bu gülərüz, mehriban, istiqanlı uşağı daha dərindən tanıdım. Tanıdıqca da öz övladım qədər sevib-əzizlədim onu. Çünki o, çox saf, təmiz, ağıllı, imanlı bir uşaq idi.

Məqsədi 9-cu sinfi bitirib sevdiyi peşə üzrə

sənəd vermək idi. O sevdiyi peşəyə sahib oldu da. Əsgərlikdən sonra Sərhəd Qoşunları Xidmətinin giziri kimi fəaliyyətə başladı. Sultan İdman Federasiyasının üzvü idi.

O, oğlum Vüsalla təkcə sinif yoldaşı deyil, həm də möhkəm dost idi. Sultan çox sakit təbiətli, Vüsal isə şıltaq, emosional bir uşaq idi. Bir dəfə Sultandan soruşdum:

- Oğlum, Vüsalla sən əks xarakterə malik uşaqlarsız. Necə dostluq edirsiz?

- Müəllim, siz narahat olmayın. Biz bir-birimizi gözəl başa düşürük və çox istəyirik. Ona görə də dostuq,- bunu deyəndə üzünü həmişəki kimi məsum təbəssüm işıqlandırdı.

Hər dəfə Sultandan söz düşəndə Vüsal deyirdi: "Sultanın anası İlhamə xala çox zəhmətkeş, mehriban qadındır. O öz övladlarını böyük zəhmətlə böyüdür. Mehriban ailələri var". İlhamə xanımla tanış olduqdan sonra özüm də bunun şahidi oldum. İlhamə Sultandan o qədər məhəbbətlə, fəxrlə, qürurla danışırdı ki, qulaq asdıqca həzz alırdım. Deyirdi, müəllim, o məni heç vaxt incitməyib, qırmayıb. Sultanın əynində hərbi formanı görəndə ürəyim dağa dönür, qürur duyuram.

Mən Sultanla hər dəfə rastlaşanda çox mehribancasına görüşərdik. Öpərdim onu. O mənim gözlərimdə hələ də balaca, sısqa, utancaq məktəbli idi. Sonuncu dəfə onu babasıgilin küçəsində gördüm. Üzündə yenə də məsum, səmimi təbəssüm yarandı. Hərbi formada idi. Görüşdük, əlimi çiyninə vurub: "Maşallah, forma sənə çox yaraşır", - dedim. Qürurlandı. Təşəkkür etdi.

Hal-əhval tutduqdan sonra sağollaşıb ayrıldıq. Bilsəydim ki, bu, Sultanla sonuncu görüşümdür, onu möhkəm-möhkəm qucaqlayar, heç vaxt buraxmazdım. Təəssüf!

Mən Sultan haqda keçmiş zamana aid xatirələr yazmaq yox, əziz şagirdimə onun gözəl günlərində xoş sözlər söyləmək, xoşbəxtlik arzulamaq istərdim, bir müəllimi kimi, anası kimi. Amma qismət...

Müharibə vaxtı böyük nigaranlıq hissi övladları hərbi xidmətdə olan valideynlərə - bizə daha çox siraət edirdi. Çünki canımızın bir parçasını odun-alovun içinə göndərmişdik. Göndərmişdik ki, on illər işğal altında qalmış torpaqlarımızdan mənfur düşməni birdəfəlik qovsunlar. Və bu yolda hər şey ola bilərdi.

Səfərbərliklə gedənlər sırasında könüllülər, könüllülərin sırasında Sultan da var idi. Döyüşlərdə daim öndə, qəhrəmancasına vuruşduğunu oğlum dedi mənə. O, Füzuli rayonunda olarkən telefon danışığı zamanı Sultan barədə mənə məlumat verdi. Vüsal Salyandan olan yoldaşlarından məlumat almışdı.

Müharibənin başladığından bir müddət keçmişdi. Sultanın anası İlhamə xanımla görüşüb söhbət etdik. Bir-birimizə təskinlik verdik. Dedi, Sultan özü məlumat verməsə də, öyrənmişik ki, Zəngilana qədər döyüşə-döyüşə gedib. Bütün uşaqlara - vətənpərvər, mərd, igid balalara dualar etdik. Heç ağlıma da gəlməzdi ki, cəmi bir neçə gün sonra mən Sultanın şəhidlik zirvəsinə ucaldığını eşidəcəm. Bu xəbəri eşidəndə isə keçirdiyim

hissləri heç vaxt ifadə edə bilmərəm.

Bu xəbəri alanda rayonda deyildim. Çox tələsik qayıtdım, amma Sultanın dəfninə çata bilmədim. Bəlkə də, Allah bu dəhşətli mənzərəni görməyi rəva bilmədi mənə. Nə bilim!

Mən çatanda küçədəki izdiham yenicə tərk etmişdi oranı. Deyirlər ki, görünməmiş izdiham imiş. Salyanın Şəhidlər Xiyabanının yolunda ağır bir sükut qalmışdı o izdihamdan. Qəhrəman, vətənpərvər, şəhid Sultanımızın yaşadığı məkan acı bir tarix yaşamışdı.

Mənim mehriban, imanlı, həyalı, idmançı, vətənpərvər, əvəzsiz Sultan balam, sən həmişə bizimləsən! Yaddaşımızda, ruhumuzda, qəlbimizdə əbədi yaşayacaqsan!

Tamamlanmamış daha bir hekayə, nakam bir ömür, yarımçıq qalmış arzular!

Məkanınız Cənnət olsun, əziz Şəhidlərim! Məkanın Cənnətdir, əvəzsiz Sultan balam!

## Nağıyev Sahib Mehdi oğlu - Salyan şəhər Aşıq Pənah adına 1 saylı təmayüllü liseyin direktoru

İbrahimov Sultan Mikayıl oğlu haqda keçmiş zamanda yazmaq mənim üçün çox çətindir. Müharibənin qızğın vaxtında Sultanın şəhid olduğunu eşitdiyim anı heç unuda bilmirəm.

Gözlərimin qarşısında Sultanın məktəbimizə ilk gəlişi, onun yaşına uyğun olmayan ciddiyyəti, hamıya qarşı tərbiyəli davranışı canlanır. Onun çöhrəsində gördüyüm nuraniliyin əsl səbəbi mənə indi çatır. Sən demə, hamının diqqətini çəkən bu nuranilik onun gələcəyinin - şəhid olacağının nişanəsi imiş.

Məkanın Cənnət olsun, əziz şagirdimiz, qürur mənbəyimiz olan Sultanımız!

## Rzayeva Mirzeynəb Mirsəmid qızı - məktəbin təşkilati işlər üzrə direktor müavini

Əziz Sultan! Sənin haqqında nə isə deməyə ehtiyac varmı? Artıq adın dillərdə gəzir, əfsanəyə çevrilmisən! Uşaq vaxtı Salyan şəhər Aşıq Pənah adına 1 saylı məktəb-liseyin rus dili bölməsində təhsil alırdın. Yaxşı qiymətlərlə oxuyan, nümunəvi davranışı ilə hamıdan seçilən şagird idin! İndi isə Allahın seçilmişlərindən oldun!

Biz səninlə fəxr edirik. Çünki sən bizim həqiqi Sultanımız oldun!

## Babayeva Vəfa İbad qızı - biologiya müəllimi

Deyirlər, həyat insana bir dəfə verilir. Onu elə yaşamalısan ki, illər ötəndən sonra bir gün dönüb arxaya baxanda mənasız keçən günlər üçün heyifsilənməyəsən.

Əziz şagirdimiz, məzunumuz, şəhidimiz Sultan özünün qısa ömür yolunda elə bir iz qoydu ki, adı əbədi olaraq yaddaşlara həkk olundu. O, ömrünün ən şirin çağında şəhidlik zirvəsinə ucaldı. İgid məzunumuzun şəhidlik xəbəri qəlbimizi dağladı, amma onu əbədiyaşar etdi. Mənalı həyat yolu məhz budur. Doğma Vətənimizin ayrılmaz hissəsi olan Qarabağ torpaqları uğrunda qanı, canı hesabına yeni tarix yazanlardan biri oldu Sultanımız. İndi ona və məktəbimizin digər şəhidlərinə həsr olunmuş xatirə stendinin önündə hər gün ayaq saxlayıb: "Allah sizə rəhmət eləsin!"- deyir, ruhlarını dualarımızla yad edirik.

Gülərüzlüyü, xoş rəftarı, gözəl əxlaqı ilə daim fərqlənirdi şəhid Sultanımız. O, Vətənini canından da artıq sevirdi. Qarabağ uğrunda döyüşlərə əsl vətənpərvər kimi yollandı. Qorxmaz, cəsur əsgər kimi döyüşdü. O, təkcə şəhid kimi deyil, əsl qəhrəman kimi qarşılandı. Doğulduğu şəhərin - Salyanın fəxri oldu.

Əziz Sultan, sən şəhid olsan da, nəsillərin xatirəsində əbədi yaşayacaqsan! Gələcək nəsillər sənin adınla daim fəxr edəcəklər. İnsanlığın ən müqəddəs duyğularından biri Vətəni özününkü olduğu üçün sevmək, qoynunda boya-başa çatdığın torpağın müqəddəsliyini hiss edərək onun

yolunda canından keçməyə hazır olmaqdır. Sən Azərbaycan xalqının taleyinə yazılmış qəhrəmanlıq salnaməsinə öz adını həkk etdin, müqəddəs amal uğrunda şəhid olmaqla bütün gənc nəslə nümunə oldun. Mən də müəllimin kimi sənin adınla fəxr edirəm, əziz Sultan!

## Manafov Müşfiq Hamən oğlu - Sultanın sinif rəhbəri

Heç ağlıma da gəlməzdi ki, bir vaxtlar dərs dediyim, şagirdlərim Qarabağ uğrunda döyüşlərdə şəhid olacaq, mən onların əziz xatirəsinə həsr olunmuş stendin qarşısında dayanıb fikirlərə qərq olacam, onları kədərlə xatırlayacağam.

Qəhrəmanlığın ən uca zirvəsi torpaq, Vətən uğrunda vuruşmaq, şəhid olaraq əbədiyyətə qovuşmaqdır. Sultan da öz qəhrəmanlığı ilə, şəhidlik zirvəsinə qalxması ilə əbədiyyətə qovuşdu, ürəklərdə yurd saldı. Sultan məhz belə oğullarımızdan biri idi. O, son dərəcə təmkinli, ciddi, təvazökar bir şagird, yaxşı idmançı və vətənpərvər gənc idi. Hər dəfə müəllimləri ilə, hətta dostları ilə də söhbət edərkən öz utancaqlığı, həyası ilə seçilirdi. Üzündən nur və təbəssüm əskik olmazdı.

Mən Sultanla həmişə fəxr edirəm. Onun haqqında keçmiş zamanda danışmaq mənə çox çətindir. Biz Sultanı və onun kimi igidlərimizi heç vaxt yaddan çıxarmayacağıq.

## Məmmədova Günel Nəriman qızı - rus dili və ədəbiyyatı müəllimi

Şəhidlər şərəf, qeyrət, ucalıq rəmzləridirlər! Şəhidlər azadlığın carçıları, - qalibiyyət zirvələridirlər!

Keçirdiyimiz hər gün keçmişə qovuşur. Amma keçən günlərin hamısı yaddaqalan olmur. Elə günlər var ki, unudulub gedir. Elə günlər də var ki, onlar heç vaxt unudulmur, yaddan çıxmır, tarixin yaddaşına qızıl hərflərlə yazılır. Elə insanlar da belədirlər. İnsan var ki, dünyasını dəyişəndən az sonra unudulur, insan da var ki, ürəklərdə, xatirələrdə yaşayır - tərbiyəsi, əxlaqı, mədəniyyəti, mənəviyyatı ilə. Belə insanlardan biri də sevimli şagirdimiz Sultandır. Mənə görə, Sultan haqda keçmiş zamanda danışmaq çox çətindir. Bir də axı o, şəhiddir. Şəhidlər isə ölmürlər. Əbədi həyata qovuşurlar. Odur ki, mən onu xəyalımda canlandırıb özüylə həmsöhbət olacam.

Əziz Sultanımız, sən gözəl davranışınla, əxlaqınla, mədəniyyətinlə ürəklərimizə, qəlblərimizə köçdün. Tanıdığımız ilk günlərdən sevimli şagirdimizə çevrildin. Sən böyüdükcə sənə olan sevgimiz də böyüdü, sən şəhidlik zirvəsinə ucalınca bu sevgi də ümmana döndü.

Sultanımız! Sənə və minlərlə sənin kimi igidlərimizə azadlığımızı, səmadakı parlaq günəşimizi, zəfər bayramımızı borcluyuq. Bu borcu heç vaxt, heç bir şərtlə ödəyə bilmərik! Sən təkcə bizim yox, bütün Azərbaycanımızın Sultanı oldun! Biz fəxr edirik ki, sənin müəllimlərin olmuşuq!

## İbadova Töhvənisə Ağayusif qızı - Azərbaycan dili və ədəbiyyatı müəllimi

Vətən uğrunda şəhid olan sevimli şagirdim Sultan haqda danışmaq mənim üçün çox çətindir. Sultanı məktəbimizə gəldiyi ilk günlərdən tanıyırdım. Anası İlhamə xanımla tanışlığımız olduğuna görə Rusiyadan qayıdıb gələndə də onu məktəbə ilk olaraq mənim yanıma gətirdi. Yaşları fərqli olsa da, Sultan və qardaşı Aqil eyni sinifdə oxumağa başladılar. Məktəbi bitirənə qədər mən onlara Azərbaycan dilindən dərs dedim. Sultan xasiyyətcə başqalarından çox fərqli idi; sakit təbiətli, gülərüz, mehriban, ağıllı, tərbiyəli,nəzakətli bir şagird, ümumiyyətlə, yaxşı bir oğul idi. O, məktəbi bitirdikdən sonra da müəllimlərini unutmurdu. Məktəbə gəlir və mütləq mənə baş çəkirdi.

Bu gün mən Sultanın haqqında keçmiş zamanda danışmaq istəmirəm. Amma neyləmək olar. İstər-istəməz reallıqla barışmağa məcburam. Sultan və Vətən uğrunda canını fəda edənlər bizim qəlbimizdə daim yaşayacaqlar. Biz ömrümüzün sonuna qədər şəhidlərimizə borcluyuq. Hərə bu borcu bir cür yerinə yetirir.

Mən bir müəllim olaraq hər gün dərslərimdə şəhidlərimizi yad edir, onların şücaətindən danışıram. Sultan xasiyyətcə həlim olsa da, öz cəsarətini şəhidlik zirvəsinə ucalaraq göstərdi.

Son olaraq sevimli şagirdimə demək istəyirəm ki, əziz Sultan, mən sənin kimi şagirdim olduğuna görə fəxr edirəm. Sən mənim qəlbimdə əbədi yaşayacaqsan! Şəhidlər ölməz, Vətən bölünməz!

# Sultanın mülki həyat dövründəki dostlarının və İbrahimovlar ailəsinin digər dostlarının onun haqqında xatirələri

## Kərimova Madər Zakir qızı - İbrahimovlar ailəsinin dostu

Sultan bizim üçün sadəcə Soli idi. Çünki balaca olanda biz onu belə çağırırdıq. Hamı onun ən çox gəncliyindən bəhs etsə də, mənim yadımda onun uşaqlığı daha çox qalıb.

Biz ailəvi dost olmuşuq. Mikayılgil bizə gələr, biz onlara qonaq gedərdik. Balaca Solinin hərəkətləri, davranışı gözlərimin qabağından getmir. Məsum baxışlı, sakit təbiətli Solinin öz dünyası var idi. Öz aləminə çəkilər, öz-özünə oynayardı. Adətən iki oğlan uşağı bir yerdə olanda dalaşar, yola getməzlər. Ancaq bu uşağın öz balaca qardaşı ilə pis davranmasının bir dəfə də şahidi olmadım. O məsumluq, o sakitlik Sultanın sonrakı həyatının təməli idi. Böyüyüb boya-başa çatmış Sultandan hamı razılıq edirdi.

Allah adamı, dinin yolunu tutan, haqqı nahaqqa verməyən, halalı haramdan ayıran, məhrəmliyi naməhrəmliyi gözləyən, nahaq söz danışmağın əleyhinə çıxan, yaxşılığı dilə gətirməyi haram hesab edən, hamını, hətta anasını da namaza dəvət edən, Vətəni canından artıq sevən gözəl bir bala olub mənim Solim!

Anası onun haqqında danışmaqdan yorulmur.

Deyir, mənim balamın bədəni dəmir kimi idi. Ona güllə bata bilməzdi. Düşmən gülləsi ancaq onun ürəyini dəlib keçə bilərdi. Çünki onun yeganə yumşaq yeri ürəyi idi.

İdmançı bala, özünü Vətənin müdafiəsi üçün hazırlayan bala! Belə qeyrət, belə ürək hər adamda olmur!

Mən bilməzdim... Bilməzdim ki, qucağımda böyüyən, o balaca Soli məni müdafiə edəcək, mənim qəhrəmanıma çevriləcək. Qarabağ torpaqlarının azad olunması uğrunda vuruşub şəhid olacaq!

Canım Sultanım, Allah səni qəni-qəni rəhmət eləsin! Məqamın uca, məkanın Cənnətdir, inşallah!

Allah anan İlhamə xanıma, atan Mikayıl qardaşa çoxlu-çoxlu səbir versin. Unutmasınlar ki, onların şəhid balası bizim hər birimizin şəhid balamızdır - doğma Salyanımızın, Azərbaycanımızın şəhid balasıdır!

## Pənahova Sevinc Kamil qızı - ailə dostu

Əziz Sultanım, Allah sənə rəhmət eləsin. Məkanın Cənnət olsun, mənim əziz balam! Səninçün çox darıxırıq. Balaca olanda sənin Ülviyyə ilə, Aydanla oynadığın günlər yadıma düşür. Kaş o günlər bir də geri dönəydi. Elə tez böyüdünüz ki! İndi mənə çox ağırdır; bu gün sənin məzarını ziyarətə gəlmişəm. Kaş toyuna gələydim, əziz oğlum!

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Məkanınız Cənnət, ruhunuz şad olsun!

Yatdığınız torpağa qurban olum!

## Həsənova Sevinc Fərman qızı - Salyan rayonunun Çuxanlı kəndindən İbrahimovlar ailəsinin ailəvi dostu

Bu ailə ilə tanış olmağımla fəxr edirəm. Elə bir vətənpərvər ailədir ki, Vətəni qorumaq üçün heç bir əziyyətdən imtina etməzlər. Necə ki, övladları Sultan. Mən İlhamə xanımla tanış olanda Sultan və qardaşı əsgərlikdə idilər. Uşaqları soruşanda heç vaxt deməzdi ki, uşaqlar əziyyət çəkirlər. İlhamə xanım həmişə sevə-sevə onların əsgərlik çəkmələrindən danışardı. Onların dəfələrlə hərbi hissə komandiri tərəfindən aldıqları Fəxri Fərmanlar, valideynlərinə göndərilmiş təşəkkür məktubları bizi çox sevindirirdi. İlhamə xanım həmişə mənimlə bəzi məsələlərdə məsləhətləşirdi. O və Mikayıl qardaş övladlarını qorxmaz, igid və tərbiyəli böyütmüşdülər.

Nəhayət ki, Sultan DSX-nə qəbul olundu. Sevincimizin həddi-hüdudu olmadı. Sultan həmişə deyirdi ki, işğal altında olan torpaqlarımızın azad olunmasında mən də iştirak edəcəyəm. Bu torpaqlar yalnız qan bahasına alına bilər. Biz mütləq vuruşmalıyıq. Həsrət qaldığımız torpaqlarda öz xalqımız yaşamalıdır. Xəritəmizdən bu qara ləkə götürülməlidir. O zaman xoşbəxt olaram ki, torpaqlarımızın azad olunmasında mənim də əməyim olsun.

Bütün xalqımızın düşmənə olan qəzəb və nifrəti aşıb-daşırdı. On illərlə uzanan mənasız danışıqlar artıq xalqı bezdirmişdi. Hər kəs Ali Baş Komandandan hücum əmri gözləyirdi. Xalq silaha

sarılmaq əzmindəydi. İkinci Qarabağ müharibəsi başlayanda ailələr öz övladlarını müharibəyə musiqi sədaları altında göndərirdilər. Bu, qəlbimizi qürur hissi ilə doldururdu.

Sultanın könüllü olaraq müharibəyə gedənlər sırasına yazılmasından İlhamə xanım fəxrlə danışırdı. O, müharibənin qızğın çağında da oğlanları haqda nigaranlığını büruzə vermirdi. Ancaq deyirdi ki, ordumuz bu müharibəni qalibiyyətlə başa vuracaq. Neyləmək olar, müharibələr itkisiz-ölümsüz olmur. Şair demişkən:

***Beşikdə insan böyüyür***
***Məzarda yatmaq üçün.***
***Qəhrəmanlar can verir***
***Yurdu yaşatmaq üçün.***

Mən qəhrəman Sultanımızın ailəsinə üz tutub deyirəm: ″Başınız həmişə uca olsun! Sağ olun ki, Vətən üçün belə mərd, igid, cəsarətli oğul böyütdünüz “. Cəmi 44 gün çəkən İkinci Qarabağ müharibəsində yoldaşları arasında böyük hörmət qazanan Sultanımız, sən qəlbimizdə daim yaşayacaqsan, ruhun şad olsun! Torpaqlarımız işğaldan azad oldu!

## Əzizov Hacı Mirzağa Məmmədağa oğlu - Sultanın Quran müəllimi

Allahın adı ilə!

“Şəhid” sözü ərəb dilindən dilimizə çevirəndə “hazır olmaq”, “şahid olmaq”, şahidlik etmək” mənalarını ifadə edir. Vətən uğrunda gedən döyüşlərdə, müsəlmanların ümumi mənafeyi uğrunda canını fəda edən insanlar, Allah yolunda şəhid olan insanlar kimi qəbul edilir. Həqiqətdə şəhidlər hazırdırlar, ölməyiblər, yaşayırlar, insanların əməllərinə şahidlik edirlər. Lazım olduğu təqdirdə axirətdə insanların əməlləri ilə bağlı şahidlik edəcəklər.

Allahın adlarından biri də Şəhiddir.

Şəhidlik məktəbini yaşatmaq və şəhidlik ruhiyyəsini qorumaq bu milləti diri saxlayan amillərdən biridir. Allah cəmi şəhidlərimizə rəhmət eləsin. Bu şəhidlərimizdən biri də Sultan İbrahimovdur. Onun qısa həyatı yetişməkdə olan gənc nəsil üçün əsl nümunədir. Sultan öz əxlaqı ilə insanları özünə cəlb edirdi. Eyni zamanda onun nurani, təbəssümlü simasını görəndə insan aram olurdu. Bu səxavətli gənc çətinlikdə olan insan görəndə imkanı daxilində darda qoymaz, köməyini əsirgəməz, başqalarını da bu savab işə sövq edərdi.

Sultan dilində həmişə bu sözləri zikr edirdi: “Güc və qüvvət Allahdandır. Hökm Allaha məxsusdur”. Bu sözlər həmişə ona güc və qüvvət verirdi. Deyirdi: “Allah tərəfindən gəlmişik, onun tərəfinə qayıdacağıq”. Bu onun axirəti yadına

salması, dünyanın müvəqqəti olmasını dərindən dərk etməsi ilə bağlı idi. Sultan sözün əsl mənasında Quran və Əhli-beyt aşiqi idi. Qurana qulaq asmağı çox sevərdi. Şəhadət təqva libasında pəhrizkarlıqdır. İnsanlar pis xislətlərdən uzaq olduqda pəhrizkar olurlar, amma şəhid şəhadətə çatanda ən gözəl pəhrizkarlıq libasını geyinir. Sultanın Allaha, Qurana, Əhli-beytə olan məhəbbəti onda şəhadət şövqü yaratmışdı.

Döyüş yoldaşları danışırlar ki, 44 günlük müharibə zamanı bir dəfə Sultangilin suyu və qidaları tükənir. Yaralı yoldaşları susuzluqdan əziyyət çəkirlər. Su düşmənin nəzarəti altında olan ərazidə olduğu üçün ora getmək ölümlə üz-üzə qalmaq demək idi. Sultan avtomat silahını və su qabını götürüb həyatını təhlükəyə ataraq dağ çayına enir, yoldaşlarına su gətirir. Bu, əsl qeyrət və şücaət nümunəsi di.

Biz şəhid Sultanın atası Mikayıl kişiyə dərin hüznlə başsağlığı verir, şəhidimizə Uca Yaradandan rəhmət diləyirik!

## Muhamməd Xalid Nizami oğlu - Sultanın dostu

Allahın adı ilə

Mən Sultanı "Beytül-Əli" (Salyan şəhərində) məscidinə gəlməzdən əvvəl də az-çox tanıyırdım. Məsciddə xidmətə başlayandan sonra daha yaxından tanıdım və onun necə bir əxlaqa, imana sahib olduğunun şahidi oldum. Heç yadımdan çıxmaz, bir gün mən məsciddə namaz qılarkən Sultan da məsciddə idi. Namazı bitirdikdən sonra o məni yanına çağırıb dedi: "Gördüm ki, namazını yanlış qıldın. Namazını təzələyərsən". Sonralar anladım ki, Sultan xeyirxah, insanların xeyrinə çalışan bir insandır. Bu haqda Həzrəti-Muhəmməddən (s) oxuduğum hədisdə buyurur: "Allah dərgahında - qiyamətdə məqam və mənzilət baxımından insanların ən əzəmətlisi Allahın bəndələrinə nəsihət etmək üçün Yer üzərində daha çox gəzənləridir".

Sultan həmişə məscidə məndən əvvəl gələr, orada Kərbəlayi Vüsal ilə məscidin işləri ilə məşğul olardı. Ehsan süfrələrinin açılmasında, təmizlik işlərində həmişə fəallıq göstərərdi. Bu da onun sadə, təqvalı bir insan olmasına dəlalət edirdi. Bu barədə Həzrəti-Əli (ə) belə buyurur: "Təqvalı şəxs hər bir xeyir işdə qabaqcıl olar".

Sultan işə düzəldikdən sonra onu az-az görürdüm. İkinci Qarabağ müharibəsinin başladığı ilk günlərdə mən Sultanın müharibədə olduğunu bilmirdim. Sonra onun könüllü olaraq müharibəyə getdiyini öyrəndim. İmkan düşdükdə Sultanın yaxın dostlarından olan Hacı Mehmanın telefonu vasitəsi ilə Sultanla görüntülü danışır, hal-əhval tuturduq. Bir müddət sonra onun yaxın dostlarından olan Seyid Mahmud ilə oturub söhbət edir-

dik. Bu zaman Hacı Mehman Seyid Mahmuda zəng vurub, ağlaya-ağlaya Sultanın şəhid olması xəbərini bildirdi. Bu zaman Kərbəlayi Vüsal da yanımıza gəldi. Sarsıdıcı xəbərdən heç birimiz göz yaşlarımıza sahib ola bilmədik...

Biz dostlarla görüşüb Sultangilin evlərinə tərəf getdik. Orada bizi Sultanın yaxın dostlarından olan Ümid qarşıladı. O da bu müdhiş xəbərin doğru olduğunu təsdiq etdi. Bir azdan bizə xəbər gəldi ki, Sultanın cənazəsini Salyan Mərkəzi Xəstəxanasına gətirirlər.

Sultanın tabutu qarşısında bütün dostları yığışıb göz yaşı tökürdük. Bu bizim üçün çox ağır itki idi.

Ertəsi gün Sultanı son mənzilə yola saldıq. Dəfn bitdikdən, adamlar dağılışdıqdan sonra dostlarla onun məzarının ətrafına toplaşdıq. Seyid Qismət mərsiyə dedi və biz doyunca ağladıq...

Şəhidlik haqda "Qurani-Kərim"in bir ayəsində belə buyurulmuşdur: "Heç vaxt güman etmə ki, Allah yolunda qətlə yetirilənlər ölülərdir. Əksinə, onlar Rəbbin yanında ruzi verilmiş dirilərdir".

Belə bir hədis də var; deyirlər, Peyğəmbər bir şəxsin belə dua etdiyini eşitdi: "Pərvərdigara! Səndən istəniləsi ən yaxşı şeyi mənə əta et!" Həzrət buyurdu: "Əgər bu dua qəbul olunsa, o, Allah yolunda şəhid olar".

Bütün bu deyilənlərə rəğmən ümid edirəm ki, şəhid Sultan qardaşımız əbədi diriliyə varid olmuşdur. Allah ona rəhmət eləsin!

## Abasov Rövşən Abasağa oğlu - məşqçi müəllim

“Döyüş xalqımızın alın yazısıdır”,- deyimi artıq çoxdan aforizmə çevrilib. Tale elə gətirib ki, döyüşə gedən və bu döyüşlərdə əbədilik qazanan oğulların bir qismi sanki uşaqlıqdan bu ağır, çətin yolun yolçusu olacaqlarını qeyri-adi hissiyyatla duyur, şəhidlik zirvəsinə xüsusi olaraq hazırlaşırlar.

Haqqında bəhs etdiyim şəhid Sultan İbrahimovla ilk tanışlığımda onun hələ uşaq olduğunu xatırlayıram. Elə ilk vaxtlardan öz hərəkərləri, tərbiyəsi, səmimiyyəti ilə yaşıdlarından fərqlənirdi. Bir müddət çalışdıqdan sonra xeyli təcrübə əldə etmişdi. Hətta idman zalına yeni gələn uşaqlara öyrənməkdə köməklik göstərir, böyük-kiçik yanında özünə hörmət qazanırdı. Məşqlərə ciddi davam etdiyi üçün gücü, qüvvəti ilə də yaşıdlarından seçilirdi. Öz üzərində çalışıb çətin idman hərəkətlərinin öhdəsindən tez bir zamanda asanlıqla gəlirdi. Turnikdə ayrı-ayrılıqda tək əli ilə çox rahat dartınırdı. Öz çəkisindən iki dəfə artıq çəki qaldırırdı. Respublika yarışlarında iştirak etmək ən böyük arzusu idi. Bunun üçün səylə çalışırdı. Fiziki cəhətdən tam formada idi. Lakin həmin ərəfədə pandemiya dövrü başlandığından yarışlar təxirə salındı.

Onun idmana olan həvəsi bir məşqçi kimi məni qane edirdi. İnanırdım ki, o, tezliklə respublika səviyyəli yarışlara qatılacaq və öz bacarığını sübut edəcək. Onun qədirbilənliyi şəxsi keyfiyyətləri sırasında daha qabarıq seçilirdi. Əldə etdiyi

uğurlara görə bir məşqçi kimi mənə minnətdarlıq etməsi həmişə diqqətimi cəlb edirdi. Halbuki mən də bilirdim ki, o bunlara təkcə nəzəri qaydalara əməl etdiyinə görə deyil, həmçinin ciddi çalışdığı üçün nail olur. Bu məsuliyyət hissi onu tərk etmirdi. Sonradan başqa rayonda işə düzələndə də mənimlə tez-tez əlaqə saxlayır, məşqlərə davam etdiyini söyləyirdi. Bir sözlə, o, idman zalından uzaqlaşmırdı.

Mən özüm də hiss etmədən əsl döyüşçü yetişdirdiyimi müharibənin gedişində anladım. Müharibədə insan düşmənlə mübarizədə bütün gücü ilə - istər mənəvi baxımdan, istərsə də fiziki qüvvə sarıdan sınağa çəkilir. Sultan İbrahimov qəhrəmanlığı, ucalığı, şəhidlik zirvəsi ilə əbədilik qazandı. Mən ona sultanların Sultanı deyirdim. Sultan xatirəmdə, həqiqətən, sultanlığa layiq igid, qəhrəman, unudulmaz idmançım olaraq qalacaq. Ruhu qarşısında baş əyirəm!

## Rzayeva Pərvanə Oqtay qızı - Sultanın anasının rəfiqəsi

Salam, nur üzlü şəhidim Sultan! Mən səni əxlaqlı, ədalətli, mərhəmətli bir oğul kimi tanıdım və sevdim. Səni yaxından tanıdığıma görə çox şanslıyam. Sən dindar, ağır təbiətli bir gənc idin. Başını qaldırıb gözünün ucuyla belə bir qıza, gəlinə baxmaz, böyüyün-kiçiyin yerini bilərdin. Sənin şəhid olmaq xəbərin məni mənəvi cəhətdən sarsıtdı. Sənin yoxluğunu heç cürə qəbul edə bilmədim.

Bacımın sözləri indi də qulaqlarımdadır. O mənə dedi: "Şəhidlik elə bir uca zirvədir ki, hər oğul o zirvəyə ucala bilməz. Onlar Rəhman və Rəhim olan Allah tərəfindən seçilmişlərdir".

Bəli. Şəhidlər, o cümlədən Sultan balamız Cənnətdə İmam Hüseynin qonaqlarıdır. Allah bütün şəhidlərimizin məqamını uca etsin! Sultanın və onun timsalında bütün şəhidlərimizin gözüyaşlı əzizlərinə Allahdan səbir diləyirəm.

Əziz Sultan, yenə hüzuruna gəlmişəm. Sənə çoxlu suallarım var. Amma sən suallarıma cavab verə bilmirsən. Deyəcəyi sözləri gözlərində donanım. Məni məndən edənim. Dünyadan nakam gedənim!

## Əliyev Məhəmməd Elçin oğlu - Sultanın dostu

Deyirlər ki, şəhidlər şəhidliyə qədərki ömürlərini də bu ada layiq yaşayır, ilahi rəngə boyanırlar. Başqa sözlə, Quranın bizə buyurduğu kimi kamil insan olmağa çalışırlar. Mən bu fikirlə Sultan qardaşım şəhid olandan sonra tanış olmuşam. Sultan da belə idi. O hər zaman şəhid adına layiq yaşadı. Xatırlayıram ki, Məhərrəmlik məclislərində Sultan idman zalından yorğun gələrdi. Buna baxmayaraq, məsciddə layiqincə xidmət edirdi. Namaz qılarkən Allahla möhkəm rabitəsini kənardan hiss etmək olurdu. Çox aram şəkildə namaz qılardı.

Sultanı həmişə gülərüz görərdik. Həmişə insanlara kömək etməyə çalışardı. Onun Əhli-beytə olan bağlılığına həmişə heyran qalmışam. Keçənlərdə bir söz oxudum. Şəhadətin sirri göz yaşlarındaymış. Əhli-beytin qəminə görə axıtdığı göz yaşları Sultanın şəhadətə gedən yolunun çırağı oldu.

Onunla söhbət edərkən çox rahatlıq tapırdım. Bir dəfə məscidin yanından keçərkən Sultanla rastlaşdım. Bir az dalğın və narahat idim. Oturub xeyli söhbət etdik. Ayrılanda özümü xeyli rahat hiss etdim.

Sultan şəhadətə qovuşduqdan sonra mən uzun müddət özümə gələ bilmədim. Sultanın yoxluğu çox böyük, əvəzsiz itki idi. Çünki ondan, həqiqətən, iman qoxusu, iman ətri gəlirdi. Çünki o, Allahın dostlarından idi. Nurani çöhrəsi

heç vaxt yadımdan çıxmayacaq. Şükürlər olsun ki, mən onu tanıdım. O mənim ilk şəhid dostum oldu...

Onun məzarı ilə söhbət etmək mənim üçün çox çətindir.

Balaca boylu, böyük ürəkli dostum üçün çox darıxıram. Doğrudur, həyat davam edir. Bundan sonra nə qədər xoş günlərimiz, çətinliklərimiz də olacaq. Təəssüf ki, Sultan yanımızda olmayacaq. Amma əminəm ki, onun müqəddəs ruhu həmişə başımız üstündən bizə baxıb gülümsəyəcək, dua edəcək. Elə həyatda olduğu kimi!...

## Abaslı Mahmud Məmmədqulu oğlu - Sultanın dostu

Mən Sultanı məsciddən tanımışam. O, məscidə gələn uşaqlardan imanı, səmimiyyəti ilə fərqlənirdi. Onun namaz qılmasına baxıb qibtə edirdim. Çünki namazı aramla, sanki Allahı görürmüş kimi qılırdı. Bir dəfə məsciddən çıxıb birlikdə evə gedəndə əlimdə təsbeh fırladırdım. Məndən soruşdu ki, nə zikr edirsən? Dedim, heç nə, elə belə fırladıram. Dedi, eh mən də elə bildim, nəsə zikr edirsən. Ömürdən gedir eee! Boş-boş fırlatma, nə isə zikr et. Peyğəmbər (s) buyurardı: "Ən yaxşı qardaşımız Allaha itaət yolunda sizə kömək edən, sizi ona asi olmaqdan çəkindirən və onun rizasına əmr edəndir".

Aramızda kimsə günah etdikdə tez xəbər edərdi ki, günah edirsən ha! Sultan, həqiqətən, Allahına sidqi-ürəklə bağlanan dostlardan idi. Hər kəsin belə bir dosta ehtiyacı var.

Sultan gizlində yaxşılıq etməyi sevərdi. Həmişə deyərdi ki, yerə qızıl basdırın, yəni yaxşılıq edin. O, şəhid olduqdan sonra bu qızılların yazısı üzə çıxdı. Sən demə, gizlində mənə və bir çox başqalarına da çox yaxşılıqlar edibmiş. Mən bunu Sultan şəhid olduqdan sonra bildim.

Sultan hər şeyin ən yaxşısına layiq idi, hətta ölümün də!

## Süleymanov Seymur Azad oğlu - Sultanın dostu

Sultanla tanışlığımız məsciddən başlayıb. O, gülərüz, gözəl xasiyyətli, səmimi bir insan idi. Hər dəfə işlədiyi yerin qarşısından keçəndə görüşər, hal-əhval tutardıq. Həm din qardaşım, həm məşq yoldaşım idi. Eyni idman zalında birlikdə məşq edirdik. Başqa bir oxşar cəhətimiz isə hər ikimizin hərbiyə marağımızın olması idi. Hətta eyni qoşunda, yəni Sərhəd qoşunlarında xidmət etmişdik. İkinci Qarabağ müharibəsi zamanı Sultan Zəngilan istiqamətində döyüşərkən mən onlardan arxa tərəfdə, başqa bir əməliyyatda idim. Onların qarşıda çəkdikləri əziyyətləri sayəsində biz irəlilədikcə Sultangilin hansı çətinliklərdən keçdiyini hiss edirdim. Döyüşlər qurtardıqdan sonra Zəngilan dağlarının yüksəkliklərində xidmət edərkən Sultanın şəhidlik xəbərini aldım. Ürəyim sıxıldı, gözlərimə qaranlıq çökdü. Bir anlığa dilim tutuldu... Həqiqətən, dost itirmək çox çətindir, özü də Sultan kimi bir dostu!

## Hüseynli Mehman Musa oğlu – Sultanın dostu

Sultan haqda o qədər xoş xatirələrim var ki, heç bilmirəm, hansından söz açım! Məni ona bağlayan ən böyük xüsusiyyəti insanların problemlərini öz problemi kimi bilməsi, insanların dərdinə yanması idi. Kiməsə bir yaxşılıq edəndə mənə tapşırardı ki, Mehman xahiş edirəm, bu işi mənim həll etdiyimi heç kim bilməsin. Kiməsə yardım etmək məsələsi varsa, Sultan mütləq bu işə qoşular, əlindən gələn köməkliyi göstərərdi.

Allaha həqiqi bəndə olmaq hər kəsə nəsib olmur. Bəlkə də, ən böyük nemət insanların Allaha xalis bəndə olmasıdır. Sultan da bütün gəncliyini – ömrünün ən şirin çağlarını Allaha fəda etməyə, ona əsl bəndə olmağa çalışdı.

Hər dəfə vəzifədən geri dönəndə ilk dəfə məni ziyarət edər, mənimlə görüşərdi. Çünki mənim iş yerim ona ən yaxın ərazidə idi. Fikir verirdim, özü çox yorğun olsa da, mənim yorğunluğumu hiss etdikdə sanki öz yorğunluğunu unudar, mənə kömək etməyə çalışardı.

Sultanın ən böyük arzusu Kərbəla ziyarətinə getmək idi. Sanki bunu çox istədiyindən İmam Hüseyn (ə) onu şəhidlik zirvəsinə ucaltmaqla özünə müsafir etdi. Ruhu şad olsun əziz qardaşımın!

# *Sultanın adı kövrək misralarda*

*Kim Allahdan ixlasla şəhid olmasını istəsə, Allah onu şəhidlər dərəcəsinə çatdırar.* **(hədis)**

**Rahil Məmməd**

## Əziz Sultan

Ürəkləri sərinlədən sübh mehisən,
Yarpaq üstə yanan jalə, nur şehisən.
Sən şəhidlik zirvəsinin fatehisən,
Əziz Sultan!

Neyləyəsən, belə imiş alın yazın,
Yaşanmadan qışa döndü ömür yazın.
Ey şəhidim, axan qanın dəstəmazın,
Əziz Sultan!

Könüllərdə təxti-rəvan qurmusan sən,
Hüzuruna mələklərmi göydən enən?!
Yaradanın süfrəsində ruzilənən,
Əziz Sultan!

Sən əbədi həyatdasan, sən dirisən,
Sən Vətənin şir ürəkli əsgərisən.
Məzarınla hamımızın and yerisən,
Əziz Sultan!

Buza döndü saf çeşməli duyğuların,
Cücərmədi qəlbindəki arzuların.
Şirin olsun Cənnətdəki yuxuların,
Əziz Sultan!

* * *

Çox gözəldir bu həyat, həm də şirindir canımız,
Vətən uğrunda fəqət candır bizim qurbanımız.

Haqq yolunda hazır idi alışıb yanmağa o,
Sultanı bir an unutmaq sayılar nöqsanımız.

Şəninə hər nə qədər tərif desək, bəs eyləməz,
Bir Vətən sevdalısı olmuş, bilin Sultanımız.

Təqvalı, izzətli, həm kamala çatmış gənc idi,
Çox şükür, o yoxsa da, boş qalmayıb meydanımız.

Vermərik fürsəti bir də yadlara, and içmişik,
İnşaAllah ki, pozulmaz bir daha peymanımız.

Qanlarıyla torpağı onlar Vətən etmiş bizə,
Vəsf edək Sultanları, hər nə ki var imkanımız.

Bağladıq sözdən çələng, Rahil, anaq Sultanı ki,
Bu sətirlər ruhuna olsun kiçik ehsanımız!

## Ümid Sadə

### Sənsizəm indi

Sən tapmamısan buz kimi pak eşqə bəhanə,
Könlündə qalıb xeyli dilək döndü nihanə.
Səndən daha gəlməz, şəhidim, bir də cəhanə,
Ey canıma canın qatanım, sənsizəm indi.

Qardaş, bölüşərdik ikimiz dərdi, qubarı,
Hər gün tələsərdik necə biz məscidə sarı.
Röyama qonaq gəl, görüşək biz yenə barı,
Son mənzilə nurtək çatanım, sənsizəm indi.

Sözlər mənə xidmətdədir, məna sənə layiq,
Ey heç kəsi incitməyənim, əhdinə sadiq.
Eşq ilə edib yaxşılığın gizlədən aşiq,
Ey gizlicə əldən tutanım, sənsizəm indi.

Qəlbim kül olub yandı qubar, qüssə, kədərdə,
Könlüm alışıbdır daha dağdan uca dərdə.
Qardaş dağı görmək də mi varmış bu qədərdə,
Gənc ikən ömürlük yatanım, sənsizəm indi.

### Sultanların Sultanı

Nə olar, aldadın məni,
Deyin ki, yuxu görürəm.
Tabutu gəlməyib deyin,
Qardaşım ölməyib deyin!

İstəsəz, dərimi soyun,
İstəcəz ətimi yeyin.
Dünyanın yükünü qoyun,
Qamətimi bükün, əyin.
Amma deyin, sağdır Sultan.
Gözümə çırağdır Sultan.
Tabutu gəlməyib deyin,
Qardaşım ölməyib deyin!
Eşq olsun ər qardaşıma,
Həmdəmimə, sirdaşıma!
Sultanların Sultanına!
Hürriyyətin pələnginə
Tabutdakı bağrağı da
Boyanıbdı can rənginə.
Günəş doğdu, külək əsdi
Ürəklər də çox kövrəkdi.
Şəhidliyin mübarəkdi!
Sənin qanın müqəddəsdi
Heç ummazdım, bir gün gələr
Məzarına gül düzməklə
Ürəyimə su səpərəm.
Məzarını qucaqlayıb
Qara torpaqdan öpərəm.
Azadlığın zirvəsinə
Öz canını sancan qardaş!
Dünya səndən heç doymadı,
Nə tez doydun bu dünyadan.
Şəhid olubsan, can qardaş!
Gözlərində Azərbaycan,
Baxışında Vətən vardı.
Sənə güllə atan düşmən
Əbədiyyən zəlil, xardı!

## Salam, Şəhidim!

Yaman darıxmışıq biz səndən ötrü,
Necəsən, neynirsən, salam, Şəhidim!
İndi Vətən sənə borclu, Vətənə
Ödədin borcunu tamam Şəhidim!

Səninlə xoş günlər yaşadıq, qardaş,
Birgə dayanardıq namaza belə.
Dostluğu özündə göstərdin bizə,
Səndən doymamışdıq inan ki, hələ.

Şəhidim, məst etdin sən o Cənnəti,
Ətrinlə məst etdi Cənnət də bizi.
Gəlmişik məzarın üstünə yenə,
Qoymusan aylardı həsrətdə bizi.

Səntək bir dostu hardan tapaq biz,
Mini düşmənimiz biri dostumuz.
Sanırıq yuxudur olub-keçənlər,
Nə vaxtsa dönəcək geri dostumuz.

Ürəyin o qədər zəngin idi ki,
Yoxsulun qayğısın çəkərdin daim.
Kərbəla zəvvarə olmaq dilərdin,
İmamçün göz yaşı tökərdin daim.

Tökdüyün göz yaşı zaman yetişdi,
Məzarın içində çırağın oldu.
Sən Ağa Hüseynə getmək istərdin,
Ağan özü gəlib qonağın oldu.

Ağsaqqal atanın o pak əlindən
Göydən yerə enib mələklər öpür.
Ağ saçlı Ananın qədəmlərindən
Qəddini bükərək fələklər öpür.

## Qayıdış

Arabir yuxuma gəlirsən, olur
Haqqın ümid verən qayıdışları.
Qoy qalım yanında, ya da ki sən gəl,
Deyərək edirəm yalvarışları.

Yaramı uzağı bağlamağı var,
Bir dağın bir dağı bağlamağı var.
Qəlbimin sübh çağı ağlamağı var,
Könlümün gecələr axtarışları.

Böyük ibrət qoydu gedən gələnçün,
Ən çox da qardaşın darıxır sənçün.
Canını eylədin fəda vətənçün,
Sənə yazılıbdır söz alqışları.

Zirvəndən söz açır dağlarda hər daş,
Sən Cənnət əhlinə nə gözəl sirdaş!
Sənin ruhun ilə fəxr edir, qardaş,
Atanın üzündə qəm qırışları.

Sevincin gedişi, qəmin gəlişi,
Hər kəsə verilmir şəhadət işi.
İsidir səmada doğan Günəşi,
Ananın o soyuq qar baxışları!

O qədər gül var ki, qəfil solmalı,
Sanma hər gələnlə yerin dolmalı.
Rəhmət qazanmaqçün səntək olmalı
Bəndənin Allaha yalvarışları.

Zaman ömrümüzə olmasa kəfil,
Onda bu ümidlər olar sərsəfil.
Nəhəng xatirələr yatırar qəfil
Kiçik duyğuların oyanışları.

Şəhidlik nə adət, nə bir ənənə,
Şəhidlik zirvədir büllur bədənə.
Bizdən də mehriban onlardır sənə
Cənnətin qayğıkeş dost-tanışları.

## Səttar Qarağaclı

### Ürəyimə damıb ki...

*Şəhid İbrahimov Sultan Mikayıl oğlunun dilindən*

Qazanılan zəfərim
Düşmən gözünə oxdur.
Bu qovğada bir addım
Geri çəkildi yoxdur.
Torpağıma göz dikən
Anlayırmı naşıdır?!
Bu meydan nər meydanı,
Bu Vətən savaşıdır.
Mən ədalət carçısı,
Düşməni diz çökdürən
Qorxusu, bəlasıyam.
Bu yol haqqın yoludur,
Ürəyimə damıb ki,
Mən şəhid olasıyam.

Elə zərbə vuraq ki,
Murdarları oyada.
Dalğalansın bayrağım
Şuşada, Cəbrayılda.
Qoy yaralı qalmasın
Laçınım, Kəlbəcərim.
Ürəyə yük olmasın
Nə qəmim, nə dərd-sərim.
Şimşək kimi çaxası,
Buludtək dolasıyam.
Bu yol haqqın yoludur,
Ürəyimə damıb ki,
Mən şəhid olasıyam.

Dözəmmərəm o murdar
Yağıların oyununa.
Torpaq sevın oğulu
Torpaq alar qoynuna.
Süzmə nə göz yaşıyla,
Qəmli baxışla məni.
Anam, bağışla məni,
Vətən, bağışla məni.
Öz elimin, obamın
Yenilməz qalasıyam.
Bu yol haqqın yoludur,
Ürəyimə damıb ki,
Mən şəhid olasıyam.

## Əzizağa Məmmədli

### Rahat uyu ana torpaq altında
*(poema)*

Başlayanda Vətənin haqq savaşı,
Yayılanda bu səs-səda ölkəyə
Yurdun vətənpərvər bir oğlu kimi
Sultan da həvəslə getdi cəbhəyə.

Güllələr yağsa da dörd bir yanına,
İrəli gedirdi qəhrəman Sultan.
Azadlıq deyilən müqəddəs yolda
Onu qorxutmurdu nə ölüm, nə qan.

Gedirdi nifrətlə düşmən üstünə,
Sanki göy üzündə çaxırdı şimşək.
Qoyulan məqsədə yetişmək üçün
And içmişdi, sona kimi gedəcək.

Bu döyüşdə neçə-neçə dığanı,
Neçə qaniçəni gəbərtmişdi o.
Önündə diz çöküb yalvarış edən
Əsir də özüylə gətirmişdi o.

Əsgərlər çətin bir durumda idi,
Neçə gündü, susuz qalmışdı onlar.
Gur çayın axdığı zirvədə isə
Durmuşdu insafsız, nankor "qonşu"lar.

Gedərək o çaydan suyu gətirmək
Çox çətin, mümkünsüz, ağır iş idi.
Bu, çox təhlükəli, bu, çox qorxulu,
Ölümə bərabər bir gediş idi.

Hər zaman, hər anda açıla bilən
Atəşə, gülləyə olsa da hədəf.
Verdi qərarını mərdim, igidim,
Hünərlə yol getdi o çaya tərəf.

Getdi, mətanətlə getdi irəli,
Ölümü əyninə eyləyib libas.
Çaydan su gətirən cəsur Sultanım
On iki əsgəri eylədi xilas.

Vacib yüksəkliyi almaq gərəkdir,
Yenə də öndədir cəsur Sultanım.
Düşmən qabağından bir an dönməyən
Vüqarlı Sultanım, məğrur Sultanım.

Sağında yaralı, solunda şəhid,
Hiddətdən, nifrətdən yanırdı Sultan.
Yenilməz döyüşçü yoldaşlarını
Doğması, əzizi sanırdı Sultan.

Cəhənnəmə vasil olunca düşmən,
Gəbərtdikcə düşmən dığasını o.
Bir az dinclik tapıb rahatlanırdı,
Aldıqca beləcə qisasını o.

Qarış-qarış çıxdıqca əsarətdən
Yenidən canlanır torpağımız da.
Budur, yüksəklikdə dalğalanır
Müqəddəs, üçrəngli bayrağımız da.

Allahına bağlı, dininə bağlı
Vətənə sevgiylə dolu Sultanım.
Neçə döyüşlərdən çıxdı üzüağ,
Çıxdı alnıaçıq, nurlu Sultanım.

Zəfərə o qədər inanırdı ki,
O qədər bağlıydı qadir Allaha,
"Vətənin qələbə rəmzi" adını
Vermişdi döyüçü dostları ona.

Qanlı döyüşlərin birində Sultan
Cəbhə yoldaşını görüb yaralı.
Döyüş meydanından çıxarmaq üçün
Qorxmadan özünü atdı irəli.

Bu an snayperdən açılan güllə
Sultanı bürüdü büsbütün qana.
İgid həmyerlimiz qalxdı, ucaldı
Şəhidlik deyilən ali məqama.

Elə bil, bir anda dayandı zaman,
Sandım, göy üzünü bürüdü duman.
Bu acı xəbərdən sarsıldım yaman,
Sən ey nur çöhrəli şəhid Sultanım!

Güllə oynayanda dörd bir yanında
Yox idi bir qətrə qorxu canında.
Durdun qala kimi düşmən önündə,
Sən ey nur çöhrəli şəhid Sultanım!

Həyat gah enişdi, gah da yoxuşdu,
Sinəndə yurd eşqi qaynadı, coşdu,
Sənin taleyinə ölməzlik düşdü,
Sən ey nur çöhrəli şəhid Sultanım!

Adi ölüm deyil bu qanlı ölüm,
Bu şöhrətli ölüm, bu şanlı ölüm.
Adınla fəxr edir millətim, elim,
Sən ey nur çöhrəli şəhid Sultanım!

Salyan torpağında dünyaya gəldin,
Bu torpaqdan qüvvət aldın, güc aldın.
Allahın sevimli bəndəsi oldun,
Sən ey nur çöhrəli şəhid Sultanım!

Bu dünyadan hamı ölüb gedəcək,
Açan güllər bir gün solub gedəcək.
Sənin ömrün bitib-tükənməyəcək,
Sən ey nur çöhrəli şəhid Sultanım!

Rahat uyu ana torpaq altında,
Sənintək qəhrəman oğullarıyla
Əbədi olacaq doğma yurdumuz,
Azad edib müqəddəs torpaqları,
Zəfər çaldı mətanətli ordumuz!

## Çatdın arzuna, Sultanım

Sultan qeyrətli oğuldu,
Qorxmaz, cürətli oğuldu.
Sultan kimi mərd oğullar
Dünyada tək-tək doğuldu.

Ay mənim əziz Sultanım,
Ürəyi təmiz Sultanım.
Yerə-göyə sığışmayan
Arzusu dəniz Sultanım.

Pak, həm həyalı Sultanım,
Ağzı dualı Sultanım.
İmam Hüseyn aşiqi,
Əli sevdalı Sultanım.

Tərbiyəsi bir nümunə,
Bağlıydı Allaha, dinə.
Qaçmadı düşmən önündən,
Dəydi güllə sinəsinə.

Dininə, Tanrına qurban,
Acına, ağrına qurban.
O param-parça olan
Sinəndə yarana qurban.

Getdin torpağın qoynuna,
Qurban o boy-buxununa.
Şəhid olmaq istəyirdin,
Çatdın, Sultanım, arzuna.

Eh, nə deyim bu dövrana,
Yetişmədin öz kamına.
Allah da sevirdi səni,
Qaldırdı tez dərgahına.

## Nur üzlü Sultanım, şəhidim mənim

Haqqın, ədalətin gur səsi oldun,
Sızlayan torpağın nəfəsi oldun.
Tanrının sevimli bəndəsi oldun,
Nur üzlü Sultanım, şəhidim mənim!

Dedin, bu Vətənə qurbandı canım,
Odur səcdəgahım, dinim, imanım.
Dönmərəm bu yoldan, axsa da qanım.
Nur üzlü Sultanım, şəhidim mənim!

Allah sevgisiylə aşıb-daşanım,
Xəzərtək kükrəyib, Kürtək coşanım.
Namaz qılan tərzdə şəhid düşənim,
Nur üzlü Sultanım, şəhidim mənim!

Sığmaz şanlı ömrün yüz-yüz illərə,
Fəxarət bəxş etdin bizim ellərə.
Adın əfsanətək düşüb dillərə,
Nur üzlü Sultanım, şəhidim mənim!

Anamız torpaqdan güc alan oğul,
Düşmənin başına od salan oğul.
Tanrı dərgahına ucalan oğul,
Nur üzlü Sultanım, şəhidim mənim!

Çıxmır yaddaşlardan ər baxışların,
O həyatla dolu nur baxışların.
İnanmır itkinə dost-tanışların,
Nur üzlü Sultanım, şəhidim mənim!

Ömrün gələn nəslə nümunə, örnək,
Yatdığın torpaqda bitər gül-çiçək.
Şəhid adın mübarəkdir, mübarək,
Nur üzlü Sultanım, şəhidim mənim!

## Elnur Uğur Abdiyev

### Sultan Şəhid!

*(poema)*

*Şəhid Sultan İbrahimovun dipdiri xatirəsinə!*

Bir yaz səhəri,
Günəşlə bir doğdu,
Doğum xəbərin!
Salyandan Vətənə nur saçdı o gün, Mələklər yerə endilər,
Yerə insan gəldi,dedilər.
Vətən göyünü Salyandan
Sülh rəngi ilə rənglədilər.
Süd rənginə boyandı o gecə
Səma.
Ata, Ana
Sevincdən qanad taxdı arzularının qollarına.
Uçdular ümid səmasında,
Sultan adını qoydular sənə,
Sultan olacaqmışsan bir gün demə,
Ayrılığın sultanı olan ölümə!
Mələklər də bir yandan Alnına yazdılar
Tanrı tapşırığını:
24 Aprel ana bətnindən olum günün,
24 Oktyabr Şəhadətə doğum günün.
24 yaş yaşadın.
Bu 24 rəqəmi nə yaman yazıldı alnına,
Bir mistik düşüncənin işığında
Qaldırıram həyat adlı dramın ilk pərdəsini,
Oynayıram öz-özümə üzümün doğmalığını,

Yamsılayıram həyatın sevgi səsini.
Düşünürəm, bəlkə,
Günəş Yerin başına 24 saata dövrə vurur deyə,
Bir Günəş ömrü yazıb
Tanrı bu sultan sevgiliyə.
Can Şəhidim,
Sultan şəhidim!
Ağbənddə Vətənin üzünü ağ elədin,
Düşmənə niyyətini dağ çəkdin!
Ölümü öldürdün o gün,
Gələcəyin bətninə eşq toxumu əkdin!
Eşq nə demək, Səndən öyrənəcək,
Gələcək,
Şəhidim!
Ölümləri öldürməkdi eşq.
Özünü qurban verməkdi eşq.
Özünü qurban vermək,
Əslində özünə qiymətdi.
Dünyaya gəliş də,
Gediş də,
Yüksəliş də,
Eniş də
Nə varsa vur-tut bircə niyyətdi.
Hə, niyyətdən doğur,
Bütün iyyət şəkilçili sözlər.
Səmimiyyət də,
Cəmiyyət də.
"Niyyətin hara,mənzilin ora"
Boşuna deməmişlər,
Niyyəti xalislər.

Nə gözəl gedişdi bu?
Addım -addım uzaqlaşdıqca,
Adam-adam yüksəlişdi bu.
Bu eşqin bir adı var elə,
Bu ad ilə Milyard ildi,
Yer öz oxundan yapışıb qalıb.
Dünyanı eşqdir,
Bu qədər çirkablar içində duru saxlayıb.
O eşq ki, Şəhid adı yazılıb baş daşının taleyində.
O eşq ki, Anaların göz yaşının taleyində,
İşım-işım işıq saçır,
"Vətən sağ olsun!"nidası.
Sən də Vətən sağ olsun dedin,
Getdin, Dönmədin!
Eh,nə danışıram axı?
Sən elə özün boyda döndün elə,
Niyyətinə, Baxışlar qurban kəsildi.
Naxçıvan, Qarabağ,
Şəki,Lənkəran,
Bir də ki,
Məmləkətdəki Bütün sevdalılar,
O günü Vətən ruhuna qoşulub
Şəhadət yolçuluğuna
Yoldaş olmağa Salyana gəldi!
Bu Vətənin sənə
Vəfa borcu var, Şəhidim!
O haqq məhkəməsində,
Haqqa haqlı Şahidim!
İçdiyin Şəhadət Şərbəti,
Eşqin Kərbəlasından keçmək qisməti!

Ruhunu andıqca
Gözəl anlayıram
Ruh susadıqca,
Çatlayır adamın qəfəsi-dərisi
Bu boyda sevdanın alın yazısının
Sabahkı yol xəritəsi,
Niyyətinlə yazılır.
Azadlığımın boyu bir ömür də uzandı.
Vətən eşqinə təşnə ruhun,
Vətən boyda sevgi qazandı.
Dualar var əliboş dönür,
Əllər var içi daş dönür,
Səcdədən.
Sən bir müjdəsən
Şəhid sevdanla.
Şahid sevdanla
Sondan sonrakı sonraya.
Yaxşı bax Şəhidim,
Durduğun sıraya
Mələklər, Tanrı.
Bir də əkiz qardaşları
Bütün Şəhidlərin Şəhidlər.
Yaxşı bax
Dörd yanın işıq,
Bu nur
Hansı niyyətdən doğur?
Eşqdən?!
Meytək içmisən,
Ölüm can verib hər qurtumunda.
Vətənin qurtuluşunda

Mayak olub səndən sonra
Adın!
Sən ölmədin Şəhidim,
Yaşadın!
Nəğmədə,
Sözdə,
Əməldə,
Zəfərdə...
Zəfərin möhürü qanın!
Sən sübut elədin,
Təkcə analar qoruyucu mələkləri deyil,
Oğullar da qoruyucu mələyi olur ananın!
Adını Sultan qoymuşdu sevənlər,
Sultan doğmuşdun
Atanın taleyinə,
Ananın sənli günlərinə.
Sultan kimi də ucaldın ölümünlə.
Mələklər müjdələyən Şəhadətinə,
Can deyir, can!
Yarasından Vətən axan
Misralarım!
Sən Şəhidim,
Baharısan bu yurdun!
Həmişəyaşıl xatirələrin.
Hər baş daşına baxanlar
Baş daşına baş daşı yox,
Vətən deyir!!!
Vətəni torpağın üstündəkilər deyil,
Altındakılardır ayaqda tutan.
Sən dipdiri xatirənlə əbədi yaşamın sübutusan!!!

## Əkbərov Tural Elçin oğlu - Sultanın silahdaşı

Turalın müharibə zamanı ürək ağrısı ilə yazdığı bu şeiri də kitabda verməyi lazım bildik. Şeirin texniki quruluşunda müəyyən qüsurlar olsa da, təbii və səmimi hissləri ifadə etdiyi üçün qiymətlidir.

* * *

Zəngilan uğrunda gedən döyüşdə
Vətənçün can verdi can qardaşlarım.
"Vətən anam",- deyib qeyrət çəkdilər,
Qeyrətli, namuslu can yoldaşlarım.

Sizlər qələbəyçün şəhid oldunuz,
Biz də qələbəyə şahid kəslərik.
Şahidlər aldılar qisasınızı,
Bu gün yanğı ilə sizi səslərik.

"Hər şey vətən üçün"- deyən qardaşlar
Bal səsli qardaşım Xudayar kimi.
Balaca ləqəbli, böyük ürəkli
Çempion qardaşım Sultan ər kimi.

Yaddaşdan silinməz, qəlbdən silinməz,
Müharibə necə oğullar aldı.
Bunu da bilin ki, şəhidlər ölməz,
Sizdən gör nə qədər xatirə qaldı.

## Son söz əvəzi

Belə bir deyim var. Deyirlər, şəhidlər şəhid olana qədərki ömürlərini bu ada layiq yaşayırlar. Çünki onlar Yaradanın sevib-seçdikləridir. Sultan haqda bu kitabın üzərində işləyərkən bu qənaətə gəldim ki, deyilənlər həqiqətdir. Bu kitabda Sultan haqda otuzdan çox insandan - doğmalarından, yaxınlarından, dostlarından, səngər yoldaşlarından, müəllimlərindən, hətta yüksək çinli komandirindən belə xatirələr toplanmışdır. Bu insanların demək olar ki, hamısı onun səxavətli, əxlaqlı, mədəni, Allahına, dininə bağlı, xeyirxah bir oğul olduğunu vurğulayırlar. O, insanlara yaxşılıq etməyi məcazi mənada "torpağa qızıl basdırmaq" kimi ifadə edirdi. Sultan sanki təltəlşüurda gələcək taleyinin necə olacağını bilir, özünü həm mənəvi-psixoloji, həm də fiziki cəhətdən bu sonluğa hazırlayırdı. Davamlı şəkildə idmanla məşğul olmasının da bununla bağlı olduğunu söyləsək, səhv etmərik.

Sultan və Sultan kimi oğullarımız öz fədakarlıqları ilə millətimizin qeyrət papağını yenidən özünə qaytardılar, onu məhv olmaq təhlükəsindən xilas etdilər. Şəhidlərimiz otuz ildən artıq işğal altında inləyən torpaqlarımızı müqəddəs qanları ilə suvarıb yenidən vətən etdilər. Bütün bu deyilənlərə rəğmən biz bütün həyatımız boyu şəhidlərimizə borcluyuq və onları heç vaxt unutmamalıyıq. Elə şəhidlərimizin bir ümdə istək və arzuları bu olmuşdur ki, əgər şəhid olsalar, unudulmasınlar. Bu kitabı ərsəyə gətirməkdə bir məqsədimiz də ruhuna qurban olduğum şəhidlə-

rimizin unudulmamaq arzularının gerçəkləşməsinə xidmət etməkdir.

Mən istər Birinci, istərsə də İkinci Qarabağ müharibələrində, həmçinin 2016-cı il Aprel döyüşlərində şəhid olmuş oğullarımız haqda çoxsaylı publisistik və bədii yazıların müəllifiyəm. Bunların içərisində Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyev, Vətən Müharibəsi Qəhrəmanları Nihad Babayev və İntiqam Əsgərli, neçə-neçə "Azərbaycan Bayrağı" və "Qarabağ" ordenləri, müxtəlif medallarla təltif olunmuş qəhrəmanlarımız vardır. Biz belə oğullarımızın sayəsində bu gün başımızı dik tuta bilirik.

Təəssüf ki, bəzən onların ruhlarına haqsızlıqların da şahidi oluruq. Mən bu kitabımın qəhrəmanı kiçik gizir Sultan İbrahimov haqda təsadüfi olaraq yazmağa qərar verməmişəm. Onun igidliyi, qəhrəmanlığı haqda eşitdikdən sonra haqqında araşdırma aparmış, yüksək çinli zabitlərdən tutmuş gizir və əsgərlərə qədər silahdaşlarından, mülki dövr həyatında onu tanıyanlardan zəngin məlumatlar topladıqdan sonra kitabı ərsəyə gətirmişəm.

Sultan İbrahimov heyrətamiz dərəcədə əxlaqlı, vətəninə, dininə bağlı cəsur və mərd bir oğul olmuşdur. O, sevdiyi peşəsindən ayrılaraq könüllü DSX-nin Çevik Alayına qoşulmuş, vətənin müdafiəsinə qalxmışdır. Müharibənin ilk günlərindən başlayaraq Arazboyu ərazilərin, Cəbrayılın kəndlərinin və rayon mərkəzinin, eləcə də Zəngilan torpaqlarının düşməndən azad edilməsində savaşmış, qəhrəmanlıqlar göstərmişdir. Təkcə bir fədakarlığı - aralarında yaralıların da olduğu şəx-

si heyət susuzluqdan əziyyət çəkərkən avtomat silahını və su qabını götürərək düşmənin nəzarətində olan qorxulu ərazidən su gətirməsi onun əsl qəhrəman olduğunu sübut edir.

Silahdaşları Sultanın, həqiqətən, qorxmaz, cəsur bir gizir olduğunu təsdiq edirlər. O, Zəngilan torpaqlarında düşmənin əks hücumundan ilk olaraq xəbər tutmuş, düşmənə atəş açaraq yoldaşlarını duyuq salmış, düşmənlə üzbəüz döyüşdə atışaraq onlara tələfat vermiş, eyni anda snayperdən və pulemyotdan açılan atəş nəticəsində şəhadətə qovuşmuşdur. Məncə, valideynləri haqlı olaraq Sultanın yüksək rütbəli komandirlərindən gileylənirlər. Axı Ali Baş Komandan müharibənin gedişində bütün əsgər və zabitlərimizin fəaliyyətini görə və qiymətləndirə bilməzdi! Sultanın komandirləri nə üçün vaxtında bu "Balaca Əjdaha" təxəllüslü qəhrəmanın haqqında lazımi distansiyalara səhih məlumat verməyə xəsislik və ya laqeydlik göstəriblər?!

**Sultan İbrahimov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə:**

***1. "Vətən uğrunda"(15.12.2020);***
***2. "Döyüşdə fərqlənməyə görə"(18.12.2020);***
***3. "Zəngilanın azad olunmasına görə" (25.12.2020);***
***4."Cəbrayılın azad olunmasına görə"(05.11.2022) medalları ilə təltif olunmuşdur.***

Ümid edirik ki, ədalət gec-tez öz yerini tapacaq. Sultan İbrahimovun ruhu daha böyük təltiflərlə

mükafatlandırılacaqdır.

Ruhun şad olsun, Sultanım! Ruhunuz şad olsun şəhidlərim!

Kitaba son söz olaraq fikrimi təxminən on beş il əvvəl şəhidlərimizin ruhuna ərməğan etdiyim şeirlə bitirmək istəyirəm.

## Şəhidlər

Şəhidləri yaxşı tanı, yaxşı tanı, əziz dost,
Tariximə qəhrəmanlıq yazanlardı şəhidlər.
Soydaşları gecə-gündüz qələbəyə səsləyən,
Qanad çalıb göylərimdə süzənlərdi şəhidlər!

Bir vaxt onlar qayalara, səngərlərə sığındı,
O mərdləri xatırlayır dərə indi, dağ indi.
Nə olsun ki, bu həyatda deyil onlar sağ indi,
El yolunda hər əzaba dözənlərdi şəhidlər.

Millətimdə şəhidliyə bir meyar var, ölçü var,
Bu məqamı zirvə sanan son müqəddəs elçi var.
Cövhərində vətən eşqi, bir də haqqın gücü var,
Haqsızlığa dərin quyu qazanlardı şəhidlər.

Qartal kimi zirvələrdə qərar tutar, qıy vurar,
Zəncirlənmiş pələng kimi nərə çəkib hayqırar!
Vətən darda qalmış deyə ərənlərə hay vurar,
Susqunluqdan, ətalətdən bezənlərdi şəhidlər!

Mənim  xalqım istiqbala, yüksəlişə yol istər,
Azadlığı zərrə deyil, qram deyil, bol istər.
Qarı düşmən bu milləti qolubağlı qul istər,
Yağıların niyyətini pozanlardı şəhidlər.

Qisas günü uzaq deyil, bilirəm ki, gələcək,
Şəhid verə biliriksə, bizimkidir gələcək!
Bu torpağın sinəsinə səpilib çiçək-çiçək,
Tariximdə qarlı qış yox, yaz anlardı şəhidlər,
Qəhrəmanlıq dastanımı yazanlardı şəhidlər!



# MÜNDƏRİCAT

İbrahimov Sultan Mikayıl oğlu ........................................3
Azərbaycan himni ........................................................................4
Ön söz əvəzi ..................................................................................5
Unutmayaq ....................................................................................11
Döyüş meydanında qisası alınmış şəhid ..........................12
Qəlbimizdə yaşayacaq ...............................................................15
"Balaca Əjdaha"nın nağılı ........................................................16
İbrahimov Miklayıl Sultan oğlu - Sultanın atası ............30
İbrahimova İlhamə Malik qızı - Sultanın anası ..............34
İbrahimv Aqil Mikayıl oğlu - Sultanın qardaşı...............41

**Hərbçi yoldaşlarının Sultan haqda xatirələri**

Kapitan Rizvanlı Aqil Əmrağa oğlu ...............................43
Əkbərov Tural Elçin oğlu - Sultanın qrup komandiri ...44
Gizir Ülvi Bəkirov Sultan haqqında ................................45
Fəttahov Kənan Şöhrət oğlu - Sultanın döyüş yoldaşı ..48

**Qohumları Sultan haqda**

İsayev Malik Həsən oğlu - Sultanın ana babası..............51
Əbilova Şura qulu qızı - ....................................................53
Sultanın nənəsinin xalası qızı ...........................................53
İbrahimova Gülxanım Razzaq qızı - Sultanın nənəsi ....55
Əliyeva Gülarə Malik qızı - Sultanın böyük xalası .......56
Abdulova İlahə Sədaqət qızı - Sultanın xalası qızı.........58
Əliyev Sədaqət Elbrus oğlu - Sultanın xalasının həyat yoldaşı ........................................................................60
Əliyev İlqar Sədaqət oğlu - Sultanın xalası oğlu ..........61
İsayeva Sevinc Malik qızı - Sultanın xalası ....................62
Əsgərova Xatirə Xanhüseyn qızı - Sultanın xalası ........63
Əsgərov Aslan Əsgər oğlu - Sultanın ana babasının dayısının yeznəsi ...........................................................67
Əsgərova Sehri Aslan qızı - Sultanın xalası qızı .............70
Mikayılov İlkin Elçin oğlu - Sultanın xalası oğlu ...........72

Mikayılov Elvin Elçin oğlu - Sultanın xalası oğlu..........73
Əsgərov Fuad Aslan oğlu - Sultanın xalası oğlu ............74
İbrahimova Gülnarə Sultan qızı - Sultanın bibisi...........76
Nağıyeva Yeganə Sultan qızı - Sultanın bibisi ................79
Sultanlı xatirələrin işığında...............................................81
Nağıyeva Firuzə Şahin qızı - Sultanın bibisi qızı ..........97
Quliyeva Rövşanə Sultan qızı - Sultanın bibisi...............99
Quliyeva Məhluqə Ramin qızı - Sultanın bibisi qızı ......99
Quliyeva Nəzrin Ramin qızı - Sultanın bibisi qızı ........100
Zeynalova Lalə Xanhüseyn qızı - Sultanın atasının dayısı qızı ..........................................................................101
Tağıyeva Nuray Elnur qızı - Sultanın atasının dayısı nəvəsi.......................................................................103
Zayıdova Humay Həşim qızı – Sultanın bibisi qızı......104

**Müəllimləri Sultan haqda**

Manafova Sevinc İnqilab qızı - Azərbaycan dili və ədəbiyyat müəllimi ..........................................................105
Nağıyev Sahib Mehdi oğlu - Salyan şəhər Aşıq Pənah adına 1 saylı təmayüllü liseyin direktoru ....................109
Rzayeva Mirzeynəb Mirsəmid qızı - məktəbin təşkilati işlər üzrə direktor müavini.............................................109
Babayeva Vəfa İbad qızı - biologiya müəllimi..............110
Manafov Müşfiq Hamən oğlu - Sultanın sinif rəhbəri .................................................................111
Məmmədova Günel Nəriman qızı - rus dili və ədəbiyyatı müəllimi ..........................................................................112
İbadova Töhvənisə Ağayusif qızı - Azərbaycan dili və ədəbiyyatı müəllimi.........................................................113

**Sultanın mülki həyat dövründəki dostlarının və İbrahimovlar ailəsinin digər dostlarının onun haqqında xatirələri**

Kərimova Madər Zakir qızı - İbrahimovlar ailəsinin dostu ..........................................................................114

Pənahova Sevinc Kamil qızı - ailə dostu........................115
Həsənova Sevinc Fərman qızı - Salyan rayonunun Çuxanlı kəndindən İbrahimovlar ailəsinin ailəvi dostu........................................................................116
Əzizov Hacı Mirzağa Məmmədağa oğlu - Sultanın Quran müəllimi ........................................................................118
Muhamməlli Xalid Nizami oğlu - Sultanın dostu........120
Abasov Rövşən Abasağa oğlu - məşqçi müəllim .........122
Rzayeva Pərvanə Oqtay qızı - Sultanın anasının rəfiqəsi ..............................................................124
Əliyev Məhəmməd Elçin oğlu - Sultanın dostu ...........125
Abaslı Mahmud Məmmədqulu oğlu - Sultanın dostu...................................................................127
Süleymanov Seymur Azad oğlu - Sultanın dostu ........128
Hüseynli Mehman Musa oğlu – Sultanın dostu...........129

**Sultanın adı kövrək misralarda**
Əziz Sultan........................................................................130
**Ümid Sadə**
Sənsizəm indi....................................................................132
Sultanların Sultanı............................................................132
Salam, Şəhidim .................................................................134
Qayıdış...............................................................................135
**Səttar Qarağaclı**
Ürəyimə damıb ki... .........................................................137
**Əzizağa Məmmədli**
Rahat uyu ana torpaq altında...........................................139
Çatdın arzuna, Sultanım ...................................................143
Nur üzlü Sultanım, şəhidim mənim ...............................144
**Elnur Uğur Abdiyev**
Sultan şəhid........................................................................146
Əkbərov Tural Elçin oğlu - Sultanın silahdaşı...............151
Son söz əvəzi.....................................................................152

**Rahil Məmməd**

# "Sultanlı xatirələrin işığında"

İMZA
NƏŞRLƏR EVİ

**Direktor:** **Səbuhi Aslan**

**Dizayner:** **Nigar Sadıqova**

**Texniki redaktor:** **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 04.01.2025
Ofset çapı. Əla növ kağız
Tiraj: 500
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87,
(050) 263-16-16; (055) 263-16-17
email: imza_nesrler_evi@mail.ru